# VAHABİ FİRQƏSİ


## Müəllif:
## Seyyid Məhəmməd Həsən Qəzvini



Tərcüməçilər: Cavid Allahverdiyev
Cəfər Əyyubov
Azər Əhmədov
Operatorlar: Polad Zərbəliyev
Mehrab Xəlilov
Günay Həsənova

## MÜNDƏRİCAT

### 1-Cİ BÖLMƏ
### Vahabi məzhəbinin tarixi

Vahabi alimlərinin öndəri İbn Teymiyyə Hənbəli
İbn Teymiyyənin fikirlərinin sünni alimləri tərəfindən rədd edimlməsi
İbn Teymiyyənin fikirlərinin şiə alimləri tərəfindən rədd edilməsi
Mühəmməd ibn Əbdülvəhhab Nəcdi və vahabi məzhəbinin yaradılması
Mühəmməd ibn Əbdülvəhhabın zamanında onun əleyhinə kitablar yazmış alimlər
Mühəmməd ibn Əbdülvəhhabın sülaləsi
Müəhmməd ibn Səud və səud sülaləsinin vahabi məzhəbinin tərəqqisində rolu
Əbdüləziz ibn Mühəmməd ibn Səud
Kərbəlaya Hücum və orada törədilən qırğın
Taifin süqutu və vahabilərin orada törətdikləri faciələr
Müqəddəs Məkkənin işğalı
Cəddə limanına hücum
Məkkənin vahabilərdən azad edilməsi
Əbdüləzizin öldürülməsi
Səud ibn Əbdüləziz
Cəddəyə yeni hücum və Yənbunun işğalı
Müqəddəs Məkkənin mühasirəsi
Müqəddəs Mədinənin işğalı və oradakı
Qəbirlərin, islami dəyərlərin viran edilməsi
Vahabilərin Nəcəfül-əşrəfə hücumu
Kərbəla, Məkkə və Mədinəyə yeni hücumlar
Vahabilərin Şama yürüşü
Nəcəfül-əşrəfin və Kərbəlanın təkrar mühasirəsi
Vahabilərin Məsqətə hücumu
Osmanlı dövləti və vahabilərin süqutu
Səudun ölümü və oğlu Abdüllahın onun yerinə keçməsi
Vahabilərin sonuncu əmiri Abdullah ibn Səudun həbs edilməsi
Mühəmməd ibn Əbdülvəhhab sülaləsi və Ali-səud başçılarının aqibəti
Ali-səud və vahabilərin mərkəzi Diriyyə
Diriyyə və vahabilərin süqutu
Ali-səud hökumətinin bərpası və vahabiyyət dövrünün yenidən başlanması
Məhəmməd Muşari
Türki ibn Abdullah
Feysəl ibn Türki
Əbdürrəhman ibn Feysəl ibn Türki
Əbdüləziz ibn Səud
Məkkədə islami dəyərlərin və qəbirlərin viran edilməsi
Bəqi qəbirstanlığındakı imamların qəbirlərinin dağıdılması
Şərif Hüseyn və Ali-səudun ixtilafı
Sünni alimlərin vahabilərin əleyhinə yazdıqları digər kitablar
Vahabilərin əleyhinə yazılmış şiə alimlərinin kitabları

### 2-Cİ BÖLMƏ
### Vahabi məzhəbinin bəzi əqidələri və onların iradlarına cavab

1-şəriətin haram bilmədiyi iş halaldır
2-islamda yozumun və ictihadın qaydası
Vahabi firqəsinin müsəlmanların canına, malına və namusuna hörmətsizliyi
Vahabi məzhəbi Allahın əmrindən boyun qaçırır
**1-Şəfaət**
Şəfaət nədir?
Sual
Cavab
Şəfaət barəsində araşdırmalar
Şəfaət haqqında daha ətraflı məlumat
**2-ölülərə təvəssül etmək**
Ölüm-fani olmaq deyil
Vahabi məzhəbi və ölülərə təvəssül etmək
Qurandan dəlillər
Peyğəmbər sünnəsindən dəlilimiz

Kitab və sünnəyə  əsasən, dirilərə təvəssül etmək şirk deyil
Nəticə
Ömərin Peyğəmbərin (s) əmisi Abbasa təvəssül etməsi
Yalnız vasitəçilik qüdrəti olanlara təvəssül etmək lazımdır
Vahabilərin sübutu və bizim cavabımız
Məhəmməd ibn Əbdülvəhhabın bir-birinə zidd fikirləri
Səhabələrin Peyğəmbərə (s) və onun müqəddəs qəbrinə təvəssül etməsi
**3-peyğəmbər və övliyaların qəbrlərini inşa etmək şirk deyil**
Peyğəmbərlər və övliyaların qəbirlərini inşa etmək şirkdirmi?
İrad
Cavab
**4-ziyarətgah və hərəmləri bəzəmək**
Ziyarətgah və hərəmləri qızıl-gümüşlə bəzəməyin idrak və şəriət baxımından heç bir eybi yoxdur
İmamiyyə şiəsinin yuxarıdakı fikirlərin caizliyinə dair sübutları
**5- Peyğəmbər və imamların qəbrlərini ziyarət etmək şirk deyil**
İslam Peyğəmbəri (s) və imamların qəbirlərini ziyarət etmək şirk deyil və Allahdan başqasına ibadət sayılmır
Müəllifin vahabilərə cavabı
Birinci fəsil
İkinci fəsil - Məhəmməd  ibn Əbdülvəhhab və onun ardıcılları ilə söhbət
Üçüncü fəsil - ibn Teymiyyə ilə söhbət
Müsəlmanların Allahın fərmanı ilə peyğəmbərlər və övliyaların qəbirləri kənarında yerinə yetirdikləri əməllər
İrad
Cavab
İrad
Cavab
Sual
Cavab
**6-şiəyə qarşı yersiz töhmətlər**
Vahabi firqəsinin imamiyyə töhmətləri
Birinci töhmətin cavabı
İkinci iftiraya cavab1
Üçüncü iftiraya cavab
İbn teymiyyənin fikri
Cavab
**7 -  müqəddəs məkanların ətrafındakı məscidlər**
**Epiloq**
Vahabilərin digər müsəlmanlarla müxalifəti
Vahabilər; şeytanın buynuzu!
Vahabilər Allahdan başqası ilə dostluğu şirk sayılır
Bəqidəki imamların qəbirləri vahabilər tərəfindən dağıdıldı
Vahabi alimlərinin qəbirləri dağıtmaq üçün dəlillər və onların cavabları
Vahabilərin müsəlmanların malına, canına və namusuna təcavüzü
Vahabilər məzhəb azadlığının qarşısını alırlar

# 1-Cİ BÖLMƏ
# VAHABİ MƏZHƏBİNİN TARİXİ

## Vahabi alimlərinin öndəri İbn Teymiyyə Hənbəli

Vahabi ideyasının 1206-cı hicri ilində dünyadan gedən Mühəmməd ibn Əbdül- vəhhab Nəcdi tərəfindən ortaya çıxarılmasına baxmayaraq, kitabdan da mə'lum olduğu kimi vahabi e'tiqadlarının əsasını İbn Teymiyyənin fikir və ideyaları təşkil edir. Bu səbəbdən, hicrətin VIII əsrində yaşamış bu şəxs vahabiliyin banisi sayılmalıdır. Vahabi firqəsinin buna dair nəinki iradı yoxdur, hətta bu fikirlə tam razıdır.

İbn Teymiyyənin, 241-ci hicri ilində dünyadan gedən Hənbəli məzhəbinin banisi Əhməd ibn Hənbəlin bə'zi hədislərinin tə'siri altında olmasına, onun məşhur "Əl-Müsnəd" və bu kimi başqa əsərlərində işarə olunmuşdur. Həmin fikir və nəzəriyyələrin əsasında o, Allahı cism hesab edib, Onun müqəddəs zatı ilə bağlı əl, ayaq, dil, göz, ağız və məkanın varlığı barədə söz açmışdır. O, təşbeh və bənzətməni inkar etdiyi halda, ayələr və rəvayətlərin zahiri mə'nasına əsaslanaraq, Allahı göylərin ənginliyində və taxtda oturmuş kimi qələmə vermişdir. /1/

İbn Teymiyyə bu e'tiqadını artıq çap olunmuş bir neçə kitabında izhar etmişdir. Belə ki, İslam alimləri onların əleyhinə neçə-neçə kitablar yazaraq, tənqid etmişlər. Kitablardan başqa o, mənbərdəki çıxışlarında da heç nədən çəkinmədən, aşkarcasına öz e'tiqadını bəyan edirdi.

Tanınmış mərakeşli səyahətçi İbn Bətutə öz səfərnaməsində yazır: "İbn Teymiyyəni Dəməşqin came (böyük) məscidində camaata moizə edərkən gördüm. O, camaata deyirdi: "Allah dünyanın asimanına düşür, necə ki, indi mən düşürəm". Sonra mənbərdən bir pillə aşağı düşdü". İbn Bətutə əlavə edir ki, bu söz məclisdə olan Maliki məzhəbinin fəqihi İbn Zəhranın e'tirazına səbəb oldu. Amma mənbər ətrafında yığılanlar ayağa qalxıb İbn Zəhraya hücum edərək, onu döydülər. Sonradan o, Hənbəli məzhəbindən olan qazi tərəfindən şər'i tənbeh olundu, cəzalandırıldı. Qazinin bu əməli Dəməşqin Maliki və Şafei məzhəbindən olan fəqih və qazilərin e'tirazına səbəb oldu. Məsələdən xəbərdar olan şəhərin hakimi, Misir sultanı Məlik Nasirə xəbər verdi. Sultanın hökmü ilə İbn Teymiyyə zindana düşdü. /2/

İbn Teymiyyənin Allah-təalanın müqəddəs zatı haqqında küfr ideyalarından başqa, ziyarətlərin-Peyğəmbərin (s) qəbrinin ziyarətinin haramlığı, o Həzrətə təvəssül edib ondan və başqa övliyalardan şəfaət istəməyin, onların qəbrinin tikilməyinin, tə'mirinin, zinətləndirilməsinin haramlığı, onların qəbrinin dağıldılmasının vacibliyi haqqında məşhur fitvaları vardır ki, istər öz həyatı, istərsə də həyatından sonrakı dövrlərdə sünni firqələrinin başqa alim və fəqihləri tərəfindən rədd edilmişdir.

**/1/ - "Məcmuətur-rəsail" və "Əl-Əqidətul-həməviyyətul-kubra" 1-ci cild, 429-cu səh.**
**/2/ - İbn Bətutətin səyahəti 1-ci cild, səh. 57.**

## İbn Teymiyyənin fikirlərinin sünni alimləri tərəfindən rədd edilməsi

İbn Teymiyyənin Peyğəmbər (s) və digər övliyaların qəbirlərinin ziyarətinin haramlığı haqqında fikirlərini rədd edən ilk alim (763-cü hicri ilində vəfat etmiş) Mühəmməd ibn Mühəmməd ibn Əbu Bəkr Əxnai Maliki idi. O, "Əl-Məqalətul-mərziyyə fir-rəddi əla İbn Teymiyyə" adlı traktatında mö'təbər islami hədislərlə və fiqhi dəlillərlə İbn Teymiyyəyə cavab vermişdir.

İbn Teymiyyənin digər müasiri, (756-cı hicri ilində vəfat etmiş) Şamın qazilər qazisi Təqiyyuddin Subki Şafei "Şifaul-əsqam fi ziyarəti xeyril-ənam" kitabını yazaraq güclü məntiqi dəlillərlə, onun Peyğəmbərin (s) ziyarətinin haramlığı haqda əqidəsini rədd və inkar etmişdir. Bu kitaba, Məkkədə yaşayıb 1014-cü ildə oradaca vəfat etmiş məşhur Hənəfi fəqihi Molla Əli Tari şərh yazmışdır ki, "Şifaul-əsqamın şərhi" adlanır.

Bunlardan sonra məşhur alim, Mədinənin şeyxül-islamı (911-ci hicri ilində vəfat etmiş) Nurəddin Əli ibn Abdullah Səmhudi Şafei Misrinin adını çəkmək olar. O, “Vəfaul-vəfa bi ixbari daril-Mustəfa” adlı kitabında Peyğəmbərin (s) ziyarətinin savabı, onun qəbrinin əziz tutulması, ona təvəssül edib şəfaət istənilməsi barədə hədislər haqqında təfsilatlı bəhs edib, İbn Teymiyyəyə qarşı iradlar tutmuşdur. /3/

Başqa bir alim-Hicazın müftisi, Məkkənin şeyxül-islamı Əhməd ibn Mühəmməd ibn Həcər Heysəmi (973-cü ildə vəfat etmişdir) “Əl-Cəvhərül-münəzzəm” kitabında Peyğəmbərin (s) müqəddəs qəbrini ziyarətin şər’i olmasına dəlillər gətirmişdir. O, bu dəlillər arasında həmçinin “icma”ya əsaslanaraq deyir: “Əgər soruşsan ki, İbn Teymiyyə icmaya müxalif olduğu halda sən öz dəllilərində icmaya necə əsaslanırsan? Halbuki Subki İbn Teymiyyənin bu barədə öz dəst-xəttini görüb ki, qəribə istidlallarla Peyğəmbər (s) qəbrini ziyarətinin haramlığı haqqında “icma” iddiası edib, yazmışdır: Belə bir səfərdə namazı şikəstə qılmaq olmaz. (Çünki onun nəzərincə, səfər günahlardan təmizlənmə məqsədi daşımadığından, namaz bütöv qılınmalıdır). İcma bütün fəqihlərin müəyyən məsələ barəsində həmrəyliyinə deyilir.

O, ziyarətə dair bütün hədisləri saxta adlandırmışdır. Sonradan havadarlarından bə’ziləri onun yolunu getdilər. Heysəmi deyir: “İbn Teymiyyə kimdir ki, dini məsələlərdə onun sözünə e’tibar edilsin, fikrinə diqqət yetirilsin?! Məgər o həmin kəs deyilmi ki, böyük alimlərin çoxu onu fasiq dəlillərini və boş-boş sözlərini rədd edəndən sonra deyiblər: “O, İzz ibn Cəmaənin dediyi, azğın, yalançı və günahları müqabilində zillət və alçaqlığı axirətədək, habelə, dünyadaca Allahın dadızdırdığı kəsdir”.

Bütün alimlər tərəfindən ictihad və uca məqamı qəbul edilən şeyxül-islam Təqiyyüddin Subki “Şəfaul-əsqam” kitabında İbn Teymiyyənin sözlərini tədqiq, izah və rədd edəndən sonra deyir: “Bunlar İbn Teymiyyənin səhvlərinin cüz’i hissəsi idi. Halbuki, onun azğınlıqları heç vaxt islah olunmayacaq və bu bir müsibətdir ki, onlar əbədi olaraq qalacaqdır. Bu heç də təəccüblü deyil. Çünki nəfsani istək və şeytani vəsvəsələr bu azğınlıqları onun üçün bəzəmiş, o, özünü müctəhidlərə tay edib, İlahi feyzdən məhrum olduğu halda, fəqihlərin əleyhinə çıxmış, bununla da ən pis işlərə əl atmışdır. Belə ki, o, bir çox şər’i məsələlərdə İslam fəqihlərinin əleyhinə getmiş, xüsusən Raşidi xəlifələrinə e’tiraz etmişdir. O, bununla kifayətlənməyib, hər bir eybdən pak və bütün kəmali sifətlərin maliki Haqq-təalanın müqəddəs zatına bəyənilməyən nisbətlər vermiş, bütün camaat qarşısında Allahı cism saymış və bu fikirdə olmayan bütün alimlərə “yollarından azmışlar” demişdi. İş o yerə çatmışdır ki, əsrinin alimləri ayağa qalxıb zəmanənin hökumətindən onun tutulub zindana salınmasını istəmişdilər. Onun ölümü ilə bid’ətlər odu sönmüş, azğınlıqları unudulmuşdu. Yalnız uzun müddətdən sonra, bə’zi tanınmış şəxslər onun müdafiəsinə durub, əqidəsini dirçəltmək istədilər. /4/

İbn Həcər də “Əl-Fətavəl-hədisə” kitabında İbn Teymiyyədən söz açaraq deyir: “İmam Əbülhəsən Subki, onun oğlu Tacuddin, Şeyx İmam İzz ibn Cəmaə və onun müasiri olan Şafei, Maliki, Hənəfi məzhəblərinə mənsub digər alimlər onun sözlərini təkzib etmişlər. /5/

Maraqlıdır ki, (852-ci hicri ilində vəfat etmiş) İbn Həcər Əsqəlani “Əd-Durərul-kaminə” kitabında İbn Teymiyyənin həyatı və fikirləri haqda söz açaraq demişdir: “O, dəfələrlə Şafei, Maliki, Hənəfi qaziləri tərəfindən Şam və Misirdə təkfir edilmiş və mənbərdə moizəsinin, tədrisinin qarşısı alınmışdır. Dəfələrlə bə’zi bəyanat və fitvalarına görə zindana düşmüş, dəfələrlə tövbə edib sonradan öz əməllərinə qayıtmışdır. Bə’zən şafeiyəm demiş, bə’zən isə əş’əri olduğunu bildirmişdir. /6/ O, daima İsgəndəriyyə, Qahirə və Dəməşq arasında get-gəl etmiş, bu şəhərlərdə Maliki, Hənəfi və Şafei alimləri ilə mübahisə edərək dörd ilə yaxın müxtəlif zindanlarda yatmış, nəhayət, 728-ci hicri ilində Dəməşq qalasının zindanında ölmüşdür.

**/3/ - “Vəfaul-vəfa bi-ixbari daril-Mustəfa” c.4 çap 1. 1374-cü il Misir çapı. Səmhudi 887-ci hicri ilində yazdığı bu kitabının, dördüncü cildinin, 8-ci bölməsinin, 1336-1423 səhifələrini Peyğəmbərin (s) ziyarətinə həsr etmiş 4 fəsildə bəyan etmişdir. O cümlədən, bu üç hədisi nəql etmişdir:**

**Abdullah ibn Abbas Peyğəmbərdən (s): “Məni ölümümdən sonra ziyarət edən, həyatımda ziyarət edən kimidir”. Abdullah ibn Ömər Peyğəmbərdən (s): “Mənim qəbrimi ziyarət edən, mənim şəfaətimə nail olar”. Abdullah ibn Ömər Peyğəmbərdən (s) nəql edir: “Kim mənim vəfatımdan sonra Həccə gedib qəbrimi ziyarət etsə, həyatımda məni ziyarət etmiş kimidir”.**

**/4/ - “Əl-Cövhərul-münəzzəm fi ziyarətil-qəbril-mükərrəm” Misir çapı 1279-cu il, səh.13.**

**/5/ - “Əl-Fətavəl-hədisə” səh.86.**

**/6/ - Əş’əri Şafei məzhəbinin əksinə olaraq, İslam əqidəsində “cəbr” (məcburiyyət) nəzəriyyəsinə e’tiqad bəsləyən firqədir.**

## İbn Teymiyyənin fikirlərinin şiə alimləri tərəfindən rədd edilməsi

Əllamə Tehraninin "Əz-Zəriə" kitabına görə, (1354-cü hicri ilində vəfat etmiş) böyük alim Seyyid Həsən Sədr Kazimi üç hissədən ibarət İbn Teymiyyənin rəddi barəsində "Əl Bərahinul-cəliyyə" adlı kitab yazmışdır. Kitabın 1-ci hissəsi İbn Teymiyyənin azğınlığı haqqında alimlərin təsdiqinə, 2-ci hissəsi buna dəlalət edən öz sözlərinə, 3-cü hissəsi isə İslamın digər firqələri ilə müxalifliyinə aiddir. Kitabın axırında o, İbn Teymiyyənin ardıcılları olan bə'zi vahabi başçılarının, o cümlədən, vahabi təriqətinin banisi Mühəmməd ibn Əbdülvəhhab Nəcdinin 1218-ci hicri ilində müqəddəs Məkkə şəhərini işğal etmiş Mühəmməd ibn Səudun və oğlu Əbdüləzizin adlarını çəkmişdir. /7/

İbn Teymiyyə şiə məzhəbinin adlı-sanlı fəqihi olan əllamə Hillinin "Miftahül-kəramə" kitabının əleyhinə yazdığı "Minhacus-sünnə" adlı kitabında üsuliddin və füruiddin haqqında e'tiqadlarının əksəriyyətini açıqlamışdır. Bu kitaba qarşı bir qrup şiə alimləri rədd cavabı yazmışlar. O cümlədən, mərhum alim, mücahid fəqih Seyyid Mehdi Qəzvini (Küveyt və Bəsrədə yaşamış, 1357 h.q. ilində vəfat etmişdir) 1318-ci ildə 4 cildli "Minhacuş-şəriə" kitabını yazmışdır. O, bu kitabın çapından sonra vahabi radikallarının təhlükəsi üzündən daim silah gəzdirərək, bə'zən Küveytdə, bə'zən isə Bəsrədə yaşamışdır.

Əllamə fəqih Hacı Şeyx Əbdülhüseyn Əmini Nəcəfi qiymətli "Əl-Qədir" kitabında 62 səhifə daxilində İbn Teymiyyə haqda söz açmış və onun ideyalarını xüsusi şəkildə batil etmişdir./8/ Bundan əlavə, Əllamə Əmini "Əl-Qədir"in 5-ci cildində "qəbirlərin ziyarəti" haqda müxtəlif mənbələrdən çoxlu əhli-sünnə hədisləri nəql edib, hicrətin ilkin çağlarından indiyədək əhli-sünnənin ziyarətgahı olan 52 qəbri mö'təbər sənədlərlə zikr etmişdir. /9/

Dediklərimiz bu barədə olan şiə hədislərindən qeyri hədislərdir ki, şiə hədislərinə gəldikdə, onların daha təfsilatlı şərhə ehtiyacı vardır.

**/7/ - "Əz-Zəriə ila təsanifiş-şiə c.23, səh.162.**
**/8/ - "Əl-Qədir fil-kitabi vəs-sunnə" c.3, səh 148-217.**
**/9/ - "Əl-Qədir fil-kitabi vəs-sunnə" c.5, səh 185-207.**

## Mühəmməd ibn Əbdülvəhhab Nəcdi və vahabi məzhəbinin yaradılması

Mə'lum olduğu kimi, Mühəmməd ibn Əbdülvəhhab hicrətin 12-ci yüzilliyində Nəcdin uzaq səhrasında, çöllüklərdə yaşayan sərt camaat arasında və müsəlmanlıq adət-ən'ənəsindən uzaq bir mühitdə dünyaya gəlmişdir. O da İbn Teymiyyə kimi Hənbəli məzhəbinin ardıcılı və "Həşv" əhli idi. İbn Teymiyyənin və onun şagirdləri İbn Təyyim Cövziyyənin, İbn Əbdülhadinin əqidə tə'limlərini öyrənmiş, bu yolda onları da ötüb keçmişdi. Belə ki, hətta bütün müsəlmanları kafir adlandırmış, müsəlman şəhər və ölkələri, o zaman vahabilərin əlində olmayan Məkkə və Mədinəni "Darul-hərb" və "Darul-küfr" e'lan etmişdi. O, müqəddəs şəhərlərin işğalını və bütün islami dəyərlərin dağıdılmasını öz ardıcıllarına vacib sayırdı.

Məkkənin böyük müftisi Əhməd Zeyni Dəhəlan Şafeinin dediyinə görə, ləyaqətli şəxs və hənbəli alimlərindən olan Şeyx Əbdülvəhhab, oğlu Mühəmmədin müsəlmanların əleyhinə danışdığını görəndə, onu öz yanından qovmuşdu. Onun qardaşı Şeyx Süleyman ibn Əbdülvəhhab da Hənbəli alimlərindən olaraq, atasıtək ləyaqətli şəxs idi. /10/

Mühəmməd ibn Əbdülvəhhabın sözlərinin gələcəkdə camaatın yolundan azmasına səbəb olacağını anlayan qardaşı, atası və müəllimləri onu danlayır və camaatı ondan uzaqlaşdırırdılar. Onların öncəgörənliyi tezliklə həyata keçdi. Mühəmməd ibn Əbdülvəhhab öz bid'ətləri ilə nadanları azdırıb, dinin öndərlərinə qarşı çıxdı və mö'minləri kafir saydı. O demişdi: "Peyğəmbərin (s) qəbrini ziyarət etmək, ona və başqa peyğəmbərlərə, övliyalara, əməlisalehlərə təvəssül edib qəbirlərini ziyarət etmək şirkdir". Bu məsələ avam camaatı elə çaşdırdı ki, ona inandılar. O da kitablar yazıb, Allaha inanan müsəlmanların, tövhid əhlinin çoxunun kafir olduğunu onlara inandırdı. /11/

Mühəmməd ibn Əbdülvəhhabın qardaşı Şeyx Süleyman onunla birgə Mədinədə təhsil alırdı. Şeyx Süleyman onunla Nəcdə gəlməsinə baxmayaraq, sonralar qardaşının ardıcıllarının əlindən Mədinəyə qayıtdı. Onun iddialarını rədd edən "Əs-Səvaiqul-ilahiyyə fir-rəddi ələl-vahabiyyə" kitabını yazıb Nəcdə göndərdi.

Şeyx Süleymanın qardaşına yazdıqlarından: "Müsəlmanların küfrünə və şirkə bais bildiyin işlər barəsində Əhməd ibn Hənbəlin zamanından əvvəl də danışılmırdı. Bir hissə onları inkar da etmişdi. Lakin

İslam rəhbərlərindən heç biri sənin dediyin kimi, bu işlərə qurşananları kafir bilməmiş, onlarla cihadı vacib etməmişlər İslam şəhərlərini sənin adlandırdığın kimi, küfr və şirk  şəhərləri adlandırmamışlar. Habelə, dörd məzhəb imamlarının zamanından keçən 800 yüz il ərzində heç bir alim bu işləri küfr saymamışdır. And olsun Allaha, sənin sözlərindən belə çıxır ki, adi camaat daxil olmaqla, bütün Peyğəmbər(s) ümməti kafir və mürtəddir. İnna lillah va inna iləyhi raciun!". Şeyx Süleyman bu yerdə təəssüf və qəmginliklə deyir: "Vay halına! Deyirsən ki, səndən qabaq heç kəs İslamı tanımamışdır?!" /12/

Əhməd Zeyni Dəhəlan "Əd-Dürərus-sənniyyə" kitabında Mühəmməd ibn Əbdülvəhhabla olan mübahisələri nəql etmişdir. O yazır: "Mühəmməd Dir'iyyə məscidindəki hər xütbəsində Peyğəmbərə (s) təvəssül etməyin küfr olduğunu deyirdi. Qardaşı Şeyx Süleyman isə onun dediklərini inkar edirdi".

Bir gün Şeyx Süleyman qardaşı Mühəmməddən İslamın rüknlərinin sayını soruşdu. Mühəmməd cavab verdi ki, beşdir. Şeyx Süleyman ona dedi: "Amma sən İslamda altı rükn tə'yin etmisən. Altıncısı da budur ki, hər kəs sənin ardıcılın olmasa, kafirdir". /13/

Şeyx Süleymanla qardaşı Mühəmməd ibn Əbdülvəhhabın arasında ixtilaf uzun sürdü. Şeyx Süleyman  qorxdu ki, qardaşı onu öldürtdürər. Odur ki, Mədinəyə köçdü. O, Mədinədə qardaşının əleyhinə traktat yazıb ona göndərdi. Amma heç birinin faydası olmadı". /14/

"Kəşfül-irtiyab" kitabında deyilir: "Mühəmməd ibn Əbdülvəhhab "Kəşfüş-şübəhat" kitabında və Mühəmməd ibn İsmail Sən'ani "Təthirul-e'tiqad" əsərində bir sıra fikirlər demişlər ki, bunlara əsasən, müsəlmanlar kafir və müşrikdirlər. Onlar hətta qeyri-vahabi müsəlmanların dininin əsasını küfr və şirk adlandırmışlar. Onlar bu fikirləri aşkar söyləməkdən çəkinmirlər. Kitabları bu kimi düşüncələrlə doludur. Mühəmməd ibn Əbdülvəhhab "Qəvaidul-ərbəə" və "Kəşfüş-şübəhat" traktatlarında belə söyləyir ki, müsəlmanların  şirki  bütpərəstlərin şirkindən daha qəlizdir. Çünki bütpərəstlər rifah və xoş güzəran içində olarkən bütə sitayiş edirlər.  Çətin anlarında isə ixlaslı olurlar. Müsəlman müşrik isə hər iki halda müşrikdir. Bütpərəst müşriklər Allahla birgə, Ona yaxın adamlara, ağaclara, daşlara sitayiş edirlər. Müsəlman müşriklər isə Allahla birgə, adamların ən pislərinə pərəstiş edirlər.  Sən'ani də "Təthirul-e'tiqad" kitabında yuxarıdakı məsələni bir neçə yerdə qeyd etmişdir. Bir yerdə isə hətta çəkinmədən: "Müsəlmanların küfrü əsli küfrdür, irtidadi /15/ deyil!"-demişdir".

İbn Teymiyyə də "Vasitə" və "Ziyarətül-qubur" adlı traktatlarında müsəlmanları peyğəmbər və övliyalara təvvəssül etmələrinə görə kafir saymışdır.

Qəti demək olar ki, Mühəmməd ibn Əbdülvəhhabın ardıcılları müsəlmanları təkfir etməyi İbn Teymiyyədən öyrənmiş və bu barədə bə'zi məqamları onun dediklərinə artırmışlar. Mühəmməd ibn Əbdülvəhhab "Kəşfüş-şübəhat" traktatında 24 dəfədən artıq müsəlmanları müşrik adlandırmışdır. O, 25 dəfəyə qədər müsəlmanları kafir, bütpərəst, mürtəd, münafiq, tovhidi inkar edən, tovhidin düşməni, Allahın düşmənləri, islam iddiaçıları, batil əhli, nadan, şeytanlar adlandırmışdır. O demişdir ki, nadan kafirlər və bütpərəstlər bu müsəlmanlardan biliklidir və şeytan onların öndəri, başçısı və silsilələrinin əvvəlidir. /16/

Əhməd Zeyni Dəhəlan Xülasətül-kəlam kitabında yazır: "Mühəmməd ibn Əbdülvəhhab əvvəllər həccə getmiş ardıcıllarını ikinci dəfə həccə getməyə vadar edib deyirdi: "Sizin birinci həcciniz şirk və küfr halınızda olub və batildir". Habelə, onun məzhəbinə qatılanlardan tələb edirdi ki, Allaha və Onun Peyğəmbərinə şəhadət verəndən sonra üçüncü şəhadət dilə gətirib desinlər: "Əvvəllər kafir idik və ata-anamız kafir olaraq dünyadan getmişlər". Əgər onlar bu üçüncü şəhadəti dilə gətirməsəydilər, əmr verirdi ki, onları öldürsünlər. O, aşkarcasına deyirdi: "Müsəlmanlar 600 il kafir olmuşlar". O, öz ardıcıllarından başqa, qalan camaatın hamısının qanını və malını halal, mübah etmişdi". /17/

Zeyni Dəhəlan kitabının digər yerində yazır: "Onun  pis işlərindən biri, camaatı  Peyğəmbərin (s) qəbrini ziyarətə qoymamasıdır. Əhsa camaatından bir qrup Rəsulallahın (s) qəbrini ziyarətə gedirdilər. Mühəmməd ibn Əbdülvəhhab bu işdən xəbər tutdu və eşitdi ki, hazırda sakin olduqları Dir'iyyə onların yolunun üstündədir. Zəvvarlar Dir'iyyəyə çatdıqda, onların saqqalarını qırxdırdı və miniklərinə tərsinə mindirib yola saldı.

Yenə bir dəfə Mühəmməd ibn Əbdülvəhhab eşitdi ki, onun ardıcıllarından olmayan bir dəstə uzaqdan gəlib, Dir'iyyədən keçərək həccə gedirlər. Zəvvarlar Dir'iyyəyə yetişəndə, o, ardıcıllarından birinə dedi: "Qoyun, bu müşriklər (Peyğəmbərin (s) qəbrinin zəvvarları) Mədinəyə getsinlər, siz isə (Nəcd səhrasının vahabiləri) bizimlə qalın!".

O, Peyğəmbərə (s) salavat göndərməyi qadağan edirdi və salavat eşidəndə narahat olurdu. Salavat göndərəni incidir, ona olmazın cəza verirdi. Hətta, xoş avazlı, dindar, gözləri kor olmuş müəzzini (azançını), onun sözünə baxmayıb Peyğəmbərə(s) salavat göndərdiyinə görə öldürtdürmüşdü". /18/

O, Mühəmməd ibn Süleyman Cəzulinin "Dəlailul-xeyrat" kitabı kimi, Peyğəmbərə (s) salavat göndərmək haqqında bir çox alimlərin kitablarını yandırtmışdı. Habelə bir çox fiqh, hədis, təfsir kitablarını oda atıb yandırmış, ardıcıllarının  hər birinə Qur'anı anladığı kimi təfsir etmək ixtiyarı vermişdi. /19/

Son illər dəfələrlə bir neçə dilə tərcümə olunub çap edilən "Mister Hemferin xatirələri" kitabında oxuyuruq ki, peşəkar ingilis casusu olan və fars, ərəb, türk dillərini bilən Hemfer Türkiyə, İraq və Nəcd vilayətini qarış-qarış gəzərək, İslam dünyasında təfriqə törədə biləcək bir şəxs axtarırdı. Bu təfriqə "Şərqi Hind" kompaniyasından sonra, ingilis müstəmləkəsinə çevrilən Hindistanın ardınca Ərəbistan yarımadasını, habelə, İslamın müqəddəs məkanlarını ələ keçirmək məqsədini daşıyacaqdı. Hemfer Mühəmməd ibn Əbdülvəhhabı Bəsrədə tapıb onu kölgəsitək hər yerdə, Bəsrədən İsfahana, oradan Nəcdə müşaiyət etməyə başladı ki, öz batil ideyalarını aşkarlasın. Axırda buna nail oldu ki, Əbdülvəhhabın ardıcılları İslamın müqəddəs məkanlarını xarabalığa çevirdilər. Bunlar barədə, habelə, Əbdülvəhhabın və ardıcıllarının İslam dünyasına qarşı etdikləri cinayətlər haqda geniş mə'lumat almaq istəyənlər, mütləq "Mister Hemferin xatirələri" kitabını oxumalıdırlar.

Ərəb mənbələrində Əbdülvəhhabın İsfahana səfəri barədə mə'lumat olmasa da, Şüştərinin "Məsiri-Talibi" və "Töhfətül-aləm" kitablarında Ağa Əhməd Kermanşahinin "Mir'ati-əhvali-cahannüma" kitabında və "Mister Hemferin xatirələri" kitabında bu mətləb mövcuddur. Habelə, Mühəmməd ibn Əbdülvəhhabı və vahabi məzhəbini təhlil edən xarici mənbələr göstərir ki, Mühəmməd ibn Əbdülvəhhab İsfahana və İranın başqa şəhərlərinə getmiş, hətta orada bə'zi fəlsəfə alimlərinin yanında olmuşdur. Bunun yalan yoxsa, həqiqət olması aydınlaşdırılmalıdır.

**/10/ - "Xülasətül-kəlam;"Kəşfül-irtiyab" kitabından səh.3.**
**/11/ - "Əl-Fütuhatul-islamiyyə" c.2, səh.229.**
**/12/ - "Əl-Fütuhatul-ilahiyyə" səh.38, "Vahabilər" səh. 239-241.**
**/13/ - "Əl-Fəcrus-sadiq" səh.170.**
**/14/ - Əd-Dürərüs-sənniyyə səh.40**
**/15/ - Mürtəd - müsəlmanlıqdan dönmüş kafir şəxsə deyilir.**
**/16/ - "Kəşfül-irtiyab" səh.147-"Kəşfüş-şübəhat"dan səh.57-72-dək nəql edərək.**
**/17/ - "Vahabilər" (Kəşfül-irtiyab) səh.163.**
**/18/ - "Vahabilər" səh.253 "Dürərüs-sənniyyə"dən nəql edərək.**
**/19/ - "Vahabilər" səh.250.**

## Mühəmməd ibn Əbdülvəhhabın zamanında onun əleyhinə kitablar yazmış alimlər

Bunlar bir qrup sünni alimləridir ki, Əbdülvəhhabın həyatı dövründə onun iddialarını alt-üst etmək, şübhələrinə cavab vermək üçün çalışmış və bir sıra kitablar yazmışlar. Bu kitabları əvvəlcə əhli-sünnə alimlərinin yazmasının səbəbi, onların Mühəmməd ibn Əbdülvəhhabla qardaşlıq, müəllimlik, tanışlıq əlaqələrinin olması, yaxud onun ideyalarının şiə mühitindən qabaq sünni mühitinə yol tapması idi.

Məkkə alimlərindən olan Əbu Hamid ibn Məzuq "Ət-Təvəssulu ilən-Nəbiyy və cəhələtul-vahabiyyin" adlı kitabında Mühəmməd ibn Əbdülvəhhabın müasirləri olan və onun əleyhinə kitab yazan 40 alimin adını çəkmişdir ki, onların bir qismi bunlardır:

1."Əs-Səvaiqul-ilahiyyə fir-rəddi ələl-vahabiyyə" Mühəmməd ibn Əbdülvəhhabın qardaşı Şeyx Süleyman ibn Əbdülvəhhab. 1296-cı hicri ilində İstanbulda və 1306-cı hicri ilində Misirdə çap olunmuşdur.

2.Mühəmməd ibn Süleyman Kürdünün məqaləsi. O, Mühəmməd ibn Əbdülvəhhabın Mədinədə ustadı olmuş və bu məqaləni onun qardaşı Şeyx Süleymanın kitabına əlavə olaraq yazmışdır.

3."Təcridu seyfil-cihad limuddəil-ictihad". /20/ Mühəmmədin ustadı olan Abdullah ibn Əbdüllətif Şafei. Kitabın adından göründüyü kimi o, Mühəmmədi bir müctehid və nəzər sahibi kimi tanımamışdır.

4."Əs-Səvaiqu vər-rüud" Əfifüddin Abdullah ibn Davud Hənbəli. Bu kitaba bir çox Bəsrə, Bağdad və Hələb alimləri əlavələr yazıb, təsdiqləmişlər.

5.Əhməd ibn Əli Bəsri Şafeinin traktatı.

6.Əbdülvəhhab ibn Əhməd Bərəkat Şafei Məkkinin traktatı.

7.Şeyx Əta Məkkinin "Əs-Sarimul-hindiyy fi unuqin-nəcdiyy" adlı traktatı.

8."Əs-Süyufus-siqal fi ə'naqi mən ənkərə minəl-əvliya", Beytül-müqəddəs alimlərindən birinin əsəri.

9."Təhrizul-əğbiya ələl-istiğasəti bil-ənbiyai vəl-əvliya", taifli Şeyx Abdullah ibn İbrahimin əsəri.

10.“Əl-İntisar lil-əvliyail-əbrar” taifli Şeyx Tahir Hənəfi.

11.Seyyid Ələvi ibn Əhməd deyir: “Mühəmməd ibn Əbdülvəhhaba qarşı Məkkə, Mədinə, Əhsa, Bəsrə, Bağdad, Hələb, Yəmən və digər şəhərlərdən olan bir çox sünni alimlərinin cavab və irad kitabları saysız-hesabsızdır. Bunların hamısını Bəhreyn hənbəlilərindən olan Əbürrəzzaq tayfasından bir şəxs mənim üçün gətirmişdi. Səfərdə olduğum üçün onların üzünü köçürə bilməsəm də hamısını oxudum”.

12.“Əl-Əqvalul-mərziyyə fir-rəddi ələl-vahabiyə”, Şeyx Ətaul Kəsəm Dəməşqi.

13.“Qəvsul-ibad bibəyanir-rəşad”, 1368-ci hicri ilində vəfat etmiş Şeyx Mustafa Həmmami Misri.

14.“Səadətud-dareyn”, Şeyx İbrahim ibn Osman Səmənəvvudi. Öz həyatı dövründə hicri 1320-ci ildə çap edilmişdir.

15.“Ən-Nüquluş-şər’iyyə fir-rəddi ələl-vahabiyyə”, Şeyx Həsən ibn Ömər Şətta Hənbəli Dəməşqi (1274-cü ildə vəfat etmişdir).

16.1355-ci ildə vəfat edən Şeyx Mühəmməd ibn Həsəneyn Məxluf Maliki Misrinin övliya və ənbiyaya təvəssül etmək barədə traktatı.

17.“Əl-Məqalatul-vafiyə fir-rəddi ələl-vahhabiyyə”, Həsən Xizbək.

18.Seyyid Mun’iminin qəsidəsi. O, Mühəmməd ibn Əbdülvəhhab bir qrup müsəlmanı saçlarını dibdən qırxmadıqlarına görə qətlə yetirdikdən sonra bu qəsidəni yazmışdı. Əbdülvəhhab kişi və qadınlar daxil olmaqla, hamının saçının qırxmasını vacib bilmiş və bu əməli tərk edən hər bir kəsin öldürülməsini vacib etmişdi.

**/20/ - “İctihad iddiaçısına qarşı sıyrılan cihad qılıncı”-kitabın adının tərcüməsi.**

## Mühəmməd ibn Əbdülvəhhabın sülaləsi

Əhməd Zeyni Dəhəlan Xülasətul-kəlamda yazır: “Mühəmməd ibn Əbdülvəhhab 1111-ci hicri ilində doğulmuş və 1207-ci ildə 96 yaşında ikən dünyadan getmişdir. İlk dövlərdən o, İslam tarixindəki yalançı peyğəmbərlik iddiaçıları, o cümlədən, nəcdli Museylimeyi-Kəzzab, Bəni-Təmim qəbiləsindən olan Səcah adlı qadın, Əsvəd Ənsi, Tuleyhə barəsində mütaliəyə böyük meyl və həvəs göstərirdi.

Mühəmməd ibn Əbdülvəhhab öləndən sonra onun dörd oğlu qaldı ki, adları Abdullah, Həsən, Hüseyn və Əli idi. Abdullah atasından sonra onun yolunu tutub, işini davam etdirdi. Ondan sonra isə öz oğlanları Süleyman və Əbdürrəhman bu işi davam etdirdilər. Süleyman həddən ziyadə təəssüblü insan idi. O, 1233-cü hicri ilində İbrahim paşanın əli ilə öldürüldü. Habelə, qardaşı Əbdürrəhman da tutulub Misirə sürgün olundu və orada öldü.

Mühəmməd ibn Əbdülvəhhabın ikinci oğlu Həsəndən Əbdürrəhman adlı bir nəvəsi də var idi. O, vahabilərin Məkkəni işğal etdikləri zaman (1218-ci hicri-qəməri) şəhərin qazisi oldu. O, yüzillik bir ömür yaşadı və özündən sonra vahabilər arasında tanınmış şəxs olan Əbdüllətif adında oğlunu qoyub keçindi.

Digər oğullar, Hüseyn və Əlinin də çoxlu sayda övladları olmuşdur ki, onların nəsilləri indiyədək Dir’iyyə məntəqəsində yaşayıb, Beytuş-şeyx, yə’ni, Şeyx Mühəmməd ibn Əbdülvəhhabın övladları adı ilə tanınırlar.

Mühəmmməd ibn Əbdülvəhhaba, onun məslək və əqidələrində ilk arxa duranlar Mühəmməd ibn Səud, oğlu Əbdüləziz və nəvəsi Səud ibn Əbdüləziz olmuşlar. /21/ Mühəmməd ibn Əbdülvəhhabın oğlu və nəvələri də, öz əsərləri ilə onun fikir və məsləyini izah edib yaymaqda ciddi sə’y göstərmişlər. Həmçinin, Mühəmməd ibn İsmail Sən’ani “Təthirul-e’tiqad” kitabında, Alusi Bağdadi “Nəcdin tarixi” kitabında və Şövkani öz kitablarındakı yazıları ilə vahabiliyin yayılmasına bais olmuşdular.

**/21/ - “Kəşful-irtiyab”, səh.3 “Xüləsətül-kəlam”dan nəql edərək.**

## Mühəmməd ibn Səud və Səud sülaləsinin vahabi məzhəbinin tərəqqisində rolu

Mühəmməd ibn Əbdülvəhhabın batil ideyalarının Nəcdin müxtəlif qəbilələri arasında inkişafı, Səud sülaləsinin başçısı olan Mühəmməd ibn Səudun etdiyi müharibə, zülm və zorakılıq hesabına olmuşdu. Yalnız öz məntəqə və yaşadıqları yer barəsində mə'lumatları olan uzaq Nəcd qəbilələri də xəbərsizlikləri ucbatından Mühəmməd ibn Əbdülvəhhabın rəftar və dediklərinə vurulub, vahabi məsləyinə qoşulmuşdular.

Mühəmməd ibn Səud, Mühəmməd ibn Əbdülvəhhabın Dir'iyyəyə gəlişindən qabaq Üneyzə adlı kiçik qəbilənin şeyxi və Nəcd qəbilələrinin bir hissəsinin başçılarından biri idi. O, Mühəmməd ibn Əbdülvəhhabın də'vətini qəbul edib, ona qoşulandan sonra bütün məntəqəyə hakim oldu. Onun işləri getdikcə böyüdü və nəhayət, 1159-cu hicri ilində hər tərəfdən qonşu məntəqələrə həmlə edib camaatın malını qarət etməyə başladı.

1162-ci hicri ilində Məkkə əyanları həyacan təbili çalıb Mühəmməd ibn Səudun hücumları barəsində "Babi-aliyə-Osmanlı sarayına xəbər verdilər. Bu ilk dəfə idi ki, Osmanlı hökuməti vahabi hərəkatından xəbərdar olurdu. Mühəmməd ibn Səud 1179-cu ildə Nəcd vilayətində 30 illik hakimiyyətdən sonra öldü və onun yerini oğlu Əbdüləziz tutdu. **/22/**

**/22/ - "Vahabilər" səh.297.**

## Əbdüləziz ibn Mühəmməd ibn Səud

Əbdüləziz, Mühəmməd ibn Səudun oğlanlarından böyüyü idi. O, atasından sonra vahabilik ideyasının yayılmasında və öz hökumətinin möhkəmlənməsi yolunda çox çalışdı. Əbdüləziz hakimiyyətinin ilk 30 ilində daim qonşu qəbilələrlə müharibə aparır və özünü "Əmirəl-müslimin" sayırdı. Hündürboy, bədənli və qalın səsli bir adam idi. O, 1208-ci ildə Əhsanı fəth etdi. Əhsa və Qətifin işğalı ilə vahabilər fars körfəzinə yaxınlaşdılar.

Vahabi məktəbinin, yaxud öz dediyi kimi, guya "Tovhid" **/23/** məktəbinin banisi Mühəmməd ibn Əbdülvəhhab 1206-cı ildə (bə'zi tarixlərə əsasən, 1207-ci hicri ilində) öldü. Onun yerini böyük oğlu Abdullah tutub atasının məzhəbini yaymaqda sə'y göstərməyə başladı.

Əbdüləzizin qiyamçı vahabi ordusu ilə Məkkə əmirinin ordusu arasında ilk müharibə 1207-1214-cü illərdə baş verdi və sülh sazişi ilə nəticələndi. 1215-ci hicri ilində Əbdüləziz və oğlu Səud Nəcd qəbiləsinin kişiləri, qadınlar və uşaqları ilə birgə həcc səfəri adıyla Məkkəyə doğru hərəkət etdilər. Əbdüləziz yolda xəstələnib Nəcdə qayıtdı. Oğlu Səud isə həccə yetişib Məkkə əmiri Şərif Qalib ilə görüşdü. Bu səfərdə Əsir, Tuhamə, Bəni-Hərb qəbilələri Səuda qoşulmuş və bu da Şərif Qalibi narahat etmişdi. **/24/**

Həmin ildə tərəflər arasında daha bir müharibə baş verdi. O müharibədə odlu silah da işlədildi.

**/23/ - Əbdülvəhhab öz ardıcıllarından başqa, bütün müsəlmanları kafir və müşrik sayırdı.**
**/24/ - "Tarixül-məmləkətil-Ərəbiyyətis-Səudiyyə kəma ərəftə" c.1, səh.73, Vahabilər kitabından nəql edərək.**

## Kərbəlaya hücum və orada törədilən qırğın

Vahabilərin İraqa hücumu 1214-cü hicri ilində başlandı. Belə ki, bu ildə vahabilər Nəcəfül-əşrəfə hücum etdilər. Amma onda Xəzail ərəbləri onların qarşısına çıxıb 300 nəfər öldürdülər. **/25/**

1216-cı ildə Səud ibn Əbdüləziz atasının əmri ilə Kərbəlaya qoşun çəkdi və camaatı qırmağa başladı. Vahabilərin Kərbəlaya hücumu 1225-ci ilə qədər davam etdi. Vahabi tarixçilərindən olan Səlahəddin Muxtar yazır: "1216-cı ildə Nəcd, Əşair, Tuhamə və Hicaz camaatından ibarət olan böyük ordu Əmir Səudun başçılığı ilə İraqa tərəf hərəkət etdi. Ordu zil'qədə ayında Kərbəlaya yetişib, oranı mühasirəyə aldı. Qoşun şəhərin divarlarını söküb zorla içəri daxil oldu. Küçə, bazar və evlərdə çoxlu adam öldürüb günortaya yaxın xeyli qənimətlə şəhərdən çıxdı. Sonra Əbyəz adlı vadidə cəmləşdilər. Malların xümsünü Səud özü götürüb, qalanını hər piyadaya bir pay və hər süvariyə iki pay ödəməklə payladı (Çünki, onların nəzərinə görə kafirlərlə müharibə etmişdilər). **/26/**

Başqa bir vahabi tarixçisi Şeyx Osman ibn Bişr bu hadisəyə şərh verərək yazır: "...Qəbrin (İmam Hüseynin (ə) qəbrinin) üstündəki gümbəzi viran etdilər. Üstündə yaqut, zümrüd və başqa cavahirat olan zərihi sökdülər. Şəhərdə olan mal, silah, libas, xalça, qızıl-gümüş, nəfis tərtiblənmiş Qur'an nüsxələrindən nə qədər var idisə, hamısını qarət etdilər. Onlar Kərbəla əhalisindən 2000 nəfərə yaxın adam öldürüb günortaya yaxın şəhərdən çıxdılar". **/27/**

Həmin əsrin böyük fəqihlərindən olan və Nəcəfdə yaşayan məşhur şiə alimi Seyyid Cavad Amili yazır: "1216-cı ildə İmam Hüseynin (ə) ziyarətgahını qarət etdilər, kişi və uşaqları öldürdülər, camaatın malını qarət edib, İmamın(ə) hərəminə hörmətsizliklə təcavüz edərək oranı kökündən viranayə çevirdilər".

"Nüzhətul-qəriyy" kitabının müəllifi Şeyx Xızır nəql edir ki, vahabilər Həbib ibn Məzahirin qəbrinin zərihini taxtadan olduğuna görə sındırıb, yandırdılar və hərəmin qiblə tərəfində qəhvə dəmlədilər. Onlar İmam Hüseynin (ə) də zərihini o kökə salmaq istəyirdilər. Amma, zərih dəmirdən olduğundan bu işi bacarmadılar.

Şeyx Xızır haşiyələri qızılla işlənmiş nəfis xətli Qur'anı və İmam Hüseynə (ə) həsr olunan gözəl bir qılıncı qarətçilərin əlində görmüşdü. **/28/**

Kərbəladakı qırğından söz açan ən qədim tarixçi, Hindistanda yaşamış Mirzə Əbu Talib İsfahani olmuşdur. O, faciədən 11 ay sonra Londondan Hindistana qayıdarkən Kərbəlada olmuşdu. Mirzə Əbu Talib "Məsiri-Talibi" adlı səfərnaməsində yazır: "Zilhiccənin 18-i Qədir-xum günündə, Kərbəlanın əksər mö'təbər adamları Nəcəfə ziyarətə getdikləri zaman 25000-ə yaxın vahabi ərəb atları və dəvələrə minərək şəhərə daxil oldular. Şəhərin hakimi Ömər Ağa sünnülərə təəssübkeş olduğundan, vahabilərlə danışıq aparmış və onların bir hissəsi şəhərə zəvvar qiyafəsində daxil olmuşdular. Odur ki, ilk həmlə, şəhərin içində "Öldürün müşrikləri!" və "Vurun başını kafirlərin!" qışqırtıları ilə başladı. Sonralar Ömər Ağa şəhərdən qaçmağına baxmayaraq, Süleyman Paşa onu tutdurub qətlə yetirdi. Çox qan tökəndən sonra vahabilər hərəmin gümbəzinin qızıl örtüyünü qoparıb aparmaq istədilər. Buna nail ola bilmədiklərinə görə, gümbəzi içəridən balta və külünglə sındırıb, axşamçağı qorxusuz vətənlərinə qayıtdılar. 5000 nəfərdən artıq öldürüldü. Yaralıların sayı-hesabı yox idi. Həzrət İmamın(ə) hərəmindən başqa digər yerlərdən qızıl, gümüş və dərdə dəyən nə var idisə, süpürülüb qarət edildi. Müqəddəs hərəmin həyəti qanla, otaqları öldürülənlərin cəsədi ilə dolu idi. Həzrət Abbasın(ə) hərəmindən savayı heç bir müqəddəs məkan vahabilərin bu bəlasından amanda qalmadı. Bu hadisənin dəhşəti o yerə çatmışdı ki, mən 11 ay sonra bu şəhərdə olarkən, faciə hələ də təzəliyini saxlamışdı. Hamı ondan danışırdı. İnsanlar ağlaya-ağlaya elə danışırdılar ki, eşidənin bədənində tüklər biz-biz olurdu". **/29/**

**/25/ - "Vahabilər" səh.337**
**/26/ - Tarixül-məmləkətis-Səudiyyə kəma ərəftə c.1, səh.78.**
**/27/ - "Ünvanül-məcd fi tarixi-Nəcd" c.1, səh.121.**
**/28/ - "Nüzhətul-qəriyy" səh.52.**
**/29/ - Məsiri-Talibi, 2-ci çap səh.408.**

## Taifin süqutu və vahabilərin orada törətdikləri faciələr

Vahabilər 1218-ci ildə Əmir Əbdüləzizin əmri və Osman Məzayifinin sərkərdəliyi ilə Məkkənin on iki fərsəxliyində olan Taif şəhərinə hücum edib, əhalisini qırmağa başladılar. Onlar hətta ana qucağında olan südəmər körpələrin başlarını kəsdilər. Şəhərdən üz qoyub çıxan bir qrup müsəlmanı tə'qib edib öldürdülər. Sonra şəhəri qarət, evləri viran edib, "qalibiyyət" xəbərini Əbdüləzizin oğlu Səuda çatdırdılar. Vahabilər bir dəstə kişi və qadını lüt-üryan Taif ətrafında, biyabanda başlı-başına buraxdılar. On üç gün keçdikdən və onlar dilənçi vəziyyətinə düşdükdən sonra, vahabilər onların hər birinə bir ovuc qarğıdalı verib, vahabi olacaqları təqdirdə öldürməyib buraxdılar.

Cəmil Sidqi Zəhavi Taifin işğalı barəsində yazır: "Vahabilərin ən çirkin əməllərindən biri, böyük-kiçiyə rəhm etmədən camaatı qırmaqdır. Beləcə onlar, anasının qucağında südəmər körpənin başını kəsdilər. Qur'an oxumaqla məşğul olan bir dəstə adamı öldürdülər. Evlərdə heç kəs qalmadığından dükan və məscidlərə gedib, hətta rüku və səcdə halında olanları da qətlə yetirdilər. Camaatda olan Qur'ani-Şərif, Səhihi-Buxari, Səhihi-Müslüm və digər kitabları küçələrə töküb tapdaladılar. Bu hadisə 1217-ci ildə baş verdi". **/30/**

Əhməd Zeyni Dəhəlan yazır: “Taifin işğalından sonra istədilər Məkkəyə üz tutsunlar. Amma gördülər ki, hacıların çoxu Məkkədədir, Misir və Şamdan gələn hacılar da yoldadır, mümkündür onlar birləşib döyüşə qatılalar. Buna görə də səbr edib zilhiccə ayının qurtarmasını gözlədilər”. /31/

**/30/ - “Əl-Fəcrus-sadiq” səh.22. “Vahabilər”dən nəql edərək səh.301.**
**/31/ - “Əl-Fütuhatul-İslamiyyə” c.2, səh.234, “Xülasətul-kəlam”.**

## Müqəddəs Məkkənin işğalı

Taifin işğalından sonra Nəcd alimləri Məkkə alimlərinə məktub göndərdilər. Məkkə alimləri bu məktuba cavab yazmaqla məşğul idilər ki, Taif məzlumlarından bir dəstə gəlib, başlarına gələn müsibətləri danışdılar. Eşidən-bilən elə dəhşətə gəlmişdi ki, sanki qiyamət qalxmışdı. Axırda Məkkə alimləri vahabilər üçün kafir hökmünü verdilər. E’lan etdilər ki, Məkkə əmirinə onlara bu işdə köməklik üçün vahabilərlə mübarizə etməsi vacibdir. Üzürsüz səhlənkarlıq edənlər günahkar, cihad edib vuruşanlar mücahid, vahabi əli ilə öldürənlər isə şəhiddirlər”. /32/

Məkkənin müftisi olan Zeyni Dəhəlan (1304-cü hicri ilində vəfat etmişdir) yazır: “Məkkənin əmiri ilə Qalib müharibə üçün özünü güclü saymadığına görə qardaşı Əbdülmuini öz yerinə tə’yin edib Cəddəyə getdi. Məkkə əhalisi taiflilərin başına gələnlərin öz başlarına gələcəyindən qorxub aman istədilər. Səud da onlara aman verdi”.

1217-ci ilin axırlarında Səud ibn Əbdüləziz Məkkəyə hücum edərək, 1218-ci ilin məhərrəm ayının 8-də şəhərə girib oranı işğal etdi. “Bu il mən iraqlılarla (şiələrlə) müharibəyə hazırlaşırdım. Amma müsəlmanların (vahabilərin) taiflilərlə müharibə edib sizə tərəf gəldiklərini eşitikdə, çöl ərəblərinin sizə hücum edəcəyindən qorxdum. Allaha şükür edin ki, sizləri İslama (vahabiliyə) hidayət edib şirkdən qurtardı!”. Bu sözləri Səud deyirdi. Bərk qorxmuş Məkkənin müftisi isə əhaliyə üz tutub söyləyirdi: “Əmir Səud belə buyurur!”. Sonra Əbdülmuin, müfti, qazi və camaat Səuda bey’ət etdilər. Məkkə bütünlüklə işğal altında olduğundan və hamı əmrə tabe olmaq zərurəti önündə qaldığından, Səud camaata öz əlləri ilə tikdikləri gümbəzləri öz əlləri ilə sökmələrini əmr edərək: “...Sizin üçün Allahdan başqa mə’bud qalmasın!” dedi.

Həmin günün səhəri vahabilər Məkkə camaatının bir çoxu ilə əllərində bel, külüng yola düşdülər. Onlar “Cənnətül-müəlla” qəbirstanlığının bir çox gümbəzlərini, Əbu Talibin, Əbdülmüttəlibin, Həzrət Xədicənin və Peyğəmbər (s) övladlarının qəbirlərini viran etdilər. Sonra Həzrət Rəsulun(s), Əbu Bəkrin, Əlinin(ə) və Həzrət Xədicənin doğulduğu yerlərin gümbəzlərini sökdülər... Kə’bədən savayı Məkkədə olan bütün ziyarətgahları viran etdilər. Məkkə camaatı da qorxudan bu müqəddəs məkanları dağıtmaqda vahabilərlə əlbir oldu. Vahabilər bu işləri görəndə rəcəz oxuyur, təbil çalırdılar! Bunlardan sonra Səud, Mühəmməd ibn Əbdülvəhhabın kitablarını, xüsusilə də “Kəşfüş-şübəhat” kitabındakı ideyalarını öyrənib-öyrətməyi əmr etdi. Sərəncam verdi ki, avam camaat gəlib dərslərdə iştirak etsin, onlar da çarəsizlikdən tabe oldular.

Tarixçi Cəbərti deyir: “Məkkə əhalisinin çoxu həccə gələnlərlə birgə vahabilərin qarşısından qaçdı. O vaxt camaat arasında vahabilər barəsində fikir müxtəlifliyi var idi. Məkkə əhalisi onları kafir və dindən xaric bildilərsə də, bir qrup bu fikirlə razılaşmadı”. /33/

Öz e’tiqadlarına görə şirk olan işlərdən, o cümlədən, təvəssül və qəbirlərin ziyarətindən camaatı çəkindirirdilər. /34/

**/32/ - “Seyfül-cəbbar”, Şah Fəzl Rəsul Qadiri, 2-ci səhifədən sonra.**
**/33/ - “Əl-Muxtar min tarixil-Cəbərti” səh.533, “Kəşfül-irtiyab” səh.22-23.**
**/34/ - “Əl-Fütuhatul-İslamiyyə” c.2, səh.234.**

## Cəddə limanına hücum

Vahabi tarixçisi İbn Bişr “Nəcdin tarixi” kitabında yazır: “Səud 20 gün Məkkədə qaldıqdan sonra (bə’zi tarixlərə əsasən, 24 gün) Qalibi tutmaqdan və Cəddəni ələ keçirib, orada hökmranlıq etməkdən ötrü Məkkədən çıxdı. O, 8 gün Cəddəni mühasirədə saxladı. Amma qala divarlarından açılan top atəşlərinin

vahabilərin çoxunu məhv etməsi, Səudun ümidini qırdı. O, Cəddənin işğalından vaz keçib Nəcdə qayıtdı. Həm də o eşitmişdi ki, iranlılar Fətəli şah Qacarın əmri ilə Nəcdi ələ keçirmək üçün hücum etmişlər".

## Məkkənin vahabilərdən azad edilməsi

Səudun Cəddədən çəkilməsindən sonra Qalib və Cəddə hökmdarı böyük top və çoxsaylı ordu ilə birlikdə, Məkkəni azad etmək məqsədilə yola düşdülər. Məkkəyə çatdıqda, bir döyüşdə şəhəri ələ keçirdilər. Onların şəhərə daxil olması ilə vahabilərin oradan qaçmağı bir oldu. Vahabilər məğlubiyyətə uğradıqda Məkkə ətrafındakı qəbilələrə hücum edib, çoxlu adam öldürdülər, qadınları kişilər arasında lüt-üryan edib, vəhşiliklər törətdilər. Camaat aman istədikdə, onları vahabi olmaları şərti ilə öldürməyib sağ buraxdılar.

## Əbdüləzizin öldürülməsi

Hicri 1218-ci il rəcəb ayında, 1216 və 1218-ci illərdə Kərbəla və Məkkə kimi müqəddəs şəhərlər azad edildi. Nəhayət, müsəlmanların başına bəlalar gətirən Səudun atası Əbdüləziz qətlə yetirildi. O, Dir'iyyə şəhərindəki məsciddə səcdə edərkən, Mosul, yaxud İmarədən (İraq) onu öldürmək üçün gələn bir kişi xəncərlə onu vurdu. Əbdüləziz evinə aparılandan az sonra öldü. Onu öldürən şəxsi də Əbdüləzizin qardaşı Abdullah öldürdü.

## Səud ibn Əbdüləziz

Əbdüləzizin öldürülməsindən sonra onun ordusunun başçısı olan oğlu Səud yerinə keçdi. Səud vahabilərin ən qüdrətli əmirlərindən idi. O, atasının sağlığında da, ölümündən sonra da vahabi məsləyinin yayılmasında həddən artıq sə'y göstərir, qırğınlara, qarətlərə və başqa cinayətlərə əl atmaqdan çəkinmirdi. Səud 2 il Mühəmməd ibn Əbdülvəhhabın şagirdi olmuşdu. O, Əhməd ibn Hənbəlin məzhəbinin əsasında hədis və fiqh elmindən baş çıxarır və özünün bu barədə dərsləri var idi. Səud öz sülaləsinin nüfuzunun artması üçün çox çalışır və daim ətraf qəbilələrə, müqəddəs məkanlara, Hicaz və İraqın şəhərlərinə, tayfalarına hücumlar edirdi. O, çalışırdı ki, bütün islami ideyaları yox edib, yerinə Ali-Səudun hökumətini və vahabi məzhəbini bərqərar etsin.

## Cəddəyə yeni hücum və Yənbunun işğalı

Vahabilər 1219-cu ildə yenidən Cəddəni mühasirəyə aldılar. Amma yenə də topların atəşindən geri çəkilib, Cəddənin 30 fərsəxliyində yerləşən Yənbu adlı limana hücum çəkib zəbt etdilər. Lakin sonralar Qalib bir döyüşdə onlardan çoxlu adam qıraraq, Yənbunu geri aldı.

## Müqəddəs Məkkənin mühasirəsi

1219-cu ildə Səudun əmri ilə Məkkə ikinci dəfə mühasirəyə alındı. Camaata qıtlıq və aclıq üz verdi. Onlar it, pişik əti yeməyə məcbur olmuşdular. Aclıqdan çoxlu adam öldü. Bə'ziləri şəhərdən qaçarkən vahabilər tərəfindən öldürüldülər. Kim yol tapırdısa, şəhərdən qaçırdı. İş o yerə çatdı ki, şəhərdə çox az adam qaldı. Belə ki, Məscidül-həramda camaat namazının tək bir sırası güclə dolurdu. Bütün dükan-bazar bağlanmışdı. Əmir Qalib də camaatla ayaqlaşmağa çalışırdı.

"Nəcdin tarixi" əsərinin müəllifi vahabi tarixçisi İbn Bişr deyir: "1220-ci ildə Qalib öz əmirliyinin Nəcdə tabe olmasını qəbul edib, hökumətinin yeni qanunlarla uzlaşmasına çalışdı. Belə ki, tütün və tənbəkidən istifadəni qadağan etdi. Habelə, əmr etdi ki, camaat namazlarını yalnız məscidlərdə qılsınlar, müəzzinlər yalnız azan desinlər, Peyğəmbərə (s) salam deməkdən isə çəkinsinlər. **/35/**

**/35/ - "Ünvanül-məcd fi tarxi-Nəcd" c.1, səh.153-dən sonra.**

## Müqəddəs Mədinənin işğalı və oradakı qəbirlərin, islami dəyərlərin viran edilməsi

Səud 1220-1221-ci illərdə Mədinəyə hücum edərək, şəhəri 1 il yarım mühasirədə saxladı, nəticədə o, müqəddəs məkanı işğal etdi. Həzrət Rəsuli-Əkrəmin(s) hərəmində qiymətli nə var idisə, hamısını qarət etdi. Osmanlı dövləti tərəfindən Məkkə və Mədinəyə tə'yin edilmiş qazi qovuldu, Peyğəmbərin (s) və Bəqidə dəfn olunmuş imamların qəbrinin ziyarəti qadağan edildi. Osmanlı adamlarının hamısını sürgün edib, Osmanlı sultanının adını qadağan etdi. Səud Mədinə əhalisindən soruşdu: "Bəqi qəbirstanlığındakı bu gümbəzləri nə edək?". Camaat da qorxudan: "dağıdağ"-dedi. Bundan sonra vahabilər şəhər əhalisinin

özlərinin köməkliyi ilə Bəqinin bütün məqbərə və qəbirlərini, o cümlədən, dörd mə’sumun-İmam Həsən Müctəba(ə), İmam Zeynəlabidin (ə), İmam Mühəmməd Baqir (ə) və İmam Cəfər Sadiqin(ə) qəbirlərini, habelə, Peyğəmbərin (s) atası Abdullahın qəbrini viran etdilər. Fəqət, camaatın qəzəblənəcəyindən qorxub, Peyğəmbərin (s) öz qəbrinə təcavüz etmədilər. Onlar, ağzına qədər dolu olan dörd sandıq qiymətli cavahirat və bahalı almaz-yaqut qarət edib apardılar. O cümlədən, şam yerinə gecələr parlayan almaz qoyulmuş dörd zümrüd şamdan və qılafları xalis qızılla, almaz və yaqutla, dəstələri zümrüd və yaşma ilə bəzədilmiş 100-ə yaxın misilsiz qılınc apardılar. Mədinənin zəbt olunması ilə vahabilər bütün Ərəbistan və Yəməndə öz nüfuzlarını möhkəmləndirdilər və müsəlmanları qorxu və təşvişə düçar etdilər.

## Vahabilərin Nəcəfül-əşrəfə hücumu

1220 yaxud 1221-ci ildə vahabilər Səudun sərkərdəliyi ilə Nəcəfə hücum etdilər. Şəhərin divar və qalaları, ətrafında qazılmış xəndək olduğundan, habelə, Şeyx Cə’fər Nəcəfinin (Kaşiful-qita) rəhbərliyi ilə gecə-gündüz şəhərin müdafiəsində duran camaat və 200 nəfərə yaxın dini elmlər tələbələrinin sə’yləri nəticəsində vahabilər geri otuzduruldu.

Şeyx Cə’fər Kaşiful-qitanın evi silah anbarı idi. O, hər qalanı bir qrup tələbə və camaata tapşırıb müdafiə əmri vermişdi. Tanınmış şəxslərdən olan Şeyx Hüseyn Nəcəfi, Şeyx Xızır Şəllal, “Miftahül-kəramət” kitabının müəllifi Seyyid Cavad Amili, Şeyx Mehdi Molla Kitab da şəhərin müdafiəçilərindən idilər.

Bu hücumda vahabilərin 15000-ə yaxın döyüşçüsü var idi. Onlar nə qədər sə’y etsələr də Nəcəfin müdafiəçilərini üstələyib şəhərə girə bilmirdilər. Günlərin birində vahabilər şəhər divarlarını aşıb az qala şəhəri işğal edəcəkdilər. Lakin şəhər müdafiəçilərinin cəsur qarşıdurması ilə geri oturdular. Mühasirə müddətində şəhər müdafiəçiləri qalanın bürc və divarlarının üstündən vahabiləri atəşə tutub onlardan 700 nəfərini öldürə bildilər. Axırda Səud qalan adamları ilə Nəcəfül-əşrəfdən geri çəkilməyə məcbur oldu.

Nəcəf əhalisi Səudun qoşunu yetişməzdən əvvəl, Həzrət Əmirəl-mö’mininin (ə) hərəminin xəzinəsini Bağdada, oradan da Kazimeyn şəhərinə aparıb əmanət saxladılar. Beləliklə də xəzinə vəhşi tayfanın əlindən amanda qaldı.

Nəcdli tarixçi İbn Bişr “Nəcdin tarixi” kitabında Səudun Nəcəfə hücumu barəsində yazır: “1220-ci ildə Səud, Nəcd və ətraf məntəqələrdən olan böyük bir qoşunla İraqın məşhur şəhərinə hücum etdi. O, müsəlman (yə’ni, vahabi) ordunu şəhərin dövrəsinə yayıb, divarlarını uçurmalarını əmr etdi. Səudun qoşunu qala divarlarına yaxınlaşdıqda dərin və geniş xəndəklə rastlaşıb irəliləyə bilmədi. Döyüş əsnasında divarların üstündən açılan atəşlərdən müsəlmanlar (vahabilər) itki verib geri çəkildilər və şəhər ətrafını qarət etməyə başladılar”. /36/

1222-ci ildə Səud 20000 əsgərdən ibarət qoşunla yenidən Nəcəfül-əşrəfə hücum etdi. Amma şəhər əhalisinin Kaşiful-qitanın başçılığı ilə top və tüfənglərlə müdafiəyə hazır olduqlarını görüb geri çəkildi və Hillə şəhərinə üz tutdu. /37/

**/36/ - “Ünvanül-məcd fi tarixi-Nəcd” c.1, səh.137.**

**/37/ - Maraqlısı budur ki, Şeyx Cəfər Kaşiful-qitanın başçılığı ilə şəhərin müdafiəsində iştirak edən “Miftahül-kəramət” kitabının müəllifi məşhur fəqih Seyyid Cavad Amili həmin vaxtda Nəcəfül-əşrəfin müdafiəsinin vacibliyi haqqında bir traktat da yazıb nəşr etdirdi.**

## Kərbəla, Məkkə və Mədinəyə yeni hücumlar

Vahabilər Hillə şəhərinin də camaatının müharibəyə hazır olduqlarını görüb, mə’yus oldular. Hilləni tərk edib Kərbəlaya yönəldilər. Bu dəfə Kərbəla camaatı 1216-cı ilin əksinə olaraq, şəhər darvazalarını bağlayıb möhkəm müdafiəyə girişdi, itkilər verdilər, çoxlu düşmən də öldürdülər, nəticədə, Səud əliboş öz diyarına qayıtdı. 1222-ci ildə vahabilər Məkkə və Mədinəni də mühasirəyə alıb hacıları qarət etməyə başladılar. Bu dəhşətli hadisə üzündən Allah evi 3 il ziyarət edilmədi.

## Vahabilərin Şama yürüşü

1225-ci ildə vahabilər Abdullah ibn Səudun başçılığı ilə Suriya torpağı olan Həvərana yürüş etdilər. Əkinləri yandırdılar, günahsız uşaqları öldürüb qadınları əsir etdilər. Camaatın evlərini viran edib, əmlakını dağıtdılar. Deyilənlərə görə o torpaqlara üç milyon dirhəm dəyərində ziyan dəydi.

## Nəcəfül-əşrəfin və Kərbəlanın təkrar mühasirəsi

Həmin ildə Ali-Səudun Uneyzə qəbiləsi yenidən Nəcəfi və Kərbəlanı mühasirə edib qarətçiliklərə başladı. O cümlədən, şə'ban ayının 15-i İmam Hüseynin (ə) qəbrini ziyarətdən qayıdan ərəb və qeyri-ərəb zəvvarlara hucum çəkib onlardan 150 nəfəri şəhid etdilər. Qalan zəvvarların bə'ziləri Nəcəfə gedə bilməyib Hillədə qaldılar, bə'ziləri isə Həsəkəyə getdilər. Yazırlar ki, vahabilər Kufədən Kərbəlayadək, 2 fərsəx məsafədə Nəcəfi mühasirə etmişdilər.

## Vahabilərin Məsqətə hücumu

"Vahabilər" kitabında Fətəli şah Qacar zamanında Səud ibn Əbdüləzizin Bəhreyn və Məsqətə hücumu barəsində belə yazılıb: "Sepehr 1226-cı ilin hadisələrini şərh edərək deyir: "Həmin camaatın (yə'ni, vahabilərin) iştahası o qədər artdı ki, Bəhreyn torpağını da öz ərazilərinə qatmaq istədilər. Onlar Məsqətdə qarət və qətlə can atdılar. Məsqətin imamı (hakimi) fars hökmdarı şahzadə Həsənli Mirzəyə xəbər çatdırdı. Şahzadə Hüseynəlinin fərmanı ilə ərəblərlə müharibə təcrübəsi olan Sadiqxan Dəvəlvi Qacar böyük bir İran ordusu ilə Məsqətə gəldi. Orada da bir dəstə yığıb orduya qoşdu və Dir'iyyəyə tərəf hərəkət etdi. Əmir Səud İran ordusuna qarşı vuruşmaq üçün Seyf ibn Maliki və Mühəmməd ibn Seyfi böyük bir ərəb ordusu ilə səfərbər etdi. İki tərəf arasında başverən qanlı döyüşdən sonra Məhəmməd və Seyf ağır yaralar alıb döyüş meydanında çoxlu itkilər verərək qaçdılar.

Məsqətin imamı (hakimi) təşəkkür əlaməti olaraq, şahzadə Hüseynəliyə layiqli hədiyyələr göndərib qalibiyyət xəbərini rəbiül-əvvəl ayının 20-də Fətəli şaha çatdırdı". /38/

Göstərildiyi kimi, Sepehr (tarixçi) bu hadisəni 1226-cı ilin hadisələri sırasında qeyd edir. Lakin Cəbərti 1228-ci ilin hadisələrinin şərhində buna işarə edərək deyir: "Vahabilər Məkkə və Cəddəni boşaltdılar. Çünki onlara iranlıların Dir'iyyəyə hücum edib oranı tutduqları xəbəri çatmışdı". /39/

Mümkündür deyilə ki, iranlılar Nəcdə dəfələrlə hücum etmişlər. Sepehrin tarixində də gördük ki, Sadiqxan Dəvəlvi haqqında yazır: "Ərəblərlə müharibədə təcrübəli idi". Bu səbəbdən ehtimal olunur ki, Cəbərti öz tarixində başqa bir hücuma işarə etmişdir. Mərhum Şəmsül-üləma Kermani də vahabi firqəsi haqqında yazdığı kitabında İran ordusu və vahabilər arasındakı döyüşlərə, hətta vahabilərin İrana hücumuna, onların Fətəli şaha məktubuna və cavab almalarına işarə etmişdir. Amma Kermani bu mə'lumatların mənbəyini göstərməmişdir./40/

**/38/ - "Nasixut-təvarix Qacariyyə c.1, səh.206.**
**/39/ - "Əl-Muxtar min tarixil-Cəbərti" səh.539.**
**/40/ - "Vahabilər" səh.351.**

## Osmanlı dövləti və vahabilərin süqutu

Səud ibn Əbdüləzizin 1218-ci ildə Məkkəni işğal etdiyi dövrdən 1224-cü ilə qədər Hicaz, Yəmən, Fələstin, Suriya və İraqa rəhbərlik edən Osmanlı dövləti dəfələrlə Misir hökmdarı Məhəmmədəli paşaya fərman verirdi ki, Osmanlı qoşununun köməyi və lazımi təchizat ilə Hicaz və Nəcdə ordu göndərib vahabi firqəsini əzsin və Ali-Səudu hakimiyyətdən salsın. Amma bu iş hər dəfə tə'xirə düşürdü.

1225-ci ildə Məhəmmədəli paşa lazımi hazırlıqdan sonra oğlu Əhməd Tosunu dəniz yolu ilə Yənbu limanına göndərdi. O da 1228-ci ilə qədər Abdullah ibn Səudun başçılığı ilə döyüşən vahabilərlə müharibə edib, nəticədə onlarla sülh sazişi imzalayaraq Misirə qayıtdı. Bu müharibələrdə Məkkə, Mədinə və Taif şəhərləri azad edildi.

Taifin fatehi Osman Muzayifi əsir götürülüb Mədinə əmiri Mübarək ibn Mizyanla birgə Misirə, oradan da İstanbula göndərildi. Osmanlı paytaxtının meydanında Osman Muzeyfi, İbn Mizyan və başqa bir vahabi sərkərdəsini qətlə yetirdilər. Bu münasibətlə Misirdə 5 gün bayram edildi. Osmanlı sultanı, Məhəmmədəliyə rəsmən paşa titulu verərək, özünə də layiq bildiyi hər şəxsə bu adı verməsi ixtiyarını verdi.

Vahabilərin işi axıra yetmədiyindən, bu dəfə Məhəmmədəli Paşa özü böyük bir ordu yığıb, 1227-ci ildə dəniz yolu ilə Hicaza yönələrək Cəddə limanına gəldi. O, Cəddədən Məkkəyə yönəlib oranı özünə mərkəz seçdi.

Məhəmmədəli Paşa Məkkə əmiri Qalibi üç oğlu ilə birgə tutub, mallarını müsadirə etdi, özünü isə Misirə göndərdi. Oradan da ailələri ilə birgə Salonik adasına sürgün etdi. Talib 1231-ci ildə Salonik adasında

öldü. Məhəmmədəli Paşanın Qaliblə rəftarı ərəblərin çoxunun ondan üz döndərməsinə səbəb oldu. Ərəb başçıları düşmənə qoşuldular, Məkkə və Mədinədə qəhətlik, aclıq, bahalıq başlandı. Zeyni Dəhəlan deyir: "Qalib dünya siyasətçilərindən biri olaraq 27 il hökmranlıq etdi. O, 1205-1220-ci illərdə 50 dəfədən artıq vahabilərlə vuruşmuşdu".

## Səudun ölümü və oğlu Abdullahın onun yerinə keçməsi

Səud, Məhəmmədəli Paşanın təkliflərinin şərtlərini rədd edərkən, Paşa müharibəyə hazırlıq gördü. Bu arada, Səud sidik kisəsində yaranmış şiş nəticəsində Dir'iyyədə öldü. Onun yerinə atası və babası kimi vuruşqan və vahabi əqidəsinə təəssüblü olan oğlu Abdullah keçdi.

Məhəmmədəli Paşa Nəcddə yerləşən Qənfəzəyə quru və dənizlə böyük bir ordu göndərib ikinci ildə oranı ələ keçirdi. Qənfəzənin müdafiəsində amansızlıqla vuruşan vahabi sərkərdəsi Qami Əbu Nöqtə əsir götürülüb Misirə, oradan da İstanbula aparılaraq cəzalandırıldı. Məhəmmədəli Paşa böyük ordu ilə Taif şəhərini vahabi işğalından azad edib, Kəlağa tərəf üz tutdu. Beləliklə o, müxtəlif istiqamətlərə qoşun göndərdi. Daha sonra oğlu Əhməd Tosunu Mədinəyə göndərib, özü həcc mərasimini yerinə yetirmək üçün Məkkəyə yola düşdü.

Onun igidliyi sayəsində Məkkə, Mədinə, Yənbu, Taif və Cəddədən vahabi təhlükəsi sovuşmuşdu. 1230-cu ildə o, Həsən Paşa Ərtunini Məkkədə öz yerinə tə'yin etdi və oğlu Tosunu Hicaz ordusuna başçı seçib Misirə qayıtdı.

Atasının gedişindən sonra Tosun taxta yeni çıxmış Abdullah ibn Səudun üzərinə qoşun çəkdi və nəhayət, şə'ban ayından sonra onunla sülh sazişi bağladı. Sazişin şərti bu idi ki, Abdullah ibn Səud tamamilə Tosunun hakimiyyəti altında olmalıdır.

Abdullah ibn Səud vahabi başçılarından 20 nəfərini girov alaraq Tosunun göndərdi. O da onların ikisini atasının yanına göndərib, özü isə Misirə yola düşdü. Amma çox keçmədi ki, taun xəstəliyinə tutulub 20 yaşında ikən vəfat etdi. Məhəmmədəli Paşa oğlunun ölümündən çox qəmgin oldu.

Osmanlı sultanı və Məhəmmədəli Paşa vahabilərin işini bitirmək istəyirdilər. Hicaz əhalisindən bir qrupu Misirə gəlib, Abdullah ibn Səudun rəftarından şikayət etdilər. Məhəmmədəli Paşa bunu bəhanə edib, Osmanlı türklərindən, misirlilərdən, mərakeşlilərdən, şamlılardan və iraqlılardan ibarət böyük bir ordu yığıb İbrahim Paşa ilə Hicaza göndərdi.

İbrahim Paşa cəsur və təcrübəli sərkərdə idi. O, Yənbu limanından Mədinəyə yönəlib onun ətrafını tamamilə ələ keçirərək, 1232-ci ildə Nəcdin Rəclə məntəqəsinə hücum etdi.

İbrahim Paşa ordusunun say, silah, toplar cəhətdən güclü olduğundan, Abdullah ibn Səudu cəbhənin bütün istiqamətlərində üstələdi. O, axırda İbn Səudun paytaxtı Dir'iyyəni mühasirəyə aldı. Vahabi müdafiəçiləri şiddətli müqavimət göstərsələr də o, şəhəri bütünlüklə ələ keçirdi. Bu mühasirə ərəfəsində çoxlu adam öldürüldü, böyük bir dəstə qaçdı, şəhər ələ keçirilərkən isə qalanların hamısı əsir edildi. Əmir Abdullah da qohumlarının və yaxınlarının bir çoxu ilə təslim oldular. İbrahim Paşanın əmri ilə Səud əmirlərinin bə'zilərini topların ağzına bağlayıb atəş açdılar, digərlərini güllələdilər, bir hissəsini də əsir etdilər.

Dir'iyyənin fəthi, Abdullah ibn Səudun əsir alınması və vahabilərin qəti məğlubiyyəti xəbəri Misirə, Məhəmmədəli Paşaya çatdıqda əmr etdi ki, bu böyük qalibiyyət münasibətilə min topdan atəş açılsın, yeddi gecə-gündüz şəhəri işıqlandırsınlar. Bu yeddi gecə-gündüzdə açılan top atəşlərinin sayı 80 minə çatdı.

## Vahabilərin sonuncu əmiri Abdullah ibn Səudun həbs edilməsi

1234-cü hicri ilinin əvvəlində İbrahim Paşa Abdullah ibn Səudu və vahabi əsirlərin bir çoxunu Misirə göndərib əmr etdi ki, Osmanlı sarayı Babül-aliyə çatana qədər yolda onlardan muğayat olsunlar. İbn Bişr Nəcdinin yazdığına görə, Əmir Abdullahı dostlarından 3-4 nəfərlə, Əhməd Zeyni Dəhəlanın dediyinə görə isə bir çox Nəcd əmirləri ilə birgə 1234-cü ildə ata mindirilmiş halda Misirə gətirdilər. Camaat tamaşaya çıxmışdı. Onlar şəhərə daxil olanda toplardan atəş açıldı.

Abdullah, Məhəmmədəli Paşanın yanına gətiriləndə Paşa ondan soruşdu: "Bu nə bəlalar idi ki, törətdin?!". Abdullah dedi: "Müharibə belədir! Siz bizə nə etdinizsə, biz də sizə etdik". Abdullahın yanında kiçik, amma enli bir sandıq var idi. Məhəmmədəli Paşa soruşdu: "Bu nədir?". Abdullah cavab verdi: "Bunu,

atan Peyğəmbərin hücrəsindən götürmüşdü, istəyirəm Osmanlı sultanına aparım”. Məhəmmədəli əmr etdi ki, sandığın ağzını açsınlar. İçərisində misli-bərabəri olmayan, əvvəlki sultanlara məxsus üç nüsxə Qur’ani-Məcid, 300 ədəd iri mirvari, 1 ədəd böyük zümrüd daşı və qızıl bir qab var idi. Məhəmmədəli dedi: “Siz Peyğəmbərin (s) hücrəsindən bunlardan başqa əşyalar da götürmüşsünüz”. Əmir Abdullah cavab verdi: “Atamda qalan bunlar idi. Başqa şeyləri özünə saxlamayıb ərəblər, Mədinə əhalisi,hərəm xacələri və Məkkə hakimi arasında bölüşdürdü”. Məhəmmədəli dedi: “O, doğru danışır, çünki bu əşyaların çoxunu Məkkə hakimində gördük”. **/41/**

Sonra Məhəmmədəli Paşa Əmir Abdullahı İstanbula göndərdi. Orada Əmir Abdullah və yaxınlarını küçə-bazarda dolandırdılar. Abdullahı Sultan sarayı, Humayunun qarşısında, o birilərini isə şəhər ətrafında dara çəkdilər.

**/41/ - “Vahabilər” səh.357.**

## Mühəmməd ibn Əbdülvəhhab sülaləsi və Ali-Səud başçılarının aqibəti

Tərəflər arasında baş verən müharibələr əsnasında, xüsusən, Dir’iyyə şəhərinin mühasirəsi zamanı Ali-Səud və Ali-Şeyx Mühəmməd ibn Əbdülvəhhab başçılarının bir hissəsi öldürüldü, digər hissəsi isə e’dam edildi. İbrahim Paşa Dir’iyyə camaatı ilə sülh bağladıqdan sonra hədə-qorxuyla Şeyx Süleyman ibn Abdullah ibn Mühəmməd ibn Əbdülvəhhabın təslim edilməsini tələb etdi. Şeyx Süleyman təslim edildikdə, onu təhqir etmək məqsədilə bir neçə nəfərin qarşısında rübab çalmasını əmr etdi. Sonra onu oxa tutdurdu. İbrahim Paşa doqquz aya kimi Dir’iyyədə qaldı. Bu müddətdə bütün Ali-Səud və Mühəmməd ibn Əbdülvəhhab sülaləsini Misirə sürgün etdirdi. Dörd yüz nəfərlik kişi, qadın və uşaqlardan ibarət dəstəni Misirə köçürtdü, onlardan bir çoxunu oradaca e’dam etdilər. **/42/**

**/42/ - “Əl-Fütuhatul-İslamiyyə”, Əhməd Zeyni Dəhəlan c.2, səh.267.**

## Ali-Səud və vahabilərin mərkəzi Dir’iyyə

İbn Bişr Nəcdi deyir: “Mən Dir’iyyəni Ali-Səudun dövründə görmüşdüm. Şəhər camaatı dövlətli, sərvətli idi, silahları qızılla zinətlənmiş, nəcib və bahalı atlara minirdilər, bahalı libaslar geyinirdilər, yaşayışları elə idi ki, dillə təsəvvür etmək qeyri-mümkündür. Bir gün bir tərəfdə qadınları, digər tərəfdə isə kişilərin olduğu bazarda qızıl, gümüş, silah, dəvə, qoyun, bahalı at və libaslar, ət və digər ərzaqlar gördüm. Bazar çox böyük idi, alverçilərin hay-küyü pətəkdəki bal arılarının səsini xatırladırdı.” **/43/**

İbn Bişr bu qədər sərvətin haradan olduğunu izah etməmişdir. Amma tarixdən göründüyü kimi, bu mal-dövlət Nəcdin digər şəhər və qəbilələrinin qarəti hesabına yığılmışdı. İbn Bişr özü, 1229-cu ildə ölən Səud ibn Əbdüləzizin həyatının tarixində deyir ki, o, öz hücumlarında kiçik uşaqlar və qoca qadınlardan başqa hamını qılıncdan keçirir, əmlaklarını qarət edirdi. **/44/**

**/43/ - “Ünvanül-məcd fi tarixi-Nəcd” səh.13.**
**/44/ - “Vahabilər” səh.151.**

## Dir’iyyə və vahabilərin süqutu

1234-cü ilin şə’ban ayında Məhəmmədəli Paşa İbrahim Paşaya yazdığı məktubda Dir’iyyəni yerlə-yeksan etməyi əmr etdi. Dir’iyyə çox cəmiyyətli, böyük və əzəmətli bir şəhər idi.

İbrahim Paşa Dir’iyyə camatına əmr etdi ki, şəhərdən çıxsınlar. Eyni zamanda, onun ordusu hökumət saraylarını, evləri sökməyə, xurma ağaclarını kəsməyə başladı. Sakinləri hələ köçməmiş bə’zi evləri viran etdilər. Bağları və evləri yandırdılar. Bu minvalla Dir’iyyədə quru torpaqdan başqa salamat bir şey qalmadı.

İbrahim Paşa Nəcdin başqa qalalarını və müdafiə qurğularını sökmək üçün dəstələr göndərib Mədinəyə qayıtdı. Oradan Şama yollanıb bir sıra mövqeləri ələ keçirərək, 1235-ci ilin məhərrəm ayında

Misirə qayıtdı. O, vahabilərin süqutu və Ali-Səudun bütünlüklə məhv olması münasibətilə Qahirədə 7 gecə-gündüz bayram e'lan etdi. /45/

O zamandan Nəcd və Hicaz hökumətini Osmanlı imperiyası idarə edir, Kə'bənin örtüyü isə hər il Misirdə toxunub, Məkkəyə gətirilirdi. Bu iş Əbdünnasirin vaxtına qədər davam etdi. Sonralar onunla Ali-Səudun arasında baş verən soyuq münasibətə görə, Ali-Səud tayfası bu işi öz öhdələrinə götürdü.

**/45/ - "Vəhabilər", səh 357.**

## Ali-Səud hökumətinin bərpası və vahabiyyət dövrünün yenidən başlanması

İbrahim Paşa Dir'iyyəni tutanda bir çox vahabi başçıları şəhərdən qaçmışdılar. O, Dir'iyyədən çıxıb getdikdə, onlar qayıdıb şəhəri yenidən tutdular. Belə təsəvvür yarana bilərdi ki, Ali-Səuddan bir çoxlarının e'dam və sürgünündən sonra bu sülalənin kökü kəsilmişdir. Amma belə deyildi. Çünki sürgün edilmişlər və qaçanlar Dir'iyyəyə qayıtdıqdan sonra yenidən Ali-Səud hökumətini qurdular. Habelə, Mühəmməd ibn Əbdülvəhhabın Qatara və oradan Omana qaçıb getmiş nəvələrindən biri olan Əli ibn Hüseyn ibn Mühəmməd ibn Əbdülvəhhab Dir'iyyəyə qayıdıb vahabiliyi yenidən dirçəldib yaymağa başladı.

## Məhəmməd Muşari

Üyeynəyə qaçan Səud ibn Əbdüləzizin bacısı oğlu Mühəmməd ibn Muşari İbrahim paşa getdikdən sonra Dir'iyyəyə qayıtdı. O, şəhəri yenidən tikib mal-dövlət, silah yığdı, əvvəlki əmirlərin yolunu tutaraq vahabilərin "tövhid dinini" yaymağa başladı. Camaatın bir hissəsi onların də'vətini qəbul etdi, başqa bir hissəsi isə müxalif oldu.

## Türki ibn Abdullah

Muşari yerini möhkəmlətdikdən sonra Mühəmməd ibn Səudun nəvəsi Türki ibn Abdullah qardaşı Zeyd ibn Abdullahla birgə yenidən qurulmuş Dir'iyyə şəhərinə qayıtdı. O, Muşari ilə bir sıra çəkişmələrdən sonra ona qalib gəldi və tutdurub e'dam etdirərək, özü onun yerində oturdu.

Onların başı hərc-mərcliyə qarışdıqca 1235-ci ildə ingilis donanması çoxlu hərbi gəmilərlə Rəsul-Xeyməyə hücum edib, şəhəri darmadağın etdi. Türki Dir'iyyə yaxınlığında Səudiyyə Ərəbistanının indiki paytaxtı Ər-Riyad şəhərini salıb orada məskunlaşdı. Türki qanlı bir döyüşdə Osmanlı sərkərdəsi Həsənbəyin əli ilə qətlə yetirildi. Misir əsirlərindən olan oğlu Feysəl Nəcdə qaça bilib atasının yerini tutdu.

## Feysəl ibn Türki

Feysəl ibn Türki atasını öldürmək adı ilə Ər-Riyada hücum çəkib, bir sıra döyüşlər nəticəsində oranı ələ keçirtdi. 1250-ci hicri ilində rəsmi şəkildə atasının yerini tutdu. Oğlu Abdullah onun yerinə keçməsinə baxmayaraq, qardaşları tərəfindən kənarlaşdırıldı və onlardan biri - Səud taxta oturdu. Səud öldükdən sonra Abdullah yenidən hakimiyyətə gəldi.

Abdullahın hakimiyyətinin zəif olduğu 1300-cü ildə Osmanlı dövləti Əhsa və Qətif şəhərlərini onun əlindən aldı. Qətif şəhərinin camaatı da Osmanlı hökumətinin tabeliyinə keçdi. Cəbəl Şəmmarın hökmdarı İbn Rəşid də Abdullahın tabeliyindən çıxıb Osmanlı dövlətinə qoşuldu. İbn Səudun hökuməti son dərəcə zəiflədikdə bilindi ki, İngiltərə dövləti ona himayədarlıq edir. O zaman Nəcddə iki hökumət vardı: Biri paytaxtı Hail olub Cəməl-Şəmmarda yerləşən Ali-Rəşidin hökuməti, digəri Qətifdə paytaxtı Ər-Riyad olan Ali-Səudun hökuməti.

## Əbdürrəhman ibn Feysəl ibn Türki

Osmanlı dövləti Ali-Rəşidin hökumətinə himayədarlıq edir, onlar da ərəb və əcəm hacılarının get-gəlinə nəzarət edirdilər. Müharibələrin birində Ali-Rəşid hökuməti Abdullah ibn Səudu məğlub etdi. Məğlubiyyət nəticəsində Feysəl ibn Türkinin dördüncü oğlu Əbdürrəhman kiçik qardaşı Əbdüləzizlə (indiki kral Fəhdin atası) birgə Küveytə yönəldi. Amma Küveyt əmiri Şeyx Mübarək Ali-Səbah onu Küveytə buraxmadı. Əbdürrəhman çarəsiz qalaraq Nəcdə qayıdıb bir müddət Bəni-Murrə və Əcman tayfaları arasında yaşayıb Qatara getdi. İki aydan sonra Küveyt əmiri Osmanlı sultanının göstərşilə ona pənah verdi.

## Əbdüləziz ibn Səud

1919-cu ildə birinci dünya müharibəsindən sonra ingilislər Nəcdi müstəqil dövlət e'lan etdilər. Əbdüləzizin oğlu İbn Səud isə Nəcdin kralı e'lan edildi və ona ildə 40.000 ingilis funtu məbləğində maaş tə'yin etdilər. Bu tə'yinat 1923-cü miladi ilinə qədər davam etdi.

Əllamə Seyyid Möhsün Əmin Amili "Kəşful-irtiyab" kitabında yazır: "İngiltərə dövləti bu məbləği Səudiyyə kralına ona görə verirdi ki, Osmanlı dövlətinə qarşı müharibədə ona kömək etsin, və o, xarici siyasətində ingilislərə itaət etsin. Bu məsələni İngiltərə müstəmləkəçilərinin naziri mister Emri özü e'tiraf etmiş və dünya mətbuatı da bu e'tirafı dərc etmişdir". /46/

1342-ci hicri ilinin əvvəlində Əbdüləziz ibn Səudun əmri ilə vahabilər Hicaza hücum edib Taifi mühasirəyə aldılar. Əmrin icraçısı bu dəfə bədniyyət ə'yanlardan və Məkkənin əmiri Hüseynin qatı düşməni olan Xalid ibn Lui idi. Onlar tezliklə Taifə daxil olub camaatı qadın və uşaqlarla birgə qılıncdan keçirtdilər. Öldürülənlərin sayı 2000-i keçmişdi. Camaatın malını qarət etdilər. Elə işlər gördülər ki, insan onları eşitdikcə tükləri biz-biz olur, ürəyinə dağ çəkilirdi. Öldürənlərin arasında Şafei müftisi Şeyx Abdullah Zəvavinin və Kə'bə xadimlərindən bir neçəsinin meyitləri görünürdü. Vahabilərin cinayətlərini yazmaqda qələm aciz idi.

Əbdüləziz ibn Səud bu cinayətləri inkar etmək istəyirdi. O, Xalidin hərəkətlərini, Məkkənin fəthi zamanı Xalid ibn Vəlidin əməllərinə oxşadıb, Allahın rəsulunun (s): "Xudaya, Xalidin (məndən xəbərsiz) etdiklərindən Sənə pənah aparıram!"-sözünü təkrar etdi.

1343-cü ildə vahabilər Əbdüləziz ibn Səudun başçılığı ilə döyüşsüz Məkkəyə daxil oldular. Hüseyn və oğlu Əmir Əli Cəddəyə getmişdilər. Vahabilər onun evini qarət edib bütün əmlakını mənimsədilər. Hüseyn oğlunun mənafeyinə xatir kənara çəkilməyə məcbur oldu. Daha sonra Hicazdan çıxıb Əqəbə limanına yönəldi. Oradan isə ingilislərin vasitəsilə Kipr adasına sürgün edildi. 1931-ci miladi ilində o xəstə olduğundan, İordaniyaya-oğlu Əmir Abdullahın yanına gətirildi. O, az sonra öldü və müqəddəs Qüds yaxınlığında basdırıldı. Məlik Əli Cəddədə 1 il vahabilərlə vuruşdu. Bir nəticə olmadığından və ingilislərin İbn Səudu gücləndirdiklərini görüb, Hicazdan çıxdı və İraqa ingilislərin tə'yin etdikləri hakimin, qardaşı Feysəlin yanına getdi.

Əvvəlcədən tə'yin olunmuş proqrama əsasən, Əbdüləziz Ali-Səud Hicazın və Nəcdin hakimi oldu və hər ehtimala qarşı camaatdan silahları yığdı.

Britaniyanın təcrübəli casuslardan olan ingilis zabiti Kelnel Lorensin Hüseynin osmanlılara qarşı çıxmasında və ərəblərin ərəb Məliki adı ilə Hüseynin bayrağı altına yığışmasındakı rolunu nəzərdən qaçırmamalıyıq.

"Ərəbistan Lorensi" ləqəbi ilə tanınan bu ingilis zabiti İngiltərə kəşfiyyatının təcrübəli işçilərindən idi. O, Ərəbistan yarmadasında uzun illər yaşamış, oranı qarış-qarış gəzmişdi. Lorens ərəblər kimi geyinir, ərəb dilində danışırdı. O, qəbilə başçıları ilə görüşür, onları Osmanlı istismarının əleyhinə İngiltərəyə köməyə çağırırdı.

Lorensin Cəddə, Taif, Mədinə və Məkkədə Osmanlı başçılarının əleyhinə olan Hicaz inqilabına tə'sirli rolu olmuşdur. Amma sonralar, osmanlıların süqutu ilə ingilislərin himayədarlığı İbn Səuda tərəf yönəldi. Bu da Hüseynin İngiltərədən mə'yus olmasına və sonralar sürgün edilməsinə səbəb oldu.

**/46/ - "Kəşfül-irtiyab" səh.52.**

## Məkkədə islami dəyərlərin və qəbirlərin viran edilməsi

1343-cü hicri ilində vahabilər Məlik Əbdüləziz Ali-Səudun əmri və vahabi müftisinin fitvası ilə, bir daha Taifdə İbn Abbasın məqbərəsini və başqa qəbirləri, Məkkədə Əbdülmüttəlib, Əbu Talib, Həzrət Xədicənin qəbirlərini, Həzrət Zəhranın doğulduğu yeri və başqa islami dəyərləri viran etdilər. Habelə, Cəddədə olan həzrət Həvvanın qəbrini (bu səbəbdən, o şəhərin adı Cəddə, yə'ni, Nənədir) dağıtdılar.

## Bəqi qəbirstanlığındakı imamların qəbirlərinin dağıdılması

1344-cü hicri ilin şəvval ayında, Məkkənin işğalından sonra, vahabilər Əbdüləziz ibn Səudun başçılığı ilə Mədinəyə hücum etdilər. Mühasirə və döyüşdən sonra şəhəri ələ keçirtdilər. Osmanlı mə'murlarını qovub, Bəqidə olan imamların və digər qəbirlərin, o cümlədən, Peyğəmbərin (s) oğlu İbrahimin, zövcələrinin, Həzrət Əbülfəzl Abbasın anası Ümmül-Bəninin, Peyğəmbərin (s) atası Abdullahın, İmam Cəfər Sadiqin (ə) oğlu İsmailin qəbirlərini, Osman ibn Əffanın, Malik ibn Ənəsin və başqa səhabələrin qəbirlərini dağıdıb yerlə yeksan etdilər. İmam Həsən Müctəba, (ə) İmam Zeynəl-abdin, (ə) İmam Məhəmməd Baqir (ə) və imam Cəfər Sadiqin (ə) qəbirləri üzərindəki İsfahanda düzəldilib Mədinəyə gətirilmiş polad zərihi götürüb apardılar. Bir qübbənin altında olan Peyğəmbərin (s) əmisi Abbasın, Əmirəl-mö'minin həzrət Əlinin (ə) anası Fatimə bint Əsədin də qəbirləri viran edildi.

Bu gümbəzin şəkli "Miratul-hərəmeyn" kitabında əks etdirilmişdir. Bu, Fatimə bint Əsədin, Abbasın və Bəqi imamlarının (ə) qəbirləri üzərindəki axırıncı gümbəz idi ki, vahabilər onu sökdülər. Həmçinin, həzrət Həmzə Seyyidüş-şühədanın, Ühüd döyüşünün başqa şəhidlərinin qəbirlərini və yaxınlıqdakı məscidi yerlə yeksan etdilər.

Hind alimləri məlik Əbdüləziz Ali-Səuda e'tiraz etdikdə o, əmisi oğlu Səud ibn Əbdüləzizin Taif və Mədinədəki qırğınlardan sonra gətirdiyi üzrü təkrar edib "Mənim deyil, ordumun törətdikləridir"- demişdir. Halbuki bu, yalandan başqa bir şey deyildi.

İmamların (ə) qəbirlərinin viran edilməsi xəbəri İran, İraq və başqa şiə ölkələrinə çatdıqda, camaat və alimlər hiddətləndilər. Çünki növbə Rəsuli-Əkrəmin(s) də qəbrinə çatırdı. Fəqət vahabilər İslam dünyasının hiddətlənəcəyindən qorxdular. Mədinəyə olan hücumlarında Peyğəmbərin (s) qəbrini uçurub-dağıda bilərdilər. Çünki onların əqidəsinə görə, Peyğəmbərin (s) qəbrinin ziyarəti, Rəsuli-Xudaya (s) salam vermək, qəbrinin üstünü tikmək haramdır.

İran və İraqda camaat namazları, dini hövzələrin dərsləri tə'til edildi və matəm e'lan olundu. Alimlərin təklifilə İranın o vaxtkı hökuməti məsələni yoxlamaq üçün Hicaza nümayəndə hey'əti göndərdi. Amma iş-işdən keçmişdi.

## Şərif Hüseyn və Ali-Səudun ixtilafı

Birinci dünya müharibəsinin qızğın çağlarında ingilislər Hüseynin bir oğlunu osmanlılarla müharibə üçün ərəb qvardiyasının tərkibində orduya aparıb Əmir Abdullah adı ilə Şərq ordusuna başçı tə'yin etdilər. Digər oğlu Feysəli isə müharibə zamanı Fələstinlə birlikdə Osmanlı imperiyasından ayrılıb müttəfiqlərin əlinə keçən Suriyaya hakim etdilər.

1919-cu ildə I dünya müharibəsindən sonra Hüseynlə ingilislərin münasibətləri soyuduğuna görə, Hüseyn az-çox öz müxalifliyini bildirdi. İngilislərin təhrikilə Əmir Əbdüləziz Ali-Səud Hicaza hücum edib, Taif, Məkkə, Mədinə, Cəddə və Tuhaməni Hüseynin əlindən aldı. Özünü Nəcd ilə Hicazın kralı e'lan etdi. İngilislər Hüseyni Əqəbə limanına, oradan da Kipr adasına aparıb sürgündə saxladılar. Göstərdiyi xidmətlərin müqabilində isə İordaniya Haşimilər Krallığını yaradıb oğlu Abdullahı kral tə'yin etdilər. Digər oğlu Feysəli isə müttəfiqlər arasında bölgü zamanı Fransaya qismət olmuş Suriya şahlığından çıxarıb hökmdar tə'yin etdilər.

Birinci Məlik Feysəl, Məlik Qazinin, o da ikinci Məlik Feysəlin atasıdır. İkinci Məlik Feysəl Əbdülkərim Qasimin dövlət çevrilişi zamanı öldürüldü. İraqın şah recimi respublikaya çevrildi. Məlik Abdullah isə Məlik Təllalın, o da Məlik Hüseynin, İordaniya şahının atasıdır.

1373-cü ildə Əbdüləzizin ölümündən sonra böyük oğlu Səud onun taxtına oturdu. 1381-ci hicri ilində dövlət çevrilişi nəticəsində taxtdan salındı, yerini qardaşı Feysəl tutdu. Məlik Feysəl də 1935-ci ildə öldürüldü və yerinə qardaşı Xalid keçdi. O da bir neçə ildən sonra müəmmalı şəkildə öldü və indiki kral Fəhd onun yerinə keçdi.

Məlik Əbdüləziz 1344-cü ildə rəsmən Nəcd və Hicazın şahı e'lan edilmişdi. O, 1351-ci ilədək həmin adla tanınırdı. Amma 1351-ci ildə o, özünü "Səudiyyə Ərəbistanı Krallığının kralı adlandırdı və dövləti də adına uyğun olaraq dəyişdirdi. Beləliklə, Məkkə və Mədinə kimi, bütün müsəlmanlara mənsub olan şəhərlər və müsəlmanların qibləgahı olan Kə'bə Ali-Səudun şəxsi mülkünə çevrildi.

Əbdüləzizin zamanında Məkkədə vahabi-təbliğçi qrup-"İxvan" (qardaşlar) cəmiyyəti meydana gəldi. Onlar Məkkədə Nəcd qəbilələrinə yayıldılar.

Bu dəstə özlərini vahabi məzhəbinin təbliğinə həsr edir, ətraflarına Məhəmməd ibn Əbdülvəhhabın ideyalarının tə'siri altına düşmüş gəncləri toplayırdılar. İbn Səud onlardan Taifin fəthində, Şərq ordusuna hücumda və Hüseynə qarşı olan digər müharibələrdə istifadə edirdi. Onlar sonradan adlarını dəyişib, "Əmr

be-mə'ruf və nəhy əz-münkər edənlər" qoydular. Bu həmin qrup adamlardır ki, indi vahabiliyin özəyini təşkil edir və uzun köynək geyib, qırmızı başlıq qoymaqla və xəfiyyə polisi olaraq, hərəmi öpməyin qarşısını almaqla fəxr edirlər.

## Sünni alimlərin vahabilərin əleyhinə yazdıqları digər kitablar

Qeyd etdiyimiz kimi, İbn Teymiyyə zamanında və sonrakı dövrlərdə, habelə, Mühəmməd ibn Əbdülvəhhab zamanında və ondan sonralar bir sıra sünni və şiə alimləri onların əleyhinə kitablar yazmışdı.

1343-cü ildə Əbdüləzizin Hicazı işğal etməsindən sonra islami dəyərlər bir daha vahabilərin vəhşiliklərinə mə'ruz qaldı. Vahabi məzhəbi isə yazılarda və kitablarda geniş təbliğ olunmağa başladı. Bu dövrlərdə də sünni və şiə alimləri bu qurma məzhəbin əleyhinə bir sıra kitablar yazmışlar. Bə'ziləri ilə tanış olun:

1-Əl-Üsulul-ərbəə fi tərdidil-vahabiyyə. Xacə Mühəmməd Həsən Canhindi.

2-Əl-Munhətul-vəhəbiyyə fir-rəddi ələl-vahabiyyə. Şeyx Davud ibn Süleyman Nəqşbəndi Bağdadi.

3-Əl-Fəcrus-sadiq fir-rəddi əla munkərit-təvəssuli vəl-kəramati vəl-xəvariq. Cəlil Əfəndi Sidqi Zəhavi.

4-Şəvahidul-həqq fil-istiğasəti biseyyidil-xəlq. Şeyx Yusif Bünhani Fələstini.

5-Ət-Təvəssulu bin-nəbi və cəhələtul-vahabiyyin. Əbu Hamid ibn Mərzuq.

6-Təthirul-fuad min unsil-e'tiqad. Şeyx Məhəmməd Nəcit Mətin Hənəfi. Əl-Əzhərin böyük alimlərindəndir.

7-Kəşfun-nur ən əshabil-qubur. Əbdülqəni Əfəndi Nablisi.

8-Seyful-əbrar əl-məslul ələl-fuccar. Məhəmməd Əbdürrəhman Hənəfi.

9-Seyful-cabbar əl-məslul əla ə'dail-əbrar. Şah Fəzl Rəsul Qadiri.

10-Təhəkkumul-muqəllidin bimən iddəat təcdidəd-din. Məhəmməd ibn Əbdürrəhman ibn Əfaliq.

11-İzhaqul-batil fir-rəddil-firqətil-vahabiyyə. İmamül-hərəmeyn Məhəmməd ibn Davud Həmədani.

12-Əl-Lüməatul-fəridə fil-məsailil-müfidə. Seyyid İbrahim Rufai.

13-Ziyaus-sudur limünkərit-təvəssüli-biəhlil-qubur. Zahir şah Miyan ibn Əbdüləzim.

14-Əl-Əvraqul-Bağdadiyyə fir-rəddi ələl-vahabiyyə. Şeyx İbrahim Ravi Samirrai.

15-Mədaricun-niyyət fir-rəddi ələl-vahabiyyət. Amiri Qadiri Karaçi, Darül-ülumun müəllimi.

16-Əd-Dürərus-sənniyyə fir-rəddi ələl-vahabiyyə. Şeyxülislam və Məkkənin böyük müftisi Əhməd Zeyni Dəhəlan.

17-Fitnətül-vahabiyyə. Əhməd Zeyni Dəhəlan.

18-Əl-Fütuhatul-İslamiyyə. Əhməd Zeyni Dəhəlan.

19-Xülasətul-kəlam fi umərail-bələdil-həram. Əhməd Zeyni Dəhəlan Şafeinin bu barədə qeyd edilən 4-cü kitabıdır.

## Vahabilərin əleyhinə yazılmış şiə alimlərinin kitabları

1-Minhacür-rəşad. Fəqih Şeyx Cə'fər Nəcəfi Kaşiful-qita. Hicri 1343-cü ildə Nəcəfdə çap olunmuşdur.

2-Məsiri-Talibi. Mirzə Əbu Talib İsfahani.

3-Mir'atul-əhval. Ağa Əhməd Buhbuhani Kermanşahi.

4-Ər-Rəddu ələl-vahabiyyə. Məhəmməd cavad Bəlaği.

5-Töhfətül-aləm. Mir Əbdüllətif Şüştəri.

6-Ər-Rəddu ələl-vahabiyyə. Mirzə Məhəmmədəli Ordubadi Qərəvi. 1343-cü ildə çap edilmişdir.

7-Kəşfül-irtiyab ən ətbai Mühəmməd ibn Əbdülvəhhab. Seyyid Möhsün Əmin Amili, "Ə'yanuş-şiə"nin müəllifi.

8-Əl-Bərahinul-cəliyyə fi rəf'it-təşkikatil-vahabiyyə. Hazırkı kitabın ərəbcə mətni, Qəzvini.

9-Ər-Rəddu ələl-vahabiyyə. Şeyx Hadi Abbas Kaşiful-qita Nəcəfi.

10-Vahabilərə cavab. Şeyx Mehdi ibn Məhəmmədəli İsfahani.

11-Əl-Ayatul-bəyyinat fi qəm'il-bəd'i vəz-zəlalat. Şeyx Məhəmmədhüseyn Kaşiful-qita.

12-Əl-Məşahidul-müşərrəfə vəl-vahabiyyun. Şeyx Məhəmmədəli ibn Məhəmmədcə-fər.

13-Məhəmməd ibn Əbdülvəhhabın "Kəşfüş-şübəhat"ına cavab. Şeyx Məhəmmədhüseyn Farsi.

14-Kəşfun-niqab ən-əqaidi İbn Əbdülvəhhab. Seyyid Əli Nəqi Hindi.

15-Hazihi hiyəl-vahabiyyə. Şeyx Məhəmmədcavad Müğniyə, müasir Livan alimlərindəndir.

16-Vahabilər. Əli Əsğər Fəqihi.

# 2-Cİ BÖLMƏ

# VAHABİ MƏZHƏBİNİN BƏZİ ƏQİDƏLƏRİ VƏ ONLARIN İRADLARINA CAVAB

Bismillahir-rəhmanir-rəhim. Həmd-səna tək olan Allaha məxsusdur. Salam olsun Peyğəmbər və onun pak əhli-beytinə. Biz bu kiçik traktatda vahabi ideyasının banisi İbn Teymiyyənin "Minhacüs-sünnə" kitabında yazdıqlarına qarşı Quran və sünnədən bir sıra məsələləri qeyd edəcəyik. Lakin bundan qabaq iki məsələni xatırlamağı lazım bilirik.

## 1-Şəriətin haram bilmədiyi iş halaldır

İslam fiqhinin qəti və mə'lum bir qanunu vardır: Şəriətin haram və qadağan etmədiyi hər bir əməl, öz-özlüyündə halaldır. Buna sübut əqli və nəqli dəlillər, habelə, İslam alimlərinin eyni fikirdə olmasıdır. /47/

Vahabi məzhəbinin banisi İbn Teymiyyə də bu hökmü qəbul etmiş və "Minhacus-sünnə" kitabında Əşairənin günahsız şəxsə əzab vermək haqqında fikirlərini söyləyərək yazmışdır: "Bu mə'na həm kitaba, həm sünnəyə, həm də ağlın hökmünə ziddir".

Mən icmanı da əlavə edərək deyirəm: "İslam alimlərinin birgə rə'yinə də ziddir. Çünki təkcə bütün müsəlmanlar deyil, bütün millətlər qadağan olunmayan işi görməyi halal hesab edirlər. Ağıl da hökm edir ki, hansısa iş qadağan olunmazdan öncə kimsə onu görsə, o şəxsə cəza vermək qəbahətdir. Həm kitab (Qur'ani-Məcid), həm də sünnə (Peyğəmbərin(s) etdikləri, dedikləri və təsdiqlədikləri) baxımından, bu qəti hesab olunur.

Qur'ana gəldikdə, Allah-təala buyurur: "Biz peyğəmbər göndərməmiş (heç bir ümmətə) əzab vermirik" (İsra, 15). Bu şərif ayə göstərir ki, peyğəmbər gəlməmiş, bir əməli qadağan etməmiş ona əzab əsla qəbul olunmaz. Allah-təala bəhanəni tam kəsmədən, kimsəyə cəza verməz. Kimi də ki, Cənnətə aparar, vəzifəni və düz yolu ona anlatdıqdan sonra aparar. Necə ki, buyurur: "Əgər biz onları (Məkkə müşriklərini) bundan (Peyğəmbər və Qur'an gəlməzdən) əvvəl əzabla məhv etsəydik, (Qiyamət günü) mütləq belə deyəcəkdilər: "Ey Rəbbimiz! Nə üçün zəlil və rüsvay olmazdan əvvəl bizə bir peyğəmbər göndərmədin ki, Sənin ayələrinə (hökmlərinə) tabe olaydıq?" (Taha-134).

"Hansısa tayfa ora (Cəhənnəmə) atıldıqca, gözətçilər onlardan (məzəmmətlə): Məgər sizə (Allahın əzabı ilə) qorxudan bir peyğəmbər gəlməmişdimi?-deyə, soruşacaqlar? Onlar deyəcəklər: Bəli, bizə (Allahın əzabı ilə) qorxudan peyğəmbər gəlmişdi. Amma biz (onu) yalançı saydıq!" (Mülk-89).

Bu iki ayə göstərir ki, cəhənnəmlilər dünyada əzabla qorxudulandan sonra Cəhənnəmə gedəcəklər.

Habelə, Allah buyurur: "Ey cin və insan tayfası! Məgər sizə öz içərinizdən ayələrimi söyləyən və bu gününüzün gəlib çatacağı barədə xəbərdarlıq edən peyğəmbərlər gəlmədimi? Onlar deyəcəklər: "Biz öz əleyhimizə şahidik!" (Peyğəmbərlər bizə pis işlərimiz barədə xəbərdarlıq etsələr də, biz onlara qarşı çıxıb günah işləməkdə davam etdik. Biz indi hər cəzaya layiqik). Dünya həyatı onları aldatdı və kafir olduqları haqda öz ziyanlarına şəhadət verdilər.

"Bu (peyğəmbərləri göndərmək) ona görədir ki, Rəbbin məmləkətlərin əhalisini, onlar qafil ola-ola (özlərinə peyğəmbər gəlmədiyi üçün dini vəzifələrini bilməyib, icra etmədikləri halda) zülmlə məhv etməyi özünə rəva bilməz! (Ən'am-130-131)".

Görürük ki, cinlər və insanlar Allahın hüzurunda günahlarını e'tiraf edirlər. Həqiqətən də onlar üçün peyğəmbər göndərilmişdir. Peyğəmbər onlar üçün bütün yaxşı-pisi açıqlamış, ilahi hökmləri onlara çatdırmışdır. Lakin onlar öz peyğəmbərlərinə e'tinasızlıq etmişlər. Hər şeyi anlaya-anlaya, günah etdikdən sonra Allah onları Cəhənnəmə atmışdır. Çünki, mehriban Allah kimsəni peyğəmbər göndərmədən, hər şeyi başa salmadan, cəzalandırmaz. Digər bir ayədə buyurur: "Allah bir tayfanı doğru yola yönəltdikdən sonra

qorxub çəkinməli olduqları şeyləri özlərinə bildirmədən, onları (haqq yoldan) çıxartmaz! Həqiqətən, Allah hər şeyi (olduğu kimi layiqincə) biləndir! (Tövbə-115)".

Deməli, Allah qadağan etmədiyi işi görən adama cəza verməz. Əvvəlcə, hər şeyi anladır. Sonra o şəxs bilə-bilə o işi görsə, artıq onu cəzalandırar. Əgər Allah bir işin yaxşı, yaxud pis olmasını kiməsə anlatmasa və o şəxs həmin işi görsə, Allahın ona cəza verməsi haqsızlıq olardı. Allah isə ədalətlidir və heç cür haqsızlıq etməz. "(Ya Məhəmməd!) Sənin Rəbbin mərkəzlərinə (ən böyük şəhərlərinə) ayələrimizi oxuyan bir Peyğəmbər göndərməmiş, məmləkətləri məhv etmədi. Biz yalnız əhalisi zalim olan məmləkətləri yox etdik (Qəsəs-59)".

Yə'ni, kim günah işlədərək özünə zülm etsə, Cəhənnəmə layiqdir. Zalim olmayan şəxsə cəza vermək zülmdür.

"And olsun ki, bizim təhdidlərimiz (xəbərdarlıqlarımız) Musa vasitəsi ilə Fir'on əhlinə də gəlib çatmışdı. Onlar ayələrimizin (mö'cüzələrimizin) hamısını yalan hesab etdilər. Biz də onları yenilməz qüvvət, qarşısıalınmaz intiqam sahibinə yaraşan bir əzabla yaxaladıq (Qəmər-41-42)".

Bir sözlə, Allah insana nə edəcəyini və nə etməli olduğunu bildirmədən cəza verməz. Necə ki, ayələrdən bəlli olur. İbn Teymiyyə deyir: "Bütün müsəlmanlar bu fikirdə həmrə'ydirlər: Allah kimsəyə qüdrətindən artıq məs'uliyyət tapşırmaz. Buna əsasən, işin vacibliyi qüdrətə bağlıdır. İbn Teymiyyə bu fikri öz kitabı "Minhacus-sünnə"nin üçüncü hissəsinin 20-ci səhifəsində Əbu Hənifə, Şafei və İbn Həzm Əndəlusiyə əsasən yazır. Bu, həqiqətən də belədir və Peyğəmbərimiz(s) bunu dəfələrlə buyurub.

Məsələn, Peyğəmbər (s) deyib: "Doqquz şey mənim ümmətimdən götürülüb: Səhv, unutmaq, məcbur olduqları iş, bilmədikləri iş, qadir olmadıqları iş, zorla sürükləndikləri iş...". İbn Macə Qəzvini /48/ "Sünən" kitabının "Peyğəmbər sünnəsinə tabeçilik" bölməsində Əbu Hüreyrənin Peyğəmbərdən(s) belə nəql etdiyini yazır: "Peyğəmbər (s) buyurdu: "Sizə nə zaman bir şeyi əmr etsək, onu qəbul edin və sizi nə vaxt bir şeydən çəkindirsək, ondan əl çəkin". Yenə həmin kitabda Əbu Hüreyrədən rəvayət olunur: "Peyğəmbər buyurdu: "Sizə tapşırdıqlarımdan boyun qaçırmayın. Çünki həlak olmuş keçmiş ümmətlərin məhvinə səbəb, öz peyğəmbərlərinin əmrlərinə irad tutaraq, onların ziddinə əməl etmələri idi. Buna görə də sizə bir şeyi əmr etdikdə, qüdrətiniz daxilində əməl edin və bir işdən çəkindiririksə, o işdən uzaq olun". Buxari /49/ də belə rəvayət etmişdir. Həmin "Sünəni-İbn Macə"də deyilir: "Peyğəmbər (s) buyurdu: Məndən sonra bir kişinin məndən hədis nəql edərək belə dediyinin şahidi olacaqsınız. Allahın kitabı bizimlə sizin aranızda sənəd və əsasdır. Orada gördüyümüz halalı halal, haramı isə haram sayırıq. Ay camaat! Bunu bilin ki, Allah Peyğəmbərinin haram etdiyi, elə Allahın haram etdiyidir. Peyğəmbərin (s) "hər şeyi Peyğəmbər haram etsə" sözündən mə'lum olur ki, Rəsulun(s) haram etmədiyi əməl, Allah tərəfindən haram deyil. Bu hədislər aşağıdakı ayənin açıqlamalarıdır: "Peyğəmbər (s) sizə nə verirsə onu götürün, nəyi qadağan edirsə, ondan əl çəkin" (Həşr-7).

Demək istəyirəm ki, biz şiələrə və digər müsəlmanlara irad tutulan əməllər din tərəfindən qadağan olunmuşlar. Onların bu işləri haram saymaları Allah kitabının, Peyğəmbər (s) sünnəsinin əksinə olmasından əlavə, həm də bid'ətdir. Çünki bid'ət, dində olmayan bir hökmü dinə daxil etmək deməkdir. Onlar yalnız ehtimala əsaslanır, ehtimal isə heç vaxt əsas ola bilməz. Əks təqdirdə, Peyğəmbərin (s) kəlamı mə'nasız olardı: "Nəyi sizə qadağan etsəm, əl çəkin". Yə'ni, bir iş qadağan olunmayıbsa, çəkinmək lazım deyil.

**/47/ - Əhməd ibn Əbdülhəmid ibn Əbdüssəlam Hərrani Hənbəli. Üçüncü babası Əbül Qasim ibn Teymiyyənin şərəfinə, İbn Teymiyyə ləqəbi ilə məşhurdur. 727-ci h.q. ilində Dəməşq qalasında vəfat edib. Şiə alimlərindən Əllamə Hillinin müasiri olub. Vahabi məzhəbi onun fitvaları və nəzəriyyələri əsasında qurulub. İbn Teymiyyə öz kitablarında, o cümlədən, məşhur "Minhacus-sünnə"də Əllamə Hillinin e'tiqadı və digər dini-elmi fikirlərinə hücum edərək, öz xəyalında guya, şiəliyin əsaslarını laxlatmışdır. O, "Minhacül-kəramə" kitabına cavab olaraq yazmışdır. Vahabilərin ziyarət, dua, təvəssül, şəfaət və s. məsələlər barədə dediklərinin və Məhəmməd ibn Əbdülvəhhab Nəcdinin e'tiqadlarının əsasını İbn Teymiyyənin əcaib-qəraib fikirləri təşkil edir. Buna görə də müəllif İbn Teymiyyənin fikirlərini analiz və rədd etməklə, necə deyərlər, "suyu çeşməsindən bağlamaq" istəmişdir.**

**/48/ - Məhəmməd ibn Yezid ibn Macə Qəzvini sünni hafizlərdən biri və "Sünəni ibn Macə" adı ilə məşhur olan "Sünən" kitabının müəllifidir. Bu kitab sünnilərin mö'təbər bildikləri altı hədis kitabından biridir. İbn Macə hicri 273-cü ildə dünyadan köçüb.**

**/49/ - Məhəmməd ibn İsmayıl Buxari sünni hədisçilərinin dahisidir. Sünnilərin "Sihahi-sittə" adlanan altı ən məşhur və mö'təbər hədis kitablarının birincisi olan "Səhih" kitabının müəllifidir. Sünni alimləri "Səhihi-Buxari"ni öz hədis kitablarının ən doğrusu, ən mö'təbəri hesab edirlər. Digər beş kitab isə aşağıdakılardır: (Buxari 256-cı hicri ilində ölüb). 2."Səhihi-Termizi" 3."Sünəni-İbn Macə Qəzvini". 4."Sünəni-Nəsai". 5."Sünəni-Əbu Davud". 6."Səhihi-Müslüm Nişaburi".**

## 2-İslamda yozumun və ictihadın qaydası

Təəssüf ki, bir sıra müsəlmanlar öz nadanlıqlarını dində ən doğru yol kimi qəbul edərək, digər müsəlmanları kafir və müşrik adlandırırlar. Onların məqsədi müsəlmanlarla düşmənçilikdir. Çünki onların müsəlmanlar barəsində sözləri, müsəlmanların başına gətirdikləri müsibətlər, nə Qur'anda var, nə Peyğəmbər (s) hədislərində. Bu hərəkətlərə nə Allah razıdır, nə də Onun Rəsulu. Qəribədir ki, bütün bunlara baxmayaraq, onlar özlərini "əhli-sünnə" adlandırırlar! Hansı Peyğəmbərin sünnəsində vardır ki, çürük və mə'nasız əqidəsini zorla digərlərinə qəbul etdirsin? İbn Teymiyyə "Minhacus-sünnə" (üçüncü hissə, səh. 19-da) yazır: "Bütün bu hərəkətlərin şər'i üzrü var. Çünki bunlar ictihaddan doğan fikirlərin nəticəsidir. Müctəhid məsələni düz anlasa iki, səhv anlasa, bir savab qazanır! Necə ki, Raşidi /50/ xəlifələri belə edərdilər!".

İbn Teymiyyə bu fikri Buxarinin "Səhih" kitabında Əmr ibn Asdan nəql olunan hədisdən götürüb: "Şəriət hakimi öz çıxarışına əsasən hökm etsə və o hökm doğru olsa, iki, səhv olsa, bir savab qazanar".

Elə həmin kitabın 20-ci səhifəsində keçmiş alimlərin, Əbu Hənifənin, Şafeinin, Surinin, Davud ibn Əlinin və digərlərinin səhvlərini günah hesab etmir. Nə üsulda, nə də füru'da. Necə ki, İbn Həzm /51/ və başqaları bu səhvləri öz kitablarında qeyd etmişlər. Odur ki, Əbu Hənifə, Şafei və başqaları "Xəttabiyyə" məzhəbi istisna olmaqla, bütün nəfspərəst şəxslərin şahidliyini qəbul edirdi və onlara iqtida edərək, namaz qılmağa icazə verirdilər. Halbuki, kafirin şahidliyi İslamda e'tibarsız sayılır və təbii ki, ona iqtida edib namaz qılmaq olmaz. Keçmiş sünni alimləri belə demişlər: "Bu fikir səhabələrin və tabelərin (səhabə şagirdlərinin) rə'yidir. Onlar heç bir müsəlmanı kafir və fasiq hesab etməzdilər. Səhv edən müctəhidi günahkar saymazdılar. Nə elmi, nə də fiqhi məsələlərdə. İbn Həzm İslam məzhəblərinə və e'tiqadlarına aid yazdığı "Əlfisəl" kitabının üçüncü bölməsinin sonlarında, 247-ci səhifədə yazır: "Bir qrup alim bu fikirdədir ki, bir müsəlman istər e'tiqadi, istər fiqhi məsələdə səhv etsə, nə kafir, nə də fasiq olur. Kim bir məsələdə çıxarış etsə və nəzərinə doğru gəlsə, savab qazanır. Əgər fikri həqiqətə uyğun olsa, bir savab qazanır.

**/50/ - "Raşidi xəlifələri" sünnilərin terminidir. Onlar-Əbu Bəkr, Ömər, Osman və Əli (ə) Xilafətdə doğru rüşd və inkişaf yolunu tutmuşlar. Müəllif də sünnilərin xətrinə dəyməsin deyə, onların ifadəsindən istifadə etmişdir.**

**/51/ - Əli ibn Əhməd. İbn Həzm ləqəbi ilə tanınmış Əndəlusda, yə'ni, müsəlman İspaniyasında yaşamış sünni alimidir. "Əl-fisəl-fin-nihəli-vəl-miləl" kitabının müəllifidir. O, hədisçi və özünəməxsus fitvaları olan sünni fəqihidir. Həm öz dövründə, həm də sonralar, onun bir sıra fitvaları alimlər tərəfindən tənqid olunmuşdur. O, h. 456-cı ildə ölüb.**

## Vahabi firqəsinin müsəlmanların canına, malına və namusuna hörmətsizliyi

Özlərini əhli-sünnət /52/ adlandıran vahabilərə belə bir sualımız var: "Sadaladığımız alimləri və onların hədislərini qəbul edirsinizsə, nə üçün sizin məzhəbdən olmayan müsəlmanları kafir, müşrik adlandırır, bacardığınız qədər əzab verir və yaşadıqları yerləri hər bir kafirin yeri kimi hesab edirsiniz? Halbuki, Qur'an belə buyurur: "Həqiqətən, mö'minlər (dində) qardaşdırlar (Hucurat-10).

"Allahın sizə verdiyi ne'mətini xatırlayın ki, bir-birinizə düşmən ikən O, qəlblərinizi (İslam ilə) birləşdirdi və Onun ne'məti sayəsində bir-birinizlə qardaş oldunuz". (Alim-İmran-103)

"Mö'min kişilərlə mö'min qadınlar bir-birinə dostdurlar (hayandırlar)". (Tövbə-71)

"Biz onların ürəklərindəki kin-küdurəti çıxardıb atdıq. Onlar qardaş olub taxt üstündə qarşı-qarşıya əyləşirlər". (Hicr-47)

"Həqiqətən, iman gətirib yaxşı işlər görənlər üçün Rəhman (ürəklərdə) bir sevgi yaradacaqdır". (Məryəm-96)

"Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onlar sizin din qardaşlarınızdır. Biz ayələrimizi anlayıb bilən bir tayfa üçün belə ətraflı izah edirik". (Tövbə-11)

Peyğəmbərdən (s) gələn səhih hədislərdə deyilir: "Allahın təkliyinə, Məhəmmədin (s) peyğəmbərliyinə şəhadət verən adamın qanı, malı və namusu toxunulmazdır".

Buxarinin "Səhih"ində deyilir: "Abdullah ibn Abbas söyləyir ki, Peyğəmbər(s) Məaz ibn Cəbəli Yəmənə göndərərkən ona belə buyurdu: Tezliklə, kitab əhli (Yəhudi və Nəsara) olan camaatla üzləşəcəksən. Onları tək Allahdan başqa Tanrı olmadığına və Peyğəmbərin Onun elçisi olduğuna şəhadət

verməyə çağır. Bunu qəbul etsələr, onlara de: Böyük Allah hər gün beş dəfə namaz qılmağı sizə vacib etmişdir. Gərək, onların varlılarından alıb, yoxsullarına verəsən. Əgər bunu da qəbul etsələr, daha onların malı ilə işin olmasın. Buxari "Səhih" kitabının "Əlinin (ə) fəzilətləri" bölməsində yazır: "Peyğəmbər Xeybər müharibəsində bayrağı Həzrət Əliyə (s) verəndə o, Peyğəmbərdən soruşdu: Bunlara qarşı hansı məqsədlə döyüşüm? Həzrət buyurdu: Qoy, Allahın təkliyinə, Məhəmmədin, Onun Rəsulu olduğuna şəhadət versinlər. Əgər bunu etsələr, daha onların qanını tökmək caiz (düzgün) deyildir".

Buxari İbn Abbasdan /53/ belə nəql edir: "Peyğəmbər xalqı yeganə Allaha iman gətirməyə də'vət edən şəxsə buyurdu: -Bir Allaha imanın nə olduğunu bilirsinizmi? Camaat: Allah və Rəsulu yaxşı bilir-deyə cavab verdikdə, Həzrət buyurdu: Allaha iman, Onun təkliyinə, Məhəmmədin Onun Peyğəmbəri olmasına şəhadət vermək, namaz qılmaq, zəkat vermək, Ramazan ayının orucunu tutmaq, ələ gətirilən qənimətin xümsünü vermək..."

Ey Qur'an və hədislərlə az-çox tanış olan şəxslər! Vahabilərin müsəlmanlarla düşmənçiliyi Allah qanunlarını tapdalamaq deyilsə, bəs nədir? Aşkar görünür ki, Peyğəmbərin(s) gətirdiyi İslam dini onların hərəkətlərinin ziddini deyir. Onlara demək lazımdır: "Cahiliyyət dövrününmü hökmünü istəyirsiniz? Tam qənaət sahibi olan bir camaat üçün Allahdan daha yaxşı hökm verə bilən kimdir?". (Maidə-50).

Allah-təala "nəfsdən gələn istəklərə uyma"-əmri ilə Peyğəmbərə(s) öz fikrinə əsasən hökm verməyi qadağan etmiş (Sad-26), Özünün nazil etdiklərinə əsasən hökm etməyi ona əmr buyurmuşdur. Kim bunu bilə-bilə, istədiyini Allahın hökmü kimi qələmə versə, Allah qanunlarını tapdalamış olur.

**/52/ - Əhli-sünnə və sünni sözü, şiə olmayan müsəlmanların özlərinin seçdiyi addır. Amma heyf ki, şiələr də onları belə adlandırırlar. Guya, onlardan başqa heç kəs Peyğəmbər sünnəsinə əməl etmir. Əslində isə şiələr əsl əhli-sünnədirlər. Çünki ərəblər demişkən, "ev əhli evdə nə baş verdiyini başqasından yaxşı bilər". Şiələr də Peyğəmbərin(s) ev sakinləri olan Əhli-beytin(ə) davamçılarıdırlar. Digərləri isə özlərini "ümumi" adlandırsalar, yaxşıdır. Şiələr isə xüsusi müsəlmanlardır. Şiə adını Peyğəmbərimizin(s) Həzrət Əliyə buyurduğu hədisdən götürmüşlər: "Ya Əli, sən və şiələrin nicat tapanlarsınız".**

**/53/ - Abdullah ibn Abbas ibn Əbdülmüttəlib. Peyğəmbərin(s) əmisi oğludur. Onu "ümmətin rəbbanisi" adlandırmışlar. O, Bəni-Abbas xəlifələrinin ulu babasıdır. Peyğəmbərdən(s) nəql olunan başqa mövzulara aid bir çox hədislər onun adı ilə bağlıdır. O, Həzrət Əlinin (s) əmisi oğlu, şagirdi, xüsusi müşaviri və Bəsrədəki səlahiyyətli nümayəndəsi olmuşdur. O, çox zəkalı, elmli, şair, ədib, qüdrətli natiq və söz ustası, təmiz ləhcəsi olan, habelə, misilsiz cəsarətə malik şəxs imiş. İbn Abbas h. 68-69-cu ildə Məkkənin 12 fərsəxliyində yerləşən Taif şəhərində vəfat etmiş və orada da dəfn olunmuşdur.**

## Vahabi məzhəbi Allahın əmrindən boyun qaçırır

Qur'an haqqın me'yarıdır. Onu əsas götürmək lazımdır. Yoxsa, elə hər məzhəb özünü haqlı hesab edir. Vahabi alimlərinin xüsusiyyətlərindən biri də budur ki, çox zaman Qur'an və sünnəni nəzərə almadan, öz adətlərinə əsasən hökm verirlər. Odur ki, bu ayələr onlara aiddir: "Əgər onlar (bu hökmlərdən) üz döndərsələr, bil ki, Allah bə'zi günahlarına görə onları müsibətə düçar etmək istəyir. Doğrudan da, insanların çoxu (Allahın itaətindən çıxmış) fasiqlərdir". (Maidə-49)

"Allahın nazil etdiyi ilə hökm verməyənlər, əlbəttə, fasiqdirlər (günahkardırlar)". (Maidə-47)

Bu o zamandır ki, Allahın hökmünün əleyhinə getməyi halal hesab etməsinlər. Halal hesab etsələr, kafirdirlər. Allah buyurduğu kimi: "Allahın nazil etdiyi (kitabla) hökm etməyənlər, əlbəttə, kafirdirlər". (Maidə-44)

Müsəlmanlar mübahisəli məsələlərdə Allaha və Onun Peyğəmbərinə(s) müraciət etməlidirlər. Allah buyurur: "Əgər bir iş barədə mübahisə etsəniz, Allaha və Qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin!". (Nisa-59)

"Siz nəyin barəsində ixtilafda olsanız, onun hökmü yalnız Allaha aiddir". (Şura-10)

Dediklərimizə əsasən, hansısa məzhəbin alimi digər müsəlmanları kafir, din düşməni adlandırıb lə'nətləsə, müsəlmanların parçalanmasına xidmət edir. Bu da Qur'anda qadağan olunub: "(Ya Rəsulum!) Şübhəsiz ki, sənin firqə-firqə olub dinini parçalayanlarla heç bir əlaqən yoxdur". (Ən'am-159)

"Ey iman gətirənlər! Allahdan layiqincə qorxun. Yalnız müsəlman olduğunuz halda ölün!". (Ali-İmran-102)

“(Allah tərəfindən) açıq-aydın dəlillər gəldikdən sonra bir-birindən ayrılan və ixtilaf törədən şəxslər kimi olmayın!”. (Ali-İmran-105)

Allah müsəlmanları birliyə və Öz ipindən yapışmağa çağırır. İlahi ip, dindir. Din də aşağıdakı ayədə açıqlanır: “Allahın yanında (haqq olan) din, əlbəttə, İslamdır!”. (Ali-İmran-19)

İslam isə, Allahın təkliyinə və Peyğəmbərin(s) Onun Rəsulu olduğuna şəhadət verməkdir. Müsəlmanlara Allah bir din göndərib -“Bunlar Allahın hökmləridir. Onlardan kənara çıxmayın”. (Bəqərə-229)

Mə’lum oldu ki, Allah müsəlmanların canını, malını və namusunu bir-birinə haram edib. Müslüm və Buxari «Səhih»-də yazırlar: “Peyğəmbər (s) son həccində buyurub : Sizin malınız, canınız və namusunuz bir-birinizə haramdır. Necə ki, ehram bağlamısınız və haram aydasınız və möhtərəm (Məkkə) şəhərindəsiniz. Bununla sizə İslamı çatdırdımmı? Agah olun! Eşidənlər eşitməyənlərə xəbər versin.» Buxari «Səhih»-də yazır: “Peyğəmbər (s) buyurub: Yaxşı baxın, məndən sonra kafirlər kimi bir-birinizin boynunu vurmayın”.

Bir sözlə, həm Qur’an, həm də hədislər müsəlmanlar arasında birlik və dostluğun tərəfdarıdır. Vahabilər isə Qur’an və sünnənin ziddinə əməl edir, müsəlmanları lə’nətləyir və bacardıqca incidirlər. Biz onlara deyirik: “Bunlar, Allahın ayələridir ki, onları sənə doğru-düzgün bildiririk”. (Bəqərə-252)

Bu iki məsələ ilə tanış olduqdan sonra əsas mövzumuza keçərək qeyd edirik ki, bu traktat bir neçə fəsil və epiloqdan ibarətdir.

# 1-ŞƏFAƏT

## Şəfaət nədir?

Vahabilər deyirlər: “Peyğəmbərlərin və imamların dünyada şəfaət etməsi tə’sirsizdir. Yalnız axirətdə şəfaət edə bilərlər. Buna əsasən, kim dünyada Peyğəmbər və imamdan şəfaət diləsə, şirk etmiş olur və Allahdan qeyrisinə ibadət sayılır. Müsəlman: İlahi, məni Peyğəmbərin şəfaət etdiyi şəxslərdən et! -deyə, dua edə bilər. Lakin:- Ya Peyğəmbər, mənim üçün Allah yanında şəfaətçi ol! - deyə, bilməz!”.

Vahabilər bu ayələrə istinad edirlər: “Şübhəsiz ki, məscidlər Allaha məxsusdur. Allahdan başqa heç kimə ibadət etməyin” (Cin-18). “Allahın izni olmadan, Onun yanında kim şəfaət edə bilər? (Ənbiya-28)”. ”Rəhmandan əhd almış şəxslər istisna olmaqla, qalanları şəfaət etməyə qadir olmazlar”. (Məryəm-87)

Məhəmməd ibn Əbdülvəhhab “Kəşfüş-şübəhat” kitabında yazır: ”Əgər kimsə-şəfaət hüququnu Allah Peyğəmbərə verdiyi halda onu istəməyin nə eybi var?-deyə soruşsa, cavab budur: Şəfaəti Peyğəmbərə verən Allah, sənə Ondan qeyrisindən şəfaət istəməyi qadağan etmişdir. Sübut bu ayədir: “Allahdan başqa heç kəsə ibadət etməyin”. Bundan əlavə, şəfaət hüququ Peyğəmbərdən qeyrisinə də (məsələn, mələklərə, mö’minlərə) verilmişdir. Belə çıxır ki, biz onlardan da şəfaət istəməliyik? Halbuki, bu əməl Allahdan qeyrisinə sitayiş hesab olunur. Şiə məzhəbi deyir: “Peyğəmbər, ləyaqətli mö’minlər və mələklər Allah yanında bəndələr üçün şəfaət edə bilərlər. Bunu həm kitab, həm də sünnə təsdiqləyir. Sübut olaraq bu ayəni göstərir: “Onlar özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib, Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən, mərhəmətli olduğunu bilərdilər”. (Nisa-64)

“Peyğəmbərdən şəfaət diləmək şirk olsaydı, Allah onların tövbəsini qəbul etməzdi. Çünki, “Şübhə yoxdur ki, Allah Özünə şərik qoşanları əvf etməz”. (Nisa-48)

Fəxr /54/ Razi “Təfsiri-Kəbir” kitabında deyilən ayə haqqında yazır: “Özlərinə zülm edərək Allah yolundan çıxmış günahkarlar peşman olub tövbə etsələr və Peyğəmbər də onların bağışlanmasını Allahdan diləsə, Allahın tövbə qəbul edən və mehriban olduğunu görəcəklər”. O yazır: “Ayədə sən onlar üçün əfv istəsən”-deyil, “Peyğəmbər onlar üçün əfv istəsə”-deyilməsinin səbəbi, Allahın Peyğəmbərə(s) hörmət etməsindən xəbər verir. Yə’ni, günahkarlar, Allahın sevib-seçdiyi, bəyəndiyi və Öz Peyğəmbəri etdiyi bir şəxsin yanına gəliblər və onun şəfaəti rədd olunmaz...”

Müəllif: “Peyğəmbər Allahın insanlar arasında səfiridir və səfir tərəflərin vasitəçisidir. Şəfaət təkcə Peyğəmbərə yox, həm də Allaha yaxın olan bütün mö’minlərə aiddir. Qur’anda Yə’qubun (ə) oğlanlarının dilindən belə deyilir: “Ata! Bizim üçün günahlarımızın bağışlanmasını dilə. Biz doğrudan da günahkar olmuşuq-dedilər. (Yə’qub) dedi: Mən Rəbbimdən sizin bağışlanmanızı diləyəcəyəm”. (Yusif-97-98)

Ayədən mə’lum olur ki, övladları dünyada bağışlanmaq üçün atalarını şəfaətçi etdilər.

Allah Peyğəmbərə (s) əmr edir ki, mö'minlər üçün bağışlanmaq istəsin: "Həm öz günahlarının, həm də mö'min kişilər və qadınların günahlarının bağışlanmasını dilə". (Məhəmməd-19)

"Onlardan ötrü dua et, çünki sənin duan onlar üçün bir arxayınçılıqdır". (Tövbə-103)

Şəfaət şirk olsaydı, Allah Peyğəmbərinə onu etməyi əmr edərdimi? Halbuki, Qur'anda buyurur: "O, sizə müsəlman olduqdan sonra kafir olmağı heç əmr edərmi?". (Ali-İmran-80)

Məhəmməd ibn Əbdülvəhhabın fikri isə puç fantaziyadır. Onun dedikləri buna bənzəyir ki, bir nəfər deyə: "Allah Öz Peyğəmbərinə Qiyamət günü mö'minlərə Kövsər suyu vermək hüququ əta edib, lakin camaata bu suyu Peyğəmbərdən istəməyi qadağan edib". Yaxud, buna bənzəyir: "Allah Peyğəmbərin əmisi Abbasa hacılara su paylamaq məqamını vermiş, lakin camaatın gəlib ondan su alıb içməsini qadağan etmişdir". Bu fikrin mə'nası Allah-təla Nisa surəsinin 85-ci ayəsində buyurur: "Yaxşı iş üçün şəfaət edən şəxsə (onun savabından) pay düşür". Əgər şəfaət istəmək şirkdirsə, niyə Allah bir mö'min üçün şəfaət etməyi gözəl iş sayır və hətta ona savab verdiyini də buyurur? Şəfaət, yə'ni şəfaət edən və şəfaət olunan şəxsin istəkdə cəmləşməsi. Şəfi'-cüt deməkdir. Yə'ni, insan öz istəyini Allahdan diləmək üçün kiminləsə həmkarlıq edir və onu Allah yanında olan e'tibarına görə irəli verir. O vaxt şirk söhbəti ola bilər ki, dua edəndə həm Allahdan, həm də şəfaət edəndən istəyəsən. Lakin kiminsə Allah yanında hörməti olduğundan onu şəfaətçin hesab edirsənsə, bunun harası şirkdir? Buxarinin "Səhih"ində də "Qıtlıq illərində müşriklərin müsəlmanlardan şəfaət diləməsi" adlı bir fəsil vardır. O fəsildə dediklərimizə əsas verən bir çox hədislər var.

## Sual

Qur'anda bütpərəstlər öz bütlərini Allah yanında şəfaətçi hesab etdikləri üçün kafir və müşrik sayılırlar. Buna cavab nədir?

## Cavab

Doğrudur, onlar kafir və müşrikdirlər. Çünki, əvvəla onlar Allahın bəyənmədiyi, izn vermədiyi, taxta və dəmir parçasından olan bütlərdən şəfaət diləyirdilər. İkincisi isə, onlar öz şəfaətçilərinə ibadət edirdilər: "Biz onlara yalnız bizi Allaha yaxınlaşdırmaq üçün ibadət edirik (Zümər-3)".

Lakin peyğəmbərlər və övliyaların şəfaəti nə şirk, nə də küfrdür. İki dəlilə əsasən:

1-Məhəmməd ibn Əbdülvəhhaba belə bir sualımız var:-İslam dinində ümumiyyətlə şəfaət var, ya yox? Əgər desə ki, yoxdur, əvvəlcə söylədiyini inkar etmiş olur. Çünki, o yazır ki, şəfaət Peyğəmbərdən qeyrisinə də verilmişdir. Əgər, "yox"- desə, onda Qur'anın ziddini söyləmiş olur. Desə ki, "bəli, İslamda şəfaət var",- yenə sual ortaya çıxır: Peyğəmbər bir nəfər üçün şəfaət edərkən o şəxsin bağışlanmasında Allah ilə şərik olur, yoxsa o şəfaət istəyən şəxslə dua etməkdə şərik olur? Əgər desə: "Allah ilə şərik olur,"- Allah üçün şərik qərar verir ki, bu da şirkdir. Yox, desə ki, şəfaət istəyən şəxsin istəyində şərik olur,"- onda elə o da biz deyəni deyir. Əgər desək ki, dünya ilə axirətin fərqi var, cavab budur ki, dünyada şirk hesab olunan günah, axirətdə ibadət sayıla bilməz. Şirk, şirkdir. İstər dünyada, istərsə də axirətdə olsun.

**/54/ - Fəxr Razi, Fəxrəddin Razi və İmam Fəxr Razi ləqəbi ilə məşhur olan Məhəmməd ibn Ömər ibn Hüseyn əslən, mazandaranlıdır. Lakin Reydə doğulub boya-başa çatdığı üçün "Razi" ləqəbi ilə tanınıb. O, Əşəri-Şafei məzhəbindən olmuş və Heratda yaşamışdır. Alim, fəqih, filosof, mütəkəllim, əqli və nəqli elmlərə sahib bir şəxs olmuşdur. Məşhur "Təfsiri-kəbir" kitabının müəllifidir. Kitab kəlami, fiqhi, bədii və elmi tədqiqatlarla doludur. O, h. 606-cı ildə vəfat etmişdir.**

## Şəfaət barəsində araşdırmalar

Əgər şəfaət üçün yol axtarmaq şirk olsaydı, Allah Qur'anda aşağıdakı ayəni buyurmazdı: "Ey iman gətirənlər! Allahdan qorxun və Ona qovuşmaq üçün vasitə arayın!". Ayədəki "vasitə" sözü qeyri-müəyyən olduğu üçün bütün ilahi vasitələrə şamil olur. Heç kim deyə bilməz ki, ibadətlər vasitədir, lakin şəxsiyyətlər vasitə deyil.

Allah-təala Ali-İmran surəsinin 103-cü ayəsində buyurur: "Hamınız bir yerdə Allahın ipindən yapışın, bir-birinizdən ayrılmayın". Əgər Peyğəmbər(s) və imamlar Allah ilə insan arasında hökm vasitələridirsə, şəfaət vasitəsi də ola bilərlər. Allahın ipi dedikdə, Allah ilə insanlar arasında vasitə nəzərdə tutulur və bu ip həm Qur'an, həm də Qur'anı təbliğ edən müqəddəs şəxslərdir. Sünnülərin kitablarında məşhur bir hədis vardır. Peyğəmbər (s) buyurmuşdur: "Mənim səhabələrim ulduzlar kimidirlər, onlardan hansına iqtida etsəniz, düz yolu taparsınız". **/55/**

Şiə və sünnü mənbələrində çox məşhur olan bir hədisdə Peyğəmbər(s) buyurmuşdur: “Mənim Əhli-beytim sizin üçün Nuhun (ə) gəmisinə bənzəyir. Ona pənah gətirən xilas, ondan kənar qaçan isə qərq olar”. Digər hədisdə isə buyurur: “Mən sizin aranızda iki dəyərli əmanət qoyub gedirəm: Allahın kitabı və mənim Əhli-beytim. Nə qədər ki, onlara iqtida edirsiniz, əsla azmazsınız”. Onlara iqtida etmək, çətin vəziyyətlərdə onlara pənah aparmaq deməkdir. Həm dünya, həm də axirət işlərində. Vahabilərin istinad etdiyi-“Allah ilə başqasını çağırmayın”-ayəsi “Allahla birgə, başqasını da çağırmayın”-deməkdir. Bu, “Allaha dua edərkən şəfaətçi axtarmayın” demək deyil. Bundan əlavə, ayə Allaha ibadətdə şərik qoşmamağı əmr edir. Çünki, əvvəlcə buyurur: “Məscidlər Allahındır”. Təfsirçilər belə təfsir edirlər: “Səcdəgahlar Allaha məxsusdur. Başqasına Allahla birgə sitayiş etməyin”. Cin surəsində də (18-ci ayədə) belə buyurur: “Allahla birgə, başqa Allahı çağırmayın” (məqsədsə, yalançı allahlardır. Əslində, bir Allah vardır və O, hər şeyi cəm edib).

Mə’lum olduğu kimi, Məhəmməd ibn Əbdülvəhhabın fikirləri kitab və sünnəyə ziddir. Peyğəmbər və imamlardan şəfaət istəmək ona bənzəyir ki, bir şahın yanında hansısa işi düzəltmək üçün, onun yaxınlarından kimdənsə xahiş edirsən ki, şaha de, mənim işimi düzətsin. Qur’an deyir ki, Allahın razı olduğu, izn verdiyi və Allahdan əhd alan şəxslər şəfaət edə bilərlər. Mə’lumdur ki, Peyğəmbər və övliyaların belə icazəsi vardır. Ayədəki əhd sözünün mə’nası, imandır. Deməli, imanlı şəxslər də şəfaət edə bilərlər. Əlbəttə, kim: Ya filankəs, məni bağışla”-deyə, hansısa İmama yaxud Peyğəmbərə dua etsə, müşrik olur. Lakin: “Ya filankəs, Allahdan mənim bağışlanmağımı istə”-deyə, dua edən şəxsi müşrik və kafir adlandırmaq olmaz. Məhəmməd ibn Əbdülvəhhab elə xəyal edib ki, Allahdan başqa kimə tə’zim edilsə, şirkdir. O anlamayıb ki, Allaha ibadət, yalnız Allaha məxsus olan son dərəcə acizanə şəkildə tə’zim etmək deməkdir, mö’minlərə, Peyğəmbər və imamlara, alimlərə ehtiram istər dünyada, istərsə də axirətdə şirk sayıla bilməz və heç bir müsəlman bu hərəkəti Allahdan qeyrisinə ibadət kimi başa düşmür. Allahın yeganə olduğunu qəbul edib Ona ibadət edən şəxs, Peyğəmbərdən şəfaət istərkən, Peyğəmbərə sitayiş etməyi heç ağlına da gətirmir. Bəlkə də Məhəmməd ibn Əbdülvəhhab yaratdığı məzhəbin yayılması və inkişafının, digər müsəlmanları müşrik adlandırmağa bağlı olduğunu düşünərək bu addımı atmışdır. Çünki, inadkar və səviyyəsiz adamlar belə sözləri tez qəbul edərlər. O, “Kəşfüş-şübəhat”da yazır: “Allahı yeganə bilmək (tövhid) ilə insanlardan şəfaət istəmək bir-birinə ziddir. Çünki, Allah Qur’anda buyurur: “Yalnız Allaha ibadət edin” və deyir: “Rəbbinizi ahu-zarla çağırın”. Peyğəmbərin qəbrinin önündə dayanıb ondan şəfaət istəmək, onu Allah hesab etməkdir. Müsəlmanlar öz qardaşları (bütpərəstlər) kimi fəryad edirlər: “Əcəba o, tanrıların hamısını bir tanrımı edir? Bu, doğrudan da çox təəccüblü bir şeydir”. (Sad-5)

Vay olsun Məhəmməd ibn Əbdülvəhhaba! Gör, Allahpərəst müsəlmanlara nə ad qoyur? Allah məgər buyurmurmu ki, “kim Peyğəmbərə itatə etsə, həqiqətən, Allaha itaət etmişdir”. (Nisa-80)

Allah şəfaətə icazə vermişdir. Kim bunun əksini desə, Allah kəlamına ziddir. Biz Məhəmməd ibn Əbdülvəhhaba demirik ki, o və tərəfdarları belə fəryad edirlər: “Biz sizinlə göndərilənlərə inanmırıq və bizi də’vət etdiyiniz barəsində də möhkəm bir şəkk-şübhə içindəyik” (İbrahim-9) Biz ona belə deyirik: “Doğru yol sahiblərinin kimlər olduğunu və kimin haqq yolu tapdığını (Qiyamətdə) biləcəksiniz”. (Taha-135)

**/55/ - Bu hədis saxtadır. Şəhid Səid Qazi Nurullah Şüştəri (1019-h. ilində ölüb) İbn Hicr Məkkinin (973-cü h. ilində ölüb) “Səvaiqul-muhriqə” kitabına rədd kimi yazdığı “Səvarimul-muhriqə” əsərində bildirir: “Beyhəqi bu hədisin məşhur olmasına baxmayaraq, sənədinin zəif və e’tibarsız olduğunu yazır. “İbn Həzm yazır: “Bu hədis yalan və saxtadır. Bilirik ki, bütün səhabələr adil və düzgün insan olmamışlar. Demək, onların hamısına iqtida etmək olmaz”.**

## Şəfaət haqqında daha ətraflı mə’lumat

Şeyx Süleyman ibn Səmhan Nəcdi “Əl-hidayətüs-sünniyyə” kitabının 64-cü səhifəsindən 68-ci səhifəsinə qədər şəfaət barədə geniş mə’lumat verir. Onun dəlil kimi göstərdiyi ayə və hədislərdən bir neçəsini qeyd edirik: “Allahın izni olmadan, Onun yanında kim şəfaət edə bilər?”. (Bəqərə-255)

“O gün Rəhmanın izn verdiyi və söz danışmağına razı olduğu şəxslərdən başqa heç kimin şəfaəti fayda verməz”. (Taha-109)

“Göylərdə neçə-neçə mələklər vardır ki, onların şəfaəti heç bir fayda verməz. Ancaq Allah, Öz istədiyi və razı olduğu kimsəyə izn verdikdən sonra”. (Nəcm-26)

Buxari və Müslim /56/ öz “Səhih”lərində yazırlar: “Allah-təala Qiyamət günü dörd dəfə Peyğəmbərə (s) buyurar: “Ey Məhəmməd (s)! Qalx və danış ki, Allah eşidər və şəfaət et ki, Allah qəbul edər”.

Buxari Peyğəmbərin (s) belə buyurduğunu yazır: “Mənim şəfaətimə layiq olan ən xoşbəxt şəxs o kəsdir ki, bir Allahdan başqa Allah olmadığına səmimi qəlbdən inansın”.

Tirmizi /57/ və İbn Macə Qəzvini Peyğəmbərdən (s) belə nəql edirlər: “Allahımın yanından birisi gəlib, mənə bunlardan birini qəbul etməkdə ixtiyar sahibi olduğumu xəbər verdi: “Ya ümmətimin yarısı Cənnətə getsin, ya da mən onlara şəfaətçi olum”. Mən şəfaəti qəbul etdim. Mənim şəfaətim isə yalnız o adama qismət olar ki, zərrə qədər də Allaha şərik qərar vermədən ölsün”.

Bir səhih hədisdə deyilir: “Bu rəhmətlik ümmətin içində Allahın hüzurunda günahkarlara şəfaət edə biləcək şəxslər vardır. Onlardan bə’zisi Rəbiə və Muzr qəbiləsinin əhalisindən də çox adama şəfaət edəcəklər”.

Peyğəmbər və imamların şəfaət etməsinə dair dəlillərin kifayət qədər çox olması aydın oldu. Müsəlmanların əsrlər boyu inanıb qəbul etdiyi şəfaət iki növdür:

1.Peyğəmbəri və ya o Həzrətin əsl canişinlərini özləri ilə Allah arasında vasitə qərar verirlər. Yə’ni, Allahı and verirlər onların itaət və ibadətinə, onların Allah yanında olan hörmətinə ki, Allah onların arzusunu yerinə yetirsin. Məsələn, Abdullah ibn Ömərin nəql etdiyi hədisdə belə oxuyuruq: “Peyğəmbər bir kora öyrətdi ki, öz arzusunun yerinə yetməsi üçün Allahı Peyğəmbərin haqqına and verərək, Allahın Peyğəmbərin bu arzu barəsindəki şəfaətini qəbul etməyi üçün ona dua etsin”.

Bu hədisi Əhməd ibn Hənbəl /58/ Osman ibn Hüneyf Ənsaridən nəql edir. Habelə, İbn Macə, Tirmizi, Həkim Nişaburi, Süyuti və Buxari (Ömərin yağış üçün Peyğəmbərin əmisi Abbasdan şəfaət diləməsi barəsində) nəql etmişlər.

2.Allahdan diləyi olan şəxs Peyğəmbərdən istəyir ki, onun arzusunu Allahdan diləsin. Çünki Peyğəmbər Allaha daha yaxındır. Allah Öz Peyğəmbərinə sidq ürəklə kəlmeyi-şəhadəti deyən müsəlman üçün şəfaət etməyə izn vermişdir. Buna sübut olaraq Buxari, Tirmizi, İbn Macə, Haris ibn Qeys və Əbu Səid Xidrinin Peyğəmbərdən (s) nəql etdiyi hədisləri göstərə bilərik. Bu, elə biz deyən şəfaətdir. Bunun adını dəyişib müsəlmanlara qara yaxanlar ya nadandırlar və Qur’an ilə sünnədən xəbərləri yoxdur, ya da müsəlmanlarla, Peyğəmbər və imamlarla düşmənçilik etməyə bəhanə axtarırlar. Yaxud da bə’zi cahil və inadkar müsəlmanları aldatmaqla müsəlmanların rəhbərliyini qazanmaq, onların mal, can və namusuna təcavüz etmək üçün tərəfdar toplamaq fikrindədirlər. Təəccüb burasındadır ki, adını çəkdiyimiz Şeyx Süleymana kafirlərin bütlərdən şəfaət istəməsini yazandan sonra Allahın izni olmadan şəfaətin qeyri-mümkünlüyünü bildirən ayə və hədisləri göstərir. Bütün bu ayə və hədisləri özü yazandan sonra şəfaətə inanan müsəlmanları kafir adlandırır?! Şeyx Süleyman şər’ən vacibdir ki, ayə və hədisləri diqqətlə nəzərdən keçirərək müsəlmanların kafirlərlə necə uyğun olduğunu isbat etsin! Müsəlmanlar deyirlər: “Allah bizim Tanrımızdır və O, Öz Peyğəmbərinə bizim üçün şəfaət etməyə izn vermişdir”. Şeyx Süleyman Nəcdi “Əl-Hidayətüs-süniyyə” (s-66) kitabında yazır: “Kitab və sünnədən mə’lum olur ki, kim mələkləri, peyğəmbərləri, Abbası, Əbutalibi və s. özü ilə Allah arasında vasitə qərar verə və onlardan istəyə ki, Allah yanında olan məqamlarına görə onun üçün şəfaət etsinlər, kafir və müşrikdir. Onun qanı və malı müsəlmanlara halaldır. Hətta kəlmeyi-şəhadət deyərək, namaz və orucunu yerinə yetirsə belə!”.

Ey Şeyx! Ömər Abbası özü ilə Allah arasında şəfaətçi etdi ki, yağış yağsın. Buna nə deyirsən? Ömər kimi bütün müsəlmanlar peyğəmbərləri və övliyaları çağırmağı şəfaətçilik kimi qəbul edirlər. Bəs sən nə deyirsən?!

**/56/ - Müslim ibn Həccac Nişaburi “Sihahi-sittə”dən ikinci “Səhih”in müəllifi. Buxaridən sonra ən güclü hədisçi sayılır. 261-ci h. ilində ölüb. (Qeyd edək ki, “Sihahi-sittə”nin bütün müəllifləri iranlı olmuşlar).**

**/57/ - Məhəmməd ibn İsa Tirmizi “Sihahi-sittə”nin beşincisi sayılan “Sünən” kitabının müəllifidir. O, kor imiş və Məhəmməd ibn İsmayıl Buxarinin tələbəsi olmuşdur. Tirmizi 279-cu h. ilində ölüb. Tirmiz (ya Tərməz) Mavərənnəhrin şəhərlərindəndir.**

**/58/ - Əhməd ibn Hənbəl 204-cü hicri ilində ölmüş Məhəmməd ibn İdris Şafeinin şagirdi olub. İbn Nədimin yazdığına görə, Əhməd ibn Hənbəlin hədislərə aid yazdığı “Əl-Müsnəd” kitabında (zəif hədislər də çoxdur) 40000-dən çox hədis vardır. Vahabi məzhəbi öz fiqhini Əhməd ibn Hənbəlin fitvaları əsasında müəyyənləşdirmişdir. O, 241-ci hicri ilində vəfat edib.**

## 2-ÖLÜLƏRƏ TƏVƏSSÜL ETMƏK

### Ölüm-fani olmaq deyil

Vahabilər deyir: "Allah yanında məqamı olan ölüb getmiş insanlara təvəssül etmək və onlardan istək diləmək düzgün deyil". Onlar bə'zən Məhəmmməd ibn Əbdülvəhhabın bu fikrinə əsaslanırlar: "Ölülərə təvəssül etmək puça müraciət etməkdir və əqli baxımdan pis işdir. Çünki ölü, dirilərin istəyini yerinə yetirməyə qadir deyil". Bə'zən isə İbn Teymiyyənin fikrini əsas götürürlər: "Təvəssül şirkdir". O, ("Minhacüs-sünnə"-birinci hissə- səh. 11-də) belə yazır: "Sübutumuz bu ayədir: "Sizin Ondan qeyri ibadət etdikləriniz bir çərdək qabığına belə, sahib deyillər. Əgər siz onları çağırsanız, bu çağırışınızı eşitməzlər; eşitsələr də cavab verə bilməzlər. Özləri də Qiyamət günü sizin şərik qoşduğunuzu danacaqlar. Heç kim sənə hər şeydən xəbərdar olan kimi xəbər verə bilməz (Fatir-13-14)".

### Vahabi məzhəbi və ölülərə təvəssül etmək

Şiələr deyirlər: "Peyğəmbər və imamların həm sağlıq dövründə, həm də dünyadan köçdükdən sonra onlardan kömək istəmək və istəklər üçün onlara təvəssül etmək düzgündür". Bu iş əvvəla, puça müraciət etmək deyildir. Şafeilərin ən böyük alimi Qəzali /59/ "Ehyaülumid-din" kitabında yazır: "Bə'zi alimlər demişlər: "Ölüm, elə həmin puç olmaq deməkdir". Bu, Allaha və ölümdən sonrakı həyata inanmayan mülhidlərin fikridir. Lakin insan bu həyatda yuxuda olduğu kimidir. Ölən kimi ayılır. Çünki, ölərkən ilk anladığı şey, yaxşı və pis hərəkətləridir. Pis hərəkətlərini görüb, dəhşətlə həsrət çəkir".

Demək, vahabilərin fikri nə kitab, nə sünnə, nə də alimlərin fikri ilə üst-üstə düşmür. İslamın fikrincə ölüm, puç olmaq deyil.

**/59/ - Əbu Hamid Məhəmməd ibn Məhəmməd ibn Məhəmməd Qəzali Tusi Əş'əri Şafei "Höccətül-İslam" ləqəbi ilə tanınıb, "Ehyaül-umid-din" və digər kitabların müəllifidir. O, 505-ci h. ilində Tusda vəfat etmiş və elə orada da dəfn olunmuşdur.**

### Qur'andan dəlillər

Qur'andan dəlillərimiz aşağıdakı ayələrdir:

1.Artıq bu gün, gözündən pərdəni götürdük, sən bunu sərrast görürsən (Qaf-22).

2.Oxu kitabını. Bu gün sən özün-özünə haqq-hesab çəkməyə kifayətsən (İsra-14).

3.Ruziləri də səhər-axşam oradadır (Məryəm-62).

4.Həqiqətən, yaxşı əməl və itaət sahibləri cənnətdə qərar tutacaqlar. Pis əməl sahibləri isə cəhənnəmdə olacaqlar (İnfitar-13-14).

5.Allah iman gətirənləri dünyada da, axirətdə də möhkəm bir sözlə sabitqədəm edər (İbrahim-27).

Buxari "Səhih"də yazır: "Peyğəmbər (s) buyurmuşdur: "Mö'min qəbirdə oturarkən Allahın təkliyinə, Məhəmmədin peyğəmbərliyinə şəhadət verir". Bu, elə İbrahim surəsinin 27-ci ayəsinin mə'nasıdır. Yuxarıdakı ayələr ümumi xarakter daşıyırdı. İndi isə günahkarlar və kafirlərə aid ayələr:

1.Onlar səhər-axşam odda yandırılarlar. Qiyamət qopduğu gün isə Fir'on əhlini ən şiddətli əzaba salın (Mö'min-46).

2.cənnət əhli cəhənnəm əhlinə belə müraciət edib: "Biz, Rəbbimizin bizə və'd etdiyini haqq olaraq gördük. Siz də Rəbbinizin sizə və'd etdiyini gerçək olaraq gördünüzmü?"-deyə, soruşacaqlar. Onlar: "Bəli"-deyə, cavab verəcəklər (Ə'raf-44)".

Buxari "Səhih"də yazır: "Bədr müharibəsi bitdikdən sonra Həzrət Peyğəmbər (s) Bədr quyusunun (kafirlərin meyidlərini o quyuya tökmüşdülər) yanına gəlib yuxarıdakı ayəni oxudu. Səhabələrdən biri dedi:-Ya Rəsuləllah! Ölənlərimi səsləyirsən?

Peyğəmbər (s) buyurdu:-Siz onlardan daha yaxşı eşidən deyilsiniz, (yə'ni, onlar da sizin kimi eşidirlər) lakin cavab verə bilmirlər".

3.Ona hər tərəfdən ölüm gələr, lakin ölməz (İbrahim-17).

4.Axirət yurdu isə şübhəsiz, əbədi həyatdır, kaş biləydilər! (Ənkəbut-64).

5.O: "Kaş ki, mən əvvəlcədən həyatım üçün edəydim"-deyəcəkdir (Fəcr-24).

Bəli, imansız və kafir insan axirət dünyasında həqiqətləri görən kimi deyər: “Kaş, əbədi həyatım üçün bir şey göndərəydim!”. Bəli, o, “həyatım” üçün deyir. Çünki tezliklə bitən dünya həyatı artıq yoxdur və yalnız bir əbədi həyat var. Axirət həyatı.

O cümlədən, şəhidlər haqqında nazil olan ayələrdir:

1.Allah yolunda öldürülənlərə “ölü” deməyin. Əksinə, onlar diridirlər, lakin siz dərk etmirsiniz (Bəqərə-154).

2.Allah yolunda öldürülənləri heç də ölü zənn etmə! Xeyr, onlar öz Rəbbinin yanında diri olub, ruzi yeyirlər. Onlar Allahın Öz mərhəmətindən onlara bəxş etdiyi ne’mətə sevinir, arxalarınca gəlib hələ özlərinə çatmamış şəxslərin heç bir qorxusu olmayacağına və onların qəm-qüssə görməyəcəklərinə görə şadlıq edirlər. Onlar Allahdan gələn ne’mət və mərhəmətə görə, həm də Allahın mö’minlərin mükafatını puça çıxarmayacağına görə sevincək olurlar (Ali-İmran-169-170-171).

Allah iman əhlinə belə müraciət edir: “Ey arxayın nəfs! Dön Rəbbinə, sən Ondan razı olaraq, O da səndən! Bəndələrimin zümrəsinə daxil ol! cənnətimə varid ol! (Fəcr-27-28-29-30)”.

Əgər insan ölərkən məhv olursa, bəs nə üçün Allah onlarla danışır? Məhv olmuş şəxsə müraciət etmək olarmı? Əgər onlar puçdularsa, bu sözü Allaha necə deyə bilərlər?

“Ey Rəbbim! Məni geri qaytar! Bəlkə zay etdiyim ömrün müqabilində, yaxşı bir iş görüm! (Mu’minun-99-100)”.

“Kaş qövmüm biləydi ki, Rəbbim məni niyə bağışladı və nəyə görə hörmət sahiblərindən etdi! (Yasin-26-27)”.

## Peyğəmbər sünnəsindən dəlilimiz

Sünnədən isə “Sihah” və “Sünən” kitablarından nəql etsək, kifayətdir. Bu kitablarda aşağıdakı bölmələr vardır:

“Ölü, dirilərin ayaq səsini eşidir”, “Ölü qəbirdə danışır”, “Ölü cənnət və ya cəhənnəmdə öz yerini görür”. “Qəbristana girərkən, Peyğəmbər və ali-Peyğəmbərə, habelə, digər mö’minlərə salam verməyin qaydası” və. s.

Buxari “Səhih”in namazın vacibliyi və Peyğəmbərin(s) me’rac gecəsi Adəm, İdris, İbrahim, Musa və İsa ilə görüşməsi bölməsində yazır: “İbn Həzm və Ənəs ibn Malik deyirlər ki, Peyğəmbər buyurdu:-Allah mənim ümmətimə əlli namaz vacib etdi. Me’racdan qayıdarkən Musa ilə rastlaşdım. Musa (ə) soruşdu:-Allah nəyi sənin ümmətinə vacib etdi? Dedim:-Əlli namazı. Musa dedi:-Qayıt Allaha de ki, çoxdur, sənin ümmətində bu qədər taqət yoxdur. Mən də qayıdıb Allaha dedim. Allah da onun yarısını vacib etdi. Qayıdıb Musaya dedim:-Allah yarısını saxladı. Musa dedi: Qayıt de ki, ümmətim üçün bu da çoxdur. Qayıdıb Allaha belə də dedim. Allah buyurdu: Onu beş vaxt namazı miqdarında etdim. Qayıdıb Musaya dedikdə, Musa bir də qayıdıb yüngülləşdirməyimi təklif etdi. Lakin mən dedim ki, daha Allahdan utanıram...” **/60/**

Nəsainin **/61/** “Sünən”ində və “Ehyaülumid-din”də Peyğəmbərdən(s) belə nəql olunur: “Allahın Yerdə gəzişən və mənim ümmətimə rəhmət göndərən mələkləri var”.

Yenə Peyğəmbər(s) buyurmuşdur: “Mənə çoxlu salam göndərin. Onlar mənə çatır”. Ətrafdakılar soruşdular: “Ya Rəsuləllah! Bizim salamımız sənə necə çata bilər? Axı sənin bədənin öləndən sonra çürüyəcək? Peyğəmbər(s) buyurdu:-Allahın Peyğəmbəri diridir və Allahdan ruzi alır”.

Bəs necə olur ki, peyğəmbərlər və şəhidlər istənilən səsi, salamı eşidirlər, lakin onlara təvəssül edəni eşitmirlər? Halbuki, Peyğəmbərdən(s) nəql olunur ki, buyurmuşdur: “Mənim biliyim, vəfatımdan sonra diriliyimdəki biliyim kimidir”.

Qəzali “Ehyaülumid-din”də o Həzrətdən belə nəql edir: “Allah bir mələyi camaatın sözlərini mənə çatdırmaq üçün mə’mur etmişdir”.

**/60/ - Bu hədis həm sünnü, həm də şiə alimlərinin kitablarında vardır. Lakin tədqiqatçıların dediyinə görə və hədisin özündən də göründüyü kimi, bu hədis saxtadır. Güman ki, israiliyyatdandır. Müəllif sübut üçün onların qəbul etdiyi hədisi yazmışdır.**

**/61/ - Əhməd ibn Əli ibn Şüeyb Nəsai. Xorasan viilayətində Sərxos və Abivərd arasında yerləşən Nəsa şəhərində doğulub. “Sihahi-sittə”dən biri olan “Sünən” kitabının müəllifidir. Böyük alim və fəqih olmuşdur. Digər kitablarından, Həzrət Əlinin (ə) tə’rifatına dair yazdığı “Xəsaisün-Nəsai”nin adını qeyd edə bilərik. 303-cü h. ilində vəfat edib.**

## Kitab və sünnəyə əsasən, dirilərə təvəssül etmək şirk deyil

Mə’lumdur ki, dirilərə təvəssül etmək düzgündür. Peyğəmbər, övliya və şəhidlər də Qur’anda diri hesab olunurlar, deməli, onlara təvəssül də düzgündür və şirk deyil.

Allah buyurur: “Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun (Maidə-2)”.

Buxari “Səhih”də yazır: “Peyğəmbər (s) buyurdu: “Müşriklərin köməkçilərini azad edin, onlardan İslama gəlmək istəyənləri qəbul edin!”.

Məxluqdan kömək istəmək, Qur’anda da qeyd olunmuşdur. Allah buyurur: “Musanın adamlarından olan şəxs, düşməninə qarşı ondan imdad istədi (Qəsəs-15)”.

Həvarilər İsadan(ə) xahiş etdilər ki, Allahdan onlar üçün göydən süfrə enməsini istəsin. Musanın tərəfdarları ondan su tapmasını dilədilər. Yusif azad olmuş məhbusa dedi: “Ağanın yanında məni də yada sal! (Yusif-42)”.

Musa və Xızr haqda buyurur: “Sonra yenə yola düzəlib getdilər. Axırda bir məmləkət əhlinə yetişib, onlardan yeməyə bir şey istədilər. Əhali onları qonaq etmək istəmədi (Kəhf-77)”.

Əgər Həzrət Yusifin(ə) bir kafirdən-“Ağanın yanında məni də yada sal”-deyə, xahiş etməsi, Musa və Xızrın(ə) bir məmləkət əhlindən yemək istməsi doğru və düzgün hesab olunursa, bəs nə üçün Peyğəmbərin(s) qəbri önündə dayanıb-“Ağanın yanında məni yada sal”-deyərək yalvarmaq müşriklik sayılmalıdır? Süleyman Peyğəmbər(ə) məclis əhlinə üz tutub deyir: “Səba məlaikəsi Bilqeys özü gəlib çatmamış, onun taxtını kim gətirə bilər?”. Bir ifrit (cin) bu işi öz boynuna götürür. İbn Teymiyyə və onun kimilər nicat gəmisi olan Peyğəmbər(s) və Əhli-beytin(ə) məqamını bir ifrit qədər də qəbul etmirlərmi? O Peyğəmbər(s) ki, bu istək və hacətləri yerinə yetirməkdə aciz deyil. Allah buyurur: “(Münafiqlərin Peyğəmbərə və mö’minlərə qarşı) kin-küdurət bəsləmələrinin səbəbi, yalnız Allahın və Peyğəmbərinin Öz ne’mətləri ilə onları varlandırmasıdır” (Tövbə-74).

“Kaş münafiqlər Allahın və Peyğəmbərinin onlara verdiklərindən razı qalıb: Allah bizə kifayətdir. Allah bizə Öz ne’mətindən bəxş edəcək. Biz, həqiqətən, Allaha ürəkdən bağlananlarıq!-deyərdilər” (Tövbə-59).

“(Peyğəmbər) onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar” (Ə’raf-157).

“Ağır yük” həm dünya, həm də axirət işlərinə aiddir.

“Sizə özünüzdən bir Peyğəmbər göndərildi ki, əziyyətə düşməyiniz ona ağır gəlir, o sizi çox istəyir, mö’minlərə şəfqətlidir, mərhəmətlidir (Tövbə-128)”.

Fəxr Razi “Təfsir”ində yazır: “Yə’ni, Peyğəmbər(s) Allahın dünya və axirətdə sizə xeyir verməsi üçün israrlıdır”.

Allahın yanında bu qədər hörməti olan Peyğəmbərdən(s) imdad istəmək və ona təvəssül etmək şirk ola bilməz.

Allah İsa (ə) Peyğəmbər haqqında belə buyurur: “Mən sizin üçün palçıqdan quşa bənzər bir surət düzəldib ona üfürərəm, o da Allahın izni ilə quş olar. Anadangəlmə korları, cüzam xəstəliyinə tutulanları sağaldır və Allahın izni ilə ölüləri diriltdirəm“ (Ali-İmran-49).

“Dörd cür quş götürüb onlara diqqətlə bax, sonra hər dağın başına onlardan bir parça at, daha sonra onları çağır, tez yanına gələcəklər!” (Bəqərə-260).

Bunlardan əlavə, Musanın (ə) əsanı daşa vuraraq daşın parçalanması, İsanın (ə) ölüləri diriltməsi, bizim Peyğəmbərin(s) ayı parçalaması, o Həzrətin Me’raca getməsi və s. Qur’an və sünnədə şübhəsiz qəbul olunan məsələlərdir. Müsəlmanların bu fövqəl-təlim işləri qəbul etməkdən başqa çarəsi yoxdur.

## Nəticə

Bəlli oldu ki, peyğəmbərlər dünyada fövqəl-təbii qüdrətə malik olmuşlar. O da aydın olur ki, peyğəmbərlər Bərzəx aləmində də yaşayır və deməli, dünyada bizim hacətlərimizə əncam çəkməyə qadir olduqları kimi, axirətdə də bu işi edə bilərlər. İsanın (ə) ölüləri diriltməsi və xəstələrə şəfa verməsi ilə, ona təvəssül etmək arasındakı fərq nədir? Halbuki, ölümə şəfa Allahın əlindədir və digər hacətlərdən daha çətindir. Dəqiq bir hədisdə deyilir ki, Peyğəmbər (s) bir kora belə deməyi öyrətdi: “İlahi! Sənin rəhmət peyğəmbərin olan Peyğəmbərin(s) vasitəsilə səndən imdad istəyirəm. Ya Mühəmməd (s)! Mən sənin vasitənlə bu arzumun yerinə yetməsi üçün Allaha üz tuturam. İlahi! Peyğəmbərin mənim barəmdə şəfaətini qəbul elə!”.

Bu hədisi Həkim Nişaburi /62/ və İbn Macə Qəzvini İmran ibn Həssandan nəql edərək düzgün olduğunu qeyd etmişlər. Termizi və Şeyx Süleyman Nəcdi də öz kitablarında bu hədisi yazmışlar. Lakin qəribə burasındadır ki, Şeyx Süleyman Nəcdi də öz kitabında bu hədisi yazdıqdan sonra belə deyir: "Bu hədis bizə aydın edir ki, Allahdan başqasını çağırmaq olmaz. Çünki Peyğəmbər deyir: İlahi, Sənə üz tuturam". Halbuki o, hədisin davamında "Ya Mühəmməd (s)! Mən sənin vasitənlə Allaha üz tuturam" cümləsini nəzərə almır! Allahdan qeyrisinə təvəssül etməyin ümumiyyətlə, batil olduğunu deyənlərin kitab və sünnəyə müxalif olduqları aydınlaşır. Əlavə dəlil budur ki, Buxari "Səhih"inin "Qıtlıq zamanı camaatın yağış üçün xahişi" və "peyğəmbərlik əlamətləri" bölməsində Sabitdən, onun da Ənəs ibn Malikdən yazdığı hədisdir: "Peyğəmbər(s) zamanında Mədinədə qıtlıq oldu. Bir gün Peyğəmbər (s) cümə xütbəsi oxuyarkən, bir kişi qalxıb dedi: - Ya Rəsuləllah! Mal-qaramız qırıldı getdi. Allahdan istə, bizi sirab etsin. Peyğəmbər(s) də əlini açıb dua etdi".

**/62/ - Məhəmməd ibn Abdullah ibn Məhəmməd "Həkim Nişaburi" və "ibnül-Bəyyi'" adı ilə məşhurdur. O, təxminən, iki min nəfərdən hədis öyrənmiş və öz dövründəki hədis alimlərinin sünni məzhəbləri arasında başçısı olmuşdur. Buxari və Müslimin "Səhih"inə şərh olan "Müstədrəküs-səhiheyn", "Fəzailu-Fatimə (s.ə)" və "Nişabur alimlərinin tarixi" kitablarının müəllifidir. Bir çox sünni və şiə alimləri onu şiə hesab etmişlər. Lakin qəti mə'lumdur ki, o sünni olmuş, fəqət, insaflı, bitərəf və Əhli-beyti sevən bir şəxs imiş. Həkim Nişaburi 405-ci h. ilində vəfat etmişdir.**

## Ömərin Peyğəmbərin (s) əmisi Abbasa təvəssül etməsi

Şeyx Süleyman Nəcdi yazır: "Təvəssül yalnız Peyğəmbərə məxsusdur, başqalarında bu ixtiyar yoxdur". Halbuki, Buxari "Səhih"də yazır: "Qıtlıq düşən kimi Ömər ibn Xəttab Peyğəmbərin əmisi Abbasın vasitəsilə Allahdan yağış istəyir və deyirdi: "İlahi, nə zaman qıtlıq və quraqlıq olurdu, Peyğəmbərimiz(s) vasitəsilə Səndən yağış istəyirdik, Sən də bizi sirab edirdin. İndi də Peyğəmbərimizin əmisinin vasitəsilə Səndən yağış istəyirik, bizi sirab elə!". Ravi deyir: "Yağış da yağdı!". /63/

Əhməd Zeyni Dəhəlan "Xülasətül-Kəlam"da Əllamə Qəstəlaninin /64/ "Məfahib" kitabına əsasən yazır: "Ömər Abbasın vasitəsilə Allahdan yağış istəyərək deyirdi:-Ay camaat! Peyğəmbər Abbasa, oğulun öz atasına hörmət etdiyi qədər hörmət edirdi. Siz də Abbasa, onun qədər ehtiram edin və onu Allah dərgahında vasitəçi qoyun!"-sünnilərin bu hədisinə əsasən, səhabələrin bütün işləri düzgündür: "Mənim səhabələrim ulduz kimidirlər, hansının dalınca getsəniz, hidayət olunarsınız". Səhabələrdən biri Ömər, Peyğəmbərdən(s) qeyrisinə təvəssül etmişdir. Kim deyə bilər ki, qıtlıq illərində Peyğəmbərdən(s) yağış istəyənlər müşrik olmuşlar? Yaxud, Ə'raf surəsinin 55-ci ayəsi olan "Rəbbinizi çağırın" və cin surəsinin 18-ci ayəsi olan "Allahdan başqa heç kimi çağırmayın"-əmrinin əksinə getmişlər? Ya da Ömər bu işi ilə şirk etmişdir? Yaxud, Ömər dini vahabilər qədər bilmirmiş?-"Sizə nə olub? Necə mühakimə yürüdürsünüz?"

**/63/ - Xəlifənin Abbasa nə qədər inamı olub? Görəsən, ömürünü İslama həsr etmiş, Peyğəmbər(s) Əhli-beytinin parlaq nümayəndəsi olan Əli (ə) daha çox hörmətə layiqdir, yoxsa be'sətdən 15 il sonraya, yə'ni, Bədr döyüşünə qədər müşrik və kafir qalan və sonralar da bir elə islami rolu olmayan Abbas? Tarixi yaxşı mütaliə edənlər bilirlər ki, Ömərin bu hərəkətdən iki məqsədi vardı: 1. Diqqəti Əlidən (ə) yayındırmaq. 2.Abbasa göstərdiyi belə zahiri və mə'nasız hörmətlə guya, Peyğəmbər Əhli-beytinə öz ehtiramını nümayiş etdirmək.**

**/64/ - Şəhabəddin Əhməd ibn Məhəmməd ibn Əbu Bəkr Qəstəlani Misri. "Əl-Məvahibüd-diniyyə fis-sirətin-nəbəviyyə" kitabının müəllifi və böyük sünni alimi olmuşdur. O, Cəlaləddin Süyutinin müasiri olub. Qəstəlani 923-cü h. ilində, Süyuti isə 910-cu h. ilində vəfat edib. Bu, 686-cı h. ilində vəfat etmiş Qütbüddin Əbu Bəkr Məhəmməd ibn Əhməd Məkki Qəstəlani deyil.**

## Yalnız vasitəçilik qüdrəti olanlara təvəssül etmək lazımdır

Əgər Allahdan qeyrisinə təvəssül etmək şirkdirsə, onda o şəxsin ölü, yaxud diri olmasının fərqi yoxdur. Əgər desələr ki, dirinin gücü ölüdən çoxdur, mə'lumdur ki, diriliyin, yaxud ölülüyün iman və küfr məsələsinə dəxli yoxdur. Bir şəxsin ona kömək edə biləcəyini bilən insan ondan kömək istəyirsə, nə üçün şirk sayılmalıdır? Bir ölü, dirilərdən daha qüdrətlidirsə, ondan kömək istəməyin şirk olduğu heç bir islami mənbədə yoxdur. Bir aciz varlıqdan kömək istənilsə, şirk deyil, mə'nasız iş sayılar. Diri qüdrətlidən kömək istəmək şirk deyilsə, ölüdən də yardım istəmək şirk deyil. Desələr ki, Allah Öz bəndələrinə qüdrət verib və biz də o şəxslərdən kömək istəyirik, onda cavabımız, elə onların şəfaəti qəbul edənlərə verdiyi cavabdır. Məhəmməd ibn Əbdülvəhhab belə yazır: "Allah kimlərəsə qüdrət vermişdir, lakin sənə ondan kömək istəməyi qadağan etmişdir. Çünki o məxluqdur. Dəlil bunlardır:

1.Allah ilə başqasını çağırmayın.

2.Çağırın, Rəbbinizi ağlayaraq (Ə'raf-55).

3.Namaz qıl, Rəbbin üçün və qurban kəs (Kövsər-2).

4.Allahdan başqa çağırdıqlarınız çərdək qabığına da malik deyillər (Fatir-13).

Desələr ki, qüdrəti Allah verdiyi üçün, qüdrətlini çağırmaq elə Allahı çağırmaq deməkdir, onda belə cavab verərik:-Elə isə qüdrətli insandan kömək istəməklə onun qəbri önündə dayanıb, Allahdan arzunun yerinə yetməsi üçün dua etməyi xahiş etməyin nə fərqi var?

Desələr ki, bu iş bütpərəstlərin büt önündə dayanıb kömək istəməsi kimi bütpərəstlikdir, onda belə cavab verərik: "Diri insandan kömək istəmək də Musa (ə), İsa(ə), Məryəm (s.ə) və digər diri insanları öz Allahları hesab edən şəxslərin işi kimidir! Qəribədir! Axı, vahabilər nə üçün başa düşmək istəmirlər?". **/65/**

İbn Teymiyyə yazır: "Peyğəmbər və imamların qəbirlərindən hacət istəmək düzgün deyil". Və sübut kimi-"Allahdan başqa çağırdıqlarınız..."-ayəsini göstərir. Lakin bütün təfsirçilər bu ayənin: "bütlərdən əl çəkməyin"- kafirlər haqda nazil olduğunu yazırlar. Onların fikrincə, dünyanı onların bütlərinə oxşayan ulduzlar idarə edirlər. Allah da onların cansız əşya olub, nəinki qeyri-adi, heç adi işləri də bacarmadığını dəlil gətirərək, rədd etdi. Allah onları müşrik adlandırdı və buyurdu: "Allah üçün şəriklər düzəltməyin"-(Bəqərə-22), "Öz yonduqlarınızamı ibadət edirsiniz?" (Saffat-95).

Peyğəmbər və övliyaların məzarından kömək istəyənlər, onları dünyanı idarə edən saymırlar. Onların Allah yanındakı hörmətinə görə, Tanrıdan kömək istəyirlər. Bütpərəstlərin əqidəsi hara, müsəlmanların ehtiramı hara?

**/65/ - İstər Peyğəmbər, istərsə də imam olsun, hər kəsi insan, Allaha bağlı olmadan müstəqil və qüdrət sahibi hesab etsə, müşrikdir. Lakin onların Allahın izni ilə kömək etmələrini qəbul edən müşrik deyil. Bunun üçün nə ağıl, nə də şəriət qadağa qoymamışdır.**

## Vahabilərin sübutu və bizim cavabımız

Vahabilər övliyalara təvəssül etməyin, onlardan kömək və şəfaət istəməyin haram olduğunu sübut etmək üçün dəlillər göstərsələr də, lakin bu dəlillər onların əleyhinə daha çox dəlalət edir. Məsələn, onlar deyirlər: "Allah Qur'anda buyurub: De! Əlbəttə, bütün işlər Allaha məxsusdur" (Ali-İmran-154).

Doğrudur, bütün işlərin izni Allaha məxsusdur. Lakin, Allah kiməsə bir iş görməyə icazə versə, onda necə? Məsələn, İsa (ə) Allahın izni ilə quş yaradır, ölüləri dirildir və xəstələrə şəfa verirdi. Bütün qüdrətlər Allahın izninə bağlıdır. "Allahdan başqa heç kəsdə qüdrət və qüvvət yoxdur".

"Elə bir şey yoxdur ki, onun xəzinələri Bizdə olmasın. Lakin, Biz onlardan ancaq müəyyən qədər endiririk" (Hicr-21).

Allah hər iş üçün bir səbəb yaratmışdır. Məsələn, Musa (ə) belə dedi: "O mənim əsamdır, ona söykənir, onunla qoyunlarıma xəzəl silkələyirəm. O başqa işlərdə də karıma gəlir" (Taha-18).

Yaxud ailəsinə belə dedi: "Siz (yerinizdə) durun. Mənim gözümə bir od sataşdı. Bəlkə, ondan sizə bir köz gətirdim, yaxud odun yanında bir bələdçi tapdım" (Taha-10).

Baxın, mə'sum peyğəmbərlər də məxluqdan yardım almışlar. Hətta, sonuncu Peyğəmbər(s) haqqında belə ayə gəlib: "Ya Peyğəmbər! Sənə Allah və sənin ardınca gedən mö'minlər bəs edər" (Ənfal-64).

İbn Teymiyyə bu ayəni belə tərcümə edib: "Ya Peyğəmbər! Sənə və sənin ardınca gedən mö'minlərə Allah bəs edər". Lakin bu təfsir həm ərəb qrammatikasına, həm də ayənin zahirinə ziddir. İsa (ə) da öz həvarilərindən kömək istəyərək, demişdir: "Allah yolunda kim mənim köməkçim olacaqdır?" (Ali-İmran-52).

Musa (ə) qardaşı Harundan (ə) kömək aldı, (Qəsəs-35) Lut (ə) dedi: "Kaş sizə çatan bir gücüm-qüvvətim olaydı, yaxud möhkəm bir arxaya söykənəydim" (Hud-80). Və ya "Allah Özünün iki təbliğçisini, üçüncüsü ilə gücləndirdi (Yasin-14)".

Başa düşmək olmur ki, bu qədər ayələri oxuyan vahabilər hansı haqla məxluqdan kömək diləməyi şirk hesab edirlər? Hətta, Allah o əzəmətdə qüdrətinə baxmayaraq, Öz bəndələrindən kömək istəyir: "Əgər Allaha yardım göstərsəniz, o da sizə yardım göstərər (Məhəmməd-7)". Yaxud buyurur: "(Mühacirlərə) sığınacaq verib kömək edənlər-məhz, onlar həqiqi mö'minlərdir" (Ənfal-74).

Vahabiyyətə meyilli bir hind alimi demişdir: "Həmd surəsinin 4-cü ayəsində Allaha xitabən deyilən: "Yalnız Sənə ibadət edir və yalnız Səndən imdad diləyirik"-ayəsinin mə'nası, yaranmışdan imdad diləməyin ziddinədir".

Cavab:-Əvvəla, ayədəki kömək istəmək, ibadət və düz yolu tapmaq üçündür. Çünki sonrakı ayədə deyilir: "Bizi doğru yola yönəlt". Sanki, belə deyir: "İlahi, mən ibadətimlə birgə Sənin hüzurundayam və Sənin köməyinlə onu başa çatdırmaq istəyirəm". İrad tuta bilərsiniz ki, ayənin mə'nası hər sahəni əhatə edir və belə başa düşülür: - İlahi, bütün işlərimdə Səndən imdad diləyirəm və Səndən başqa heç kimdən kömək istəmirəm. cavab budur ki: - Doğrudur, bu istək Allaha təvəkkül və təvəssül etməyin kamil mərhələsidir. Allah Qur'anın digər yerində buyurur: "Kim Allaha təvəkkül etsə, (Allah) ona kifayət edər (Talaq-3)".

Yaxud başqa yerdə Peyğəmbərinə buyurur ki, "əgər səndən üz döndərsələr, de ki, Allah mənim bəsimdir və Ona təvəkkül edirəm".

Lakin bu dərəcədə Allaha təvəkkül vacibdirmi? Mə'lumdur ki, vacib deyil. Bizim əqidəmiz budur ki, əsl idarə edən Allahdır, lakin Allah hər iş üçün səbəb yaratmışdır. Allah Öz Peyğəmbərinə buyurur: "Atdığın zaman, sən atmadın, Allah atdı" (Ənfal-17).

Şəriət də bu dərəcədə təvəkkülü vacib etməmişdir. Yoxsa, peyğəmbərlər müşrik olmalı idilər, çünki onlar da yaranmışlardan kömək istəyirdilər. Məgər Allah bu ayədə insanları müşrikliyəmi də'vət edir?- "Yaxşılıq və təqva üçün əlbir olun" (Maidə-2).

Fərz etsək ki, ayə istər diri, istərsə də ölü yaranmışdan yardım diləməyi haram sayır, yenə də Məhəmməd ibn Əbdülvəhhabın fikri ilə düz gəlmir. Çünki, o bizim adlı-sanlı fəqihimiz Şeyx Cə'fər /66/ Nəcəfinin fikirlərinə e'tiraz kimi yazdığı traktatında belə deyir: "Qiyamət günü camaat Adəm (ə), Nuh(ə), İbrahim(ə), Musa(ə) və İsadan(ə) kömək diləyir, lakin hamısı üzr istəyirlər. Nəhayət, sonuncu Peyğəmbərə (s) pənah gətirirlər". Və sonra yazır: "Bu o deməkdir ki, Allahdan qeyrisinə təvəssül etmək düzgündür və şirk deyil".

**/66/ Şeyx Cə'fər Kəbir "Kəşfül-Ğita" kitabını yazdığına görə, onu və nəslini "Kaşiful-Ğita" adlandırırlar. O, "ustad-kull" Vəhid Behbehani kimi tanınmış mərhum Ağa Məhəmməd Baqir İsfahaninin ləyaqətli və qabaqcıl şagirdi olmuşdur. Kaşiful-Ğita 12-ci h. ilinin əvvəllərində yaşamış ən böyük şiə müctəhidlərindən hesab olunur. O, 1228-ci hicri ilində Nəcəfül-Əşrəfdə vəfat edib.**

## Məhəmməd ibn Əbdülvəhhabın bir-birinə zidd fikirləri

O yazır: "Yardım etmək qüdrəti olan şəxsdən yardım diləmək, inkarolunmaz məsələdir. Misal üçün insan müharibədə və digər vəziyyətlərdə dostlarından kömək istəyə bilər. Lakin övliyaların qəbrindən yardım diləmək, fikrimizcə düzgün deyil. Yalnız, Allahın kömək etməyə qüdrəti vardır". Biz ondan soruşuruq: "Əgər söhbət qüdrətdən gedirsə, ölü ilə diri arasındakı fərq nədir? Yox, söhbət ümumiyyətlə Allahdan qeyrisindən kömək diləməyin şirk olduğundan gedirsə, dəlilin nədir? Qəribədir o, bir yerdə yazır: "Yaranmışdan nə isə istəmək və onu köməyə çağırmaq şirkdir". Digər yerdə isə belə deyir: "Ölüləri köməyə çağırmaq mə'nasız işdir". Soruşuruq: "Əgər bu iş mə'nasızdırsa, nə üçün deyirsən ki, şirkdir? Məgər hər mə'nasız iş şirkdirmi? O, Şeyx cə'fərin fikrini başa düşmədiyindən elə bilib ki, onun fikirlərini rədd edə bilmişdir. Məhəmməd ibn Əbdülvəhhab yazır: "Qiyamət günü peyğəmbərlərdən ona görə imdad dilənir ki, onlar dua etsinlər. Allah onların duasına görə, cənnət əhlinin Qiyamət narahatlığından xilas olması üçün camaatın haqq-hesabını tezləşdirsin". Biz onun bu fikrini əsas götürüb deyirik: "Deməli, peyğəmbərlər dua etsələr, duaları tez qəbul olar. Elə biz də bunu demirikmi?".

O, "Kəşfüş-şübəhat"da yazır: "Səhabələr Peyğəmbərin(s) sağlığında ondan kömək istəyirdilər. Lakin vəfatından sonra qəbrinin önündə durub, bir şey istəmirdilər. Hətta, keçmiş alimlər Peyğəmbərin(s) qəbri yanında nəinki o Həzrətdən, heç Allahdan da bir şey istəməyi düzgün hesab etmirdilər".

## Səhabələrin Peyğəmbərə(s) və onun müqəddəs qəbrinə təvəssül etməsi

Vahabilərdən başqa bütün İslam məzhəbləri, hətta səhabələr də Peyğəmbərə(s) həm diriliyində, həm də vəfatından sonra təvəssül etməyi düzgün hesab etmişlər. Əhməd Zeyni Dəhəlan, İbn Əbi Şeybə və Beyhəqi /67/ yazırlar: "Ömərin xilafəti zamanı qıtlıq düşdü. Bilal ibn Haris Peyğəmbərin (s) qəbrinin kənarına gəlib dedi: "Ya Rəsuləllah! Allahdan həlak olmaqda olan ümmətin üçün yağış istə. Peyğəmbər onun

yuxusuna gəlib buyurdu: “Yağış yağacaq”. Yuxu şər’i hökmü isbat etmir. Biz də yuxuya əsaslanmırıq. Dəlilimiz səhabələrdən olan Bilalın hərəkətidir. Onun Peyğəmbər (s) qəbrindən imdad diləməsi, bu işin şirk olmadığını sübuta yetirən möhkəm dəlildir.

Zeyni Dəhəlan “Xülasətül-Kəlam”da Təbərani /68/ və Beyhəqidən belə nəql edir:

“Osman xəlifə olarkən, bir nəfər dəfələrlə onun yanına bir iş üçün xahişə gəlmişdi. Lakin Osman onu qəbul etmək istəmirdi. Həmin şəxs Osman /69/ ibn Hüneyf xəlifədən şikayət etdi. Osman ibn Hüneyf dedi: “Get dəstəmaz al, sonra gəl məscidə namaz qıl və de:-İlahi, Sənin rəhmət Peyğəmbərini(s) vasitə edib, Sənə üz tuturam. Ya Mühəmməd (s)! Mən arzumun yerinə yetməsi üçün sənin vasitənlə Allaha üz tuturam. Sonra diləyini istə! Kişi gedib elə də etdi və sonra gəlib Osmanın qapısını döydü. Xidmətçi onun əlindən yapışıb, Osmanın yanına apardı. Osman xahişini eşidib nə istəyirdisə, onun üçün etdi”.

Elə həmin kitabda Beyhəqinin “Dəlailun-nübuvvə” əsərinə əsasən yazır: “(Hafiz /70/ Zeyni Dəhəlan yazır: - “Dəlailun-nübuvvə” başdan-başa hidayət və nurdur. Sizə ona üz tutmağı məsləhət görürəm).

“Ömər Xəttab dedi:-Peyğəmbər(s) buyurub: - Adəm (ə) səhv edərkən dedi:-İlahi, Məhəmmədin (s) haqqına, məni bağışla!”.

Əhməd /71/ Zeyni Dəhəlan yazır: “Həkim Nişaburi bu hədisi qeyd etmiş və Təbərani də bunu səhih hədis saymışdır”.

Tarixçilər yazırlar: “Abbasi xəlifəsi Mənsur Həcdə olarkən, Mədinədə Peyğəmbərin(s) qəbrini ziyarətə getdi. Peyğəmbər(s) məscidində olan Malik /72/ ibn Ənəsdən soruşdu:-Üzü qibləyə dayanıb dua edim, yoxsa üzü Peyğəmbərə? Malik dedi:- Üzünü Peyğəmbərdən(s) çevirmə. O Həzrət sənin və atan Adəmin (ə) Allaha dua etmək üçün vasitəsidir. Üzünü Peyğəmbərə(s) tərəf çevir, onu özünlə Allah arasında şəfaətçi et ki, Allah yanında sənin üçün şəfaət etsin. Allah-təala da buyurub: “Onlar özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib, Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər(s) də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən, mərhəmətli olduğunu bilərdilər” (Nisa-64).

Əhməd Zeyni Dəhəlan “Xülasətül-Kəlam”da Səmhudidən /73/ nəql edir: “Darəmi /74/ “Səhih”də Əbül cövzədən belə nəql edir: “Şiddətli quraqlıqla üzləşmiş Mədinə əhalisi Aişəyə şikayət etdi. Aişə dedi:-Tavansız bir yerdən Peyğəmbərin(s) qəbrinə üz tutub, onu vasitə edərək dua edin. Onlar belə də etdilər və elə yağış yağdı ki, otlar cücərməyə başladı”.

Mə’lum oldu ki, vahabilərin dediklərinin ziddinə olaraq, müqəddəs şəxsləri həm dirilikdə, həm də onlar vəfat etdikdən sonra şəfaətçi qərar vermək, hətta peyğəmbərlərin də əxlaqındandır. Vahabilərin-“Ölülərin şəfaətçi olmağa qüdrətləri yoxdur və ölülərdən yardım istəmək, şəriət baxımından haramdır”-deməsi, heç bir şər’i mənbəyə əsaslanmadan hökm verməkdən ibarətdir. Bizim kifayət qədər hədisimiz var. Məsələn, qəbirlərin ziyarəti haqqında hədislər, onlara salam vermək, təvəssül etmək haqqında və s. Meyidin dəfnindən sonra ona etdiyimiz təlqində deyirik: -Ey Allah bəndəsi! Sən bizdən ayrılarkən bağlı olduğun əhdə sadiqsənmi? Yə’ni, Allahdan başqa Allah olmadığına və Məhəmmədin(s) Onun qulu və Rəsulu olduğuna verdiyin şəhadətdən qaçmırsankı?

Öncə, Buxarinin “Səhih”indən və digər mö’təbər sünni kitablarından sitat gətirdik ki, Peyğəmbər(s) Bədr müharibəsindən sonra Bədr quyularına tökülmüş kafir cəsədlərinə üz tutub onlara demişdi:-Öz əməlinizin cəzasını gördünüzmü? Sonra da buyurub: Onlar eşidirlər, lakin cavab verə bilmirlər. Bir halda ki, Qüreyş kafirləri öləndən sonra dirilərin səsini eşidir, bəs necə ola bilər, bütün bəndələrin səsini eşidən, onların salamını alan bir şəxs haqqında deyilsin:-Peyğəmbər(s) öləndən sonra nə səs eşidir, nə də cavab verə bilir?! Xeyr, onların qəbrinin yanında durmaq da olar, onlardan hacət istəmək də. Bu, şirk deyil. Lakin vahabilər bunu şirk adlandırırlar. Çünki, nadan adamları yoldan çıxardaraq, təvəssül və şəfaət kimi böyük ne’mətdən istifadə etməyə qoymurlar. İstəmirlər ki, müsəlmanlar Peyğəmbərin(s) bərəkətindən savaba nail olub, günahlarını bağışladaraq dünya və axirət əzabından xilas olsunlar. Vahabilərdən soruşmaq lazımdır, nə üçün sələfləriniz Peyğəmbərin(s) qəbri kənarında razü-niyazı düzgün hesab etməmişlər? Axı ora, ibadət üçün ən yaxşı yerlərdən biridir; Peyğəmbərin(s) oturub-durduğu yerdir, vəhyin endiyi, mələklərin get-gəl etdiyi yerdir? Mə’lumdur ki, belə bir məkanda ibadətin fəziləti daha da çox olar. Bütün məzhəblərin alimləri Həcc ziyarəti bölməsində yazmışlar ki, Peyğəmbəri(s) ziyarət etmək üçün onun məzarı önündə Allahdan hacət və günahların bağışlanmasını istəmək, Nisa surəsinin 64-cü ayəsini oxumaq müstəhəbdir.

Axı, hansı əsasla deyirsiniz ki: -“Ya Rəsuləllah, səndən şəfaət istəyirəm”-demək olmaz? Əgər tutarlı dəlilinizin olmadığını e’tiraf edib, öz düşüncənizlə cavab versəniz, onda biz deyərik:-Qur’an da, sünnə də Peyğəmbərə(s) və onun Əhli-beytinə(ə), hətta Abbasa da təvəssül etməyi düzgün hesab edir. Əgər onlar İbn Teymiyyənin “Furqan” kitabında yazdığı kimi, Allahdan başqasından kömək istəməyin haram olduğunu desələr, o zaman bilməlidirlər ki, bu haramlıq, təkcə ölüdən deyil, diridən də istəyəndə haram və şirk olmalıdır. Çünki bütün işlər, qüdrətlər və imkanlar Allahındır. Peyğəmbəri(s) çağırmaq, onun vasitəsilə Allahı köməyə çağırmaq deməkdir. Vahabilər belə deyə bilərlər: “-İslam dini yalnız Allahı köməyə çağırmağa icazə verir”. cavab: “Məhəmməd ibn Əbdülvəhhab Peyğəmbər(s) sağ ikən ondan kömək istəməyin düzgün

olduğunu e'tiraf edir. İslam dini isə Allahdan başqa heç kimə ibadət etməyə icazə vermir, deməli, Məhəmməd ibn Əbdülvəhhab bu iki halətdən birini qəbul etməyə məhkumdur:

1.Peyğəmbəri(s) çağırmaq, elə Allahı çağırmaq deməkdir.

2.Yaranmışı köməyə çağırmaq, o yaranmışa ibadət etmək demək deyil. Çünki ibadət o hala deyilir ki, insan tərəf müqabilinə Allah hesab etsin və zəlilcəsinə onun qarşısında özünü aciz hiss etsin. Lakin Peyğəmbərə(s) və övliyalara təvəssül etmək insana arxayınlıq, rahatlıq bəxş edir və bir daha o böyük şəxsiyyətlərin Allah yanındakı ehtiramlarını dərk edir. Əgər insan hal əhli olsa, təvəssüllə dünya və axirət qəm-qüssəsini qəlbindən təmizləyə bilər.

Vahabilər deyirlər:-Dua, ibadətin məğzidir. İbadət isə yalnız Allaha layiqdir. Deməli, Allahdan qeyrisinə ibadət deməkdir və bu da şirkdir.

cavab:-Əvvəla, duanın nəinki ibadətin məğzi, heç bütün duaların ibadət olmasını da qəbul etmirik. Dua "də'vət" sözündən alınıb, "çağırmaq" deməkdir. Aşağıdakı ayələrə diqqət yetirin:

1."Gəlin biz də oğlanlarımızı, siz də öz oğlanlarınızı "çağıraq" (Ali-İmran-61).

2."...sonra (quşları) "çağır" (Bəqərə-260).

3."Peyğəmbəri "çağırmağ"ı, öz aranızda bir-birinizi "çağırmağ"ınızla eyni tutmayın" (Nur-63).

4."Ey iman gətirənlər! Peyğəmbər sizi, sizi dirildəcək bir şeyə "çağırdığı" zaman, Allahın və Onun Peyğəmbərinin "çağırışını" qəbul edin (Ənfal-24)".

Bu ayələrdə "çağırmaq" sözü, "dua" kəlməsindən istifadə olunaraq işlənmişdir. Hər söz "çağırış" olmadığı kimi, hər dua da ibadət deyil. Hətta, Allahı çağırmaq, sırf o Müqəddəs Zata müraciət məqsədilə olsa, ibadət deyil. Dua o zaman ibadət sayılır ki, ibadətin xüsusiyyətlərini, zəlilliyi, xüzu-xüşu'nu, Allahın vəhdaniyyətini iqrar etməyi və .s-ni özündə cəmləşdirsin. Bu mə'na, Allahın izni ilə şəfaət etmək ixtiyarına malik övliyaları çağırarkən edilən duada yoxdur.

Vahabilər deyirlər:-Yaranmışın duası ibadətdir. Çünki, İlahi dərgahda xüzu və təvazökarlığa şamil olur.

cavab: -Əvvəla, doğrudan da belədirsə, onda diridən də nəsə istəmək, şirk və qeyrisinə ibadət deməkdir.

İkincisi, biz ənbiya və övliyadan nəsə istəməyi ibadət hesab etmirik. Bu fikir İsa (ə) və Musaya (ə) ibadət edənlər kimi ifratçıların fikridir.

Üçüncüsü, təvazökarlığın və acizanə halətin bütün növləri ibadət xarakteri daşımır. Məsələn, Allah övladın təvazökarlıqla valideyn qarşısında qulluğa hazır vəziyyətdə dayanmasını əmr etmiş və buyurmuşdur: "Onların qarşısında təvazökarlıqla qol-qanadını aşağı sal..." (İsra-24).

İsra surəsinin 24-cü ayəsində deyilir: "Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılığı buyurmuşdur".

Fəxr Razi bu ayənin təfsirində yazır: "Allah valideynə çox böyük dərəcə vermiş, Özünün tək tanınması və ibadət olunması kimi böyük vəzifədən sonra, valideynə tabe olmağı insanlara əmr etmişdir".

"Kəşfüş-şübəhat"-da yazır: "Əgər gecə-gündüz qorxu və ümidlə Allahı çağırasan və həmin istəyin üçün bir peyğəmbəri, yaxud övliyanı da çağırasan, Allahın ibadətinə məxluqunu da şərik etmiş olursan, çünki Allahdan qeyrisindən də nəsə gözləmisən".

cavab:-Əgər o, ibadət dedikdə, əmrə tabeçiliyi və itaəti nəzərdə tutursa, onda gərək, qulun ağaya, arvadın ərə tabe olması şirk sayılsın?! Çünki onlara vacibdir ki, ağanın və ya ərin əmrinə tabe olsunlar. İslamda qulun ağaya itaətindən böyük itaət varmı? Hətta, Allah qulun bütün ixtiyarını əlindən alır: "Qul, başqasının malı olan və heç nəyə qadir olmayandır" (Nəhl-75).

İndi nə deyirsiniz, Allah qulun ağaya itaətini əmr etməklə, Özü üçün şərik qoşmağamı şərait yaratmışdır?!

Əgər ibadət dedikdə, əmrə tabeçiliyi və itaəti nəzərdə tutursa, Məhəmməd ibn Əbdülvəhhabdan soruşuruq:-Allahdan başqasına tabe olub, əmrinə itaət etmək düzgündürmü? Əgər "yox" desə, Allahın bu ayəsinə zidd söz demiş olur. "Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar sahiblərinə itaət edin" (Nisa-59). Əgər desə "bəli", o zaman Allahın yaratdığına pərəstiş etmiş və Allahın ona qadağan etdiyi işi əmələ gətirmiş olur.

Əgər, vahabilər Peyğəmbərin(s) və ixtiyar sahiblərinin itaəti, Allahın itaətindən ayrı deyil-desələr, cavabında söyləyirik: "Nə üçün? Bunu Allah buyurub, yoxsa məxluq? Söyləsələr ki, məxluq deyib, o zaman saleh insanlara pərəstişi qəbul etmiş olursan. Əgər desələr ki, Allah buyurub, o zaman bildirərik:

“Peyğəmbərlərin Allaha çatmaq üçün vasitə və şəfaətçi olması da, Allahın əmri ilədir. Bütün bunlara əsasən, ənbiya və övliyaya təvəssül və onlardan şəfaət istəmək, Allahdan istək diləmək üçün Allahdan qüvvə əxz etmək və bunu Allah dərgahına yaxın olan şəxsin vasitəsilə etməkdən ibarətdir.

**/67/ - Hafiz Əbu Bəkr Əhməd ibn Hüseyn ibn Əli Beyhəqi Xosrovcərdi Şafei, məşhur sünni fəqihi və hədisçisi olmuşdur. İmaməddin Təbəri “Kamili-Bəhai” kitabında yazır: “Müaviyə Əli (ə) ilə döyüşərkən imandan xaric oldu”-deyən bir alimin cavabında Beyhəqi demişdir: “Müaviyə imana daxil olmamışdı ki, ondan xaric də olsun. Peyğəmbər zamanında küfrdən xaric olub münafiqliyə daxil oldu. Peyğəmbərdən sonra isə yenə əvvəlki küfrə qayıtdı”. Beyhəqi “Sünəni-Kəbir”, “Sünəni-Səğir” və “Dəlailün-nübuvvə” kitablarının müəllifidir. O, 458-ci ildə Nişaburda vəfat etmiş, Beyhəqdə dəfn olunmuşdur.**

**/68/ - Əbülqasim Süleyman ibn Əhməd ibn Əyyub Təbərani Fələstinin Təbəriyyə əhalisindəndir. “Mö’cəmi-Səğir” kitabının müəllifidir. Sünnilərin böyük hədis hafizlərindəndir. 360-cı h. ilində İsfahan şəhərində vəfat edib.**

**/69/ - Osman ibn Hüneyf, Həzrət Əlinin (ə) səmimi dostu və Bəsrədəki nümayəndəsi olub.**

**/70/ - Hafiz Məhəmməd ibn Əhməd ibn Osman Zəhəbi “Tarixi-İslam”, “Mizanül-E’tidal” və “Təbəqatül-hüffaz” kitablarının müəllifi və məşhur tarixçi olmuşdur. Alicənab Mühəddis Hacı Şeyx Abbas Qumi “Hidayətül-Əhbab” kitabında yazır: “Zəhəbi Əbubəkr və Ömərin təəssübünü ən çox çəkənlərdəndir. Allah onu onlarla məhşur eləsin”.**

**/71/ - Əhməd Zeyni Dəhəlan “Futuhatul-İslamiyyə (c.2)”, “Sirətün-nəbəviyyə”, “Xülasətül-kəlamfi-umərail-bələdil-həram“ və “Vahabilərə e’tiraz” kitablarının müəllifi olmuşdur. Məkkənin böyük fəqih, tarixçi və ustadı olmuş Dəhəlan 1304-cü h. ilində Mədinədə vəfat edib.**

**/72/ - Malik ibn Ənəs, maliki məzhəbinin imamıdır. Onun yazdığı “Müvətə” kitabı, ən qədim sünnü fiqhi kitablarındandır. Malik öz dövrünün məşhur fəqihlərindən olub. 179-cu h. ilində Mədinədə vəfat edib.**

**/73/ - Nuruddin Əli ibn Abdullah Hüseyni, Şafei Misri Səmhudi ləqəbi ilə tanınmış tarixçi və mühəddis olmuşdur. Mədinə tarixinə aid “Vəfaul-Vəfa” kitabı onundur. Mədinədə yaşamış, 911-ci h. ilində vəfat etmişdir.**

**/74/ - Abdullah ibn Əbdürrəhman ibn Fəzl ibn Bəhram (və ya Mehran) Səmərqəndi Darəmi ləqəbi ilə tanınmış məşhur sünni alimlərindən və hədis elminin qabaqcıllarından biri olmuşdur. “Sihah” müəlliflərindən Termizi və Müslimin, habelə, Əbu Davud Sistaninin şeyxlərindəndir. “Sünəni-Darəmi” adı ilə məşhur olan “Sünəni-nəbəviyyə” kitabının müəllifidir. Müəllif isə səhvən onu “Səhih” kitabının müəllifi adlandırmışdır. O, 255-ci h. ilində vəfat edib.**

## 3-PEYĞƏMBƏR VƏ ÖVLİYALARIN QƏBRLƏRİNİ İNŞA ETMƏK ŞİRK DEYİL

### Peyğəmbərlər və övliyaların qəbirlərini inşa etmək şirkdirmi?

Vahabilər belə deyirlər: “Qəbirləri inşa etmək, onların üzərində məqbərə ucaltmaq, zərih tikmək, hamısı şirkdir, onların amili də şirkdir”.

Amma 12 İmam şiələri isə deyirlər: “Peyğəmbərlərin, övliyaların dəfn olunduğu yerdə məqbərə düzəltmək, onları xarab olmaqdan qorumaq, bəyənilmiş və caiz əməldir. Eyni zamanda da, müqəddəs İslam dininin uca və əziz tutulmasına səbəb olur. İbn Teymiyyə və onun vahabi ardıcılları öz iddialarını sübuta yetirmək üçün bir çox dəlillər gətirmişlər.

Birincisi-Onlar Əbülhiyac Əsədinin hədisinə istinad edirlər. Hədisin mətni əvvəlki səhifələrdə qeyd olunmuşdur.

İkincisi-Qur’anda məqbərə və ziyarətgah tikməyə deyil, məscid tikməyə əmr edilmişdir. Allah buyurmuşdur: “Üzünüzü hər bir məscidə tərəf tutun”. Daha buyurmamışdır ki, “hər bir məqbərə və ziyarətgah müqabilində durun...”

Belə ki, deyirlər: “Rafizilər (yə’ni, şiələr) Allahın dinini dəyişmişlər, məqbərə və ziyarətgahlar tikir, onları tə’mir edir, məscidləri isə tə’til edirlər. Bu işləri müşriklərlə həmkarlıq və mö’minlərlə müxalifət kimi qələmə verdilər.

Üçüncüsü-Peyğəmbər (s) məscid düzəltməyi öz ümməti üçün halal buyurdu, lakin heç bir peyğəmbərin və onun ailəsindən olan ləyaqətli bir şəxsin qəbri üzərində məscid yaxud məqbərə düzəltməyə icazə verməmişdir.

Birinci iradın cavabı: “İbn Teymiyyə demişdir ki, şiələr məscidləri tə’til edib, boş qoyur”. Bu fikir tamamilə yalan və böhtandır. Çünki şiələr məscid düzəltməyi, ziyarətgahlardan daha çox orada ibadət edib namaz qılmağı özlərinə vacib bilirlər.

Bəli, şiələrin nəzərində bə’i ziyarətgah və məqbərələr digərləri ilə müqayisədə, iki cəhətə görə üstünlüyə və fəzilətə malikdir: biri məscid olmaq baxımından, digəri isə onların məşhur olması baxımından. Məsələn, Peyğəmbərin (s) hərəmi (həm Allahın, həm də Onun Rəsulunun hərəmidir), Əlinin (ə) şəhid olduğu yer, İmam Hüseynin (ə) hərəmi. Bunların hamısı məscid, Allaha ibadət və həqiqəti yad etmək məkanıdır. Şübhəsiz ki, hərəmlərin və müqəddəs məkanların fəzilət baxımından bir-birilə fərqləri vardır.

Qeyd olunan hərəm və ziyarətgahların daha çox fəzilətə malik olduğuna nəzər salarkən görürük ki, şiələr bütün müsəlmanlar kimi bu məkanlarda toplaşıb ibadət və ziyarət edirlər. Göründüyü kimi, şiə məscidləri həmişə namaz qılanlarla doludur. Bütün şəhərlərimiz də belədir. Onlar məscidlər tikir, onları tə’mir edir və qoruyurlar. Bundan əlavə, hər bir müqəddəs məkanı və məzhəbi şüar sayılan hər yeri din və Allahın dinini böyük və uca tutmaq adı ilə qoruyub saxlayır. Onlar belə yerləri o evlərdən hesab edirlər ki, Allah-təala onların qalmasını və adının orada yad olunmasını istəmişdir. Nur surəsi, 36-cı ayə: “Allahın tikilib ucalmasına və Öz adının zikr edilməsinə izn verdiyi o evlərdir ki, (o məscidlərdir ki, orada səhər-axşam Onu təsdiq edib, şə’ninə tə’riflər deyərlər”.

İkinci iradın cavabı: Əbül Hiyacın hədisi, qəbiri hamar etməkdən məqsədin dəfn olunan yerin torpağın üzü ilə bərabər olması və qəbrin üzərində heç bir yüksəkliyin (qəbrin üstünün qalxmasının) olmamasına dəlalət etmir. Əksinə, qəbrin üstünü yerlə bərabər etmək hədisində “təsviyə-düzəltmək” kəlməsi ayədəki “təsviyə” kəlməsi ilə eyni mə’nadadır. Ayənin tərcüməsi belədir: “Adəmi kamil şəkildə düzəldib ona surət verdikdən sonra öz ruhumdan üflədim...” (Hicr surəsi, 29).

Həmçinin, bu ayə də həmin mə’nadadır: “Göylərin (qübbəsini) ucaltdı və düzəldib nizama saldı”. /75/ Qeyd olunan iki ayədə “təsviyə”-düzəltmək kəlməsindən məqsəd, asimanı ucaldıb bəşəri xəlq etməkdə mö’tədilliyə riayət etməkdir. Belə ki, Allah-təala bu ayədə buyurur: “O Rəbbin ki, səni (yoxdan) yaratdı, düzəldib qaydaya (insan şəklinə) saldı. /76/”

Qeyd olunan rəvayətdə qəbiri düzəltmək barədə olan ən yaxın və aşkar ehtimal budur ki, qəbirin üstü yerlə bərabər olmalıdır. Bu da aşağıdakı cəhətlərə görədir: Birincisi, rəvayətdə onun üçün bərabər (və müadil) mə’na deyilməmişdir.

İkincisi, qəbirin hündürdə olduğu halda, onun hündürlüyünün alınması şərtləndirilmişdir.

Buna əsasən, əgər biz “təsviyəni”-düzəltməyi-hamarlaşdırma mə’nasında anlasaq, bu şərt mə’nasız olacaqdır. Belə nəticə alırıq ki, rəvayət qəbirin üstünü hamar etməyin, onun üstünü qaldırmaqdan daha yaxşı olmasına dəlalət edir.

Təəccüblü burasıdır ki, İbn Teymiyyə Əbülhiyacın-“Qəbiri inşa etmək olmaz, bu müşriklərin işidir”-hədisinə istinad etmişdir.

Halbuki, o, Əllamə Hillinin: “Qəbirin yer səthindən azacıq hündürdə hamar şəkildə düzəldilməsi şəriətə uyğundur. Sünnilərin bu işdən çəkinərək qəbirləri ucaltmasının səbəbi isə, qəbirləri hamar şəkildə inşa edən şiələrlə müxalifət etməsindən irəli gəlir”-fikrinə münasibətini bildirərək yazır: “Hənəfi və hənbəli məzhəblərinə əsasən qəbirin ucaldılması, onun yer səthindən azacıq hündürdə hamar şəkildə inşa edilməsindən daha yaxşıdır. Necə ki, səhih rəvayətdə Peyğəmbərin (s) qəbrinin uca şəkildə inşa edildiyi göstərilir”. Şafei qəbirin üstünü hamar etməyi müstəhəb bilir. Çünki o, rəvayətdə qəbirləri düzəltməyə (təsviyə etməyə) əmr olunduğunu görmüşdür. Onun nəzərində “təsviyə”-düzəltmək-hamarlaşdırmaq mə’nasındadır. Bizim alimlərdən bə’ziləri demişdir: “Qəbirləri hamar etmək (üstünü yerə bərabər etmək) rafizilərin şüarıdır. Buna əsasən qəbirlərin üstünü yerlə bərabər etmək məkruhdur (bəyənilmir). Amma digər alimlərin hamısı bu dəstə ilə müxalif olub deyirlər: “Qəbirlərin üstünü hamar etmək müstəhəbdir. Baxmayaraq ki, bu iş rafizilərin əməllərindəndir!”.

Görürsünüzmü, İbn Teymiyyənin öncə inkar etdiyi şeyləri necə e’tiraf etdi? O, bütün əhli-sünnət alimlərinin qəbul etdiyi və səhih, mö’təbər hədislərdə qeyd olunan məsələləri qəbul etmişdir. Belə ki, “Səhih-Buxari”də deyilir: “Qəbir üstünə bir şey (baş daşı, məqbərə, abidə) qoymaq və onu yerin üzərindən hamar şəkildə qaldırmağın üstünlüyü vardır. İbn Teymiyyə də nəhayət, Əbülhiyacın rəvayətini Şafeiyə təbəiyyət edərək, “hamar etməyə” aid edibdir. Lakin bundan öncə həmin rəvayəti qəbirin üstündə tikili və baş daşlarını

məhv etməyə aid etmişdi. Şareh Nəsai isə heç bir üstünlük demədən yuxarıdakı rəvayəti bu iki ehtimaldan birinə aid etmişdir: “Bütün qəbir üstə olanları məhv etmək və ya qəbiri hamar etmək”.

Amma ikinci ehtimal-“Peyğəmbərin (s) qəbri yerlə bərabər deyildi, əksinə, hamar şəkildə, yerdən bir az hündür idi”-deyə, bu səhih hədislə birgə, Şafei və başqalarının dediklərini təsdiqləyir. Bundan əlavə, hədisdə deyilib ki, Peyğəmbər (s) oğlu İbrahimin qəbrini hamar şəkildə yerdən bir az hündür düzəltdi”. Həmçinin, hədis kitablarında belə qeyd edilmişdir: “Əbubəkrin qəbrini Peyğəmbərin (s) qəbri kimi yerdən bir az hündürdə hamar edib, onun üzərinə su səpdilər. Aişə də qəbirin üstündə nalə-şivən edib ağladı”.

Buna əsasən, İbn Teymiyyə məcbur olub bu iki versiyadan birini qəbul etməlidir: Ya-“qəbirin üstünü hamar şəkildə yerdən bir az qaldırmaq”-məsələsində şiə ilə eyni əqidəyə malik olan sünni alimlərinin hamısının müşrik olmasına hökm versin, yaxud Əbülhiyacın-“qəbirin üstündə olan şeyləri məhv etmək”-barədə söylədiyi hədisdən tam şəkildə əl çəkməlidir. Çünki bu hədisi təkcə Əbülhiyac nəql etmiş və başqaları bu məzmunda bir hədis söyləməmişlər. Belə ki, Şareh Nəsai bu hədisi Süyutiyə /77/ nisbət vermişdir. Yaxud, Əbülhiyacın hədisi aşağıdakı iki mə’nadan birinə aid edilməlidir:

1)“Qəbirin yerin üzü ilə bərabər olmasında” məqsəd, “qəbiri bərabər və hamar şəkildə yerdən bir az qaldırmaqdır və ya əgər hündür olarsa, onu aradan götürmək lazımdır. Rəvayətin də bu mövzuya təsrih etməsi buna sübutdur.

2) “Yerlə bərabər olmağı” onun müstəhəb olmasına, müşriklərin qəbirlərini xarab edib, onları açmağın vacibliyinə aid etmək lazımdır. Belə ki, “Səhih-Buxari”, Nəsai və İbn Macənin “Sünən”ində bir fəsli bu mövzuya həsr edərək deyirlər: “Peyğəmbər (s) Mədinəyə daxil olduqda, müşriklərin qəbirlərini dağıdıb yerində məscid tikilməsinə göstəriş verdi”.

“Təsviyə” (düzəltmək) kəlməsinin “təms” (təsvir və əsərləri məhv etmək) kəlməsi ilə bir-birinə yaxın olması göstərir ki, rəvayətdə qeyd edilmiş: “qəbirlərin yerlə bərabər olması”-cümləsindən məqsəd müsəlmanların deyil, müşriklərin qəbirləridir. Çünki qəbirlərdə şəkil çəkmək onların üzərində heykəl qoymaq müşriklərin adətlərindən idi. Belə ki, “Səhih-Buxari”də Aişədən nəql olunur: “Ümm Həbibə və Ümm Sələmə (hər ikisi Peyğəmbərin (s) həyat yoldaşı olmuşlar) Efiopiyada içərisində şəkillər asılmış bir kilsə gördüklərini Peyğəmbərə (s) xəbər verdikdə, Həzrət buyurdu: “Onların ləyaqətli və hörmətli bir şəxsləri öldükdə onun qəbiri üzərində mə’bəd tikərək içərisində təsvir və şəkillər asırlar. Bunlar Qiyamət günündə Allah-təalanın yanında ən pis camaat olacaq”. Buxari bu hədisi “Cahiliyyət müşriklərinin qəbirlərini açmaq” fəslində də qeyd etmişdir.

Müslim, Termizi və bir çoxları belə nəql etmişlər: “Həzrət Rəsul (s) qəbirlər üzərində məqbərələr tikməyi, onlara yazılar həkk etməyi və ornament, mozaika kimi şeylərlə zinətləndirməyi qadağan etmişdir”. Yuxarıda qeyd olunanlara əsasən, Peyğəmbərin (s) sünnəsindən qəbir barədə bizə bundan başqa hədis çatmamışdır.

Bu hədis barədə də deyirik: birincisi, nəhy və qadağa həm harama, həm də məkruha aiddir. Xüsusilə, hədislərdə qeyd olunan nəhy və qadağa.

İkincisi, müsəlmanlar hədisdə qeyd olunan üç nümunəyə (ornamentlə bəzəmə, məqbərə tikmək və qəbirin üzərinə yazı yazmaq) əməl etməmişlər.

Sendi adı ilə məşhur olan Məhəmməd ibn Əbdülhadi Hənəfi deyir: “Həkim Nişaburi bu hədisi özünün “Müstədrək” kitabından nəql etdikdən sonra demişdir: “Bu hədisin sənədlərinin düzgün olmasına baxmayaraq, ona əməl edilməmişdir. Çünki bütün müsəlmanlar (istər Şərqdə olsun, istər Qərbdə) qəbirlərinin üzərinə bir şey yazırlar. Bu əməli sonrakılar öncəkilərdən öyrənmişlər.

Mən də deyirəm: “Qəbirin üzərində məqbərə tikmək də yazı yazmaq kimidir. Çünki, öncəkilərdən əlavə, bütün xalq din böyüklərinin qəbirlərinin üzərində məqbərə tikməyi onları məhv olmaqdan qorumaq naminə lazım bilir, həmçinin, onları qorumağı din üçün bir şüar hesab edirlər. Buna əsasən, ehtimal ilə verilən tək bir xəbər, müsəlmanlar yekdil olduğu qəti xəbərə qarşı çıxa bilməz. Bütün bunları Həzrət Mühəmməd (s) və ondan öncəki peyğəmbərlərin əməllərinə artırın. Çünki, Rəsuli-Əkrəm (s) “hicri İsmailin” dağıdılmasına deyil, onun qalmasına əmr verdi. Bununla belə, həmin məkan İsmail və anası Hacərin dəfn olunduğu yer idi. Həmçinin, Peyğəmbərin (s) özü və o Həzrətdən (s) sonrakı xəlifələr İbrahim Peyğəmbərin (ə) oğlunun qəbrini və Beytül-müqəddəsdə dəfn olunmuş digər peyğəmbərlərin qəbirlərinə toxunmayıb, öz vəziyyətində saxladılar.

Peyğəmbər (s), Əbubəkr və Ömər dəfn olunan otaq da peyğəmbər və mürsəllərin qəbirləri kimidir. Buna əsaslanaraq, mö’minlərin də qəbirlərini tikib üzərində məqbərə ucaltmaq olar.

Səhabələr Peyğəmbərin (s) olduğu otağa dəyməyiblər. O, hətta onu tə’mir etməsi bu, qəbir üzərində məqbərə tikməyə, baş daşı qoymağın caizliyinə aşkar sübutdur.

**/75/ - Naziat, 28.**

**/76/ - İnfitar, 7.**

**/77/ - Cəlaluddin Əbdürrəhman ibn Əbu Bəkr Süyuti Şafei onların ən böyük və adlı-sanlı alimlərindən biridir. O, aşağıdakı kitabların müəllifidir: "Tarixül-Xüləfa", "Təzkirətül-hüffaz", "Bəğiyyətul-vuat", "Əl-Behcətul-Mərziyyə" (ərəb qrammatikasına dair), "Dürrülmənşur" təfsiri, "Camei-Kəbir" və "Camei-Səğir" (hədislər barədə) və fiqh, hədis, Qur'an təfsiri və s. elmlər barədə yazdığı bir çox kitablar, Süyuti 910-cu hicri-qəməri ilində vəfat etmişdir. Usyut və Süyut Misirin şəhərlərindəndir.**

## İrad

Mümkündür ki, belə desinlər: Təkcə qəbrin üzərində gümbəz tikmək yox, habelə, gümbəzin altında məqbərə tikib ölünü orada dəfn etmək də haramdır".

## Cavab

Birincisi, qəbiri inşa etməyin haram olması və Peyğəmbərin (s) bu əməli qadağan etməsi, ehram bağlayan şəxsin hərəkət halında başı üzərinə kölgə tutmasının haramlığı və Həzrətin (s) bu əməli qadağan etməsi kimidir. Necə ki, ehram bağlayan şəxsin kölgəli yerdə dayanması haramdır. İstər ehram bağlandıqdan sonra kölgədə dayansın, istərsə də kölgəli yerdə ehram bağlayıb öz yerində dursun. Eləcə də qəbir üzərində tikili inşa etmək istər əvvəlcədən olsun, istərsə də sonradan hər iki halda haramlığı da onun kimidir.

İkincisi, qəbirləri inşa etmək, əgər Məhəmməd ibn Əbdülvəhhab və İbn Teymiyyənin dediklərinə görə cahiliyyət zamanın bütləri hökmündədirsə, onda qəbiri dəfndən öncə inşa etməklə, dəfndən sonra inşa etmək eyni hökmə malikdir. Buna əsasən, Peyğəmbərin (s), Əbubəkr və Ömərin o Həzrətin otağında dəfn olunması sonradan və öncədən qəbiri inşa etməyin caizliyinə sübutdur. Üstəlik, bu da aydın olur ki, Peyğəmbəri (s) özümüzə örnək tutmaq, bəyənilmiş bir işdir. Buna əsasən icazə verilir ki, biz Peyğəmbərin (s) dostlarının və o Həzrətin övladlarının qəbirlərini inşa edək. Çünki hər ikisinin səbəbi və ölçüsü eynidir. Müsəlmanların hamısı bunların arasında fərq olmasına e'tiqad bəsləyirlər.

İbn Teymiyyə nəyə istinadən deyir ki: "Peyğəmbər (s) qəbir inşa etməyi öz ümmətinə icazə verməmiş və halal buyurmamışdır. Peyğəmbərin (s) qəbri ilə sair mö'minlərin qəbirləri arasında fərq qoymamışdır?". Lakin, dedik ki, qəbiri inşa etməyə icazə verilir və Peyğəmbər (s) özü üçün qəbir inşa edilməsini şəriətə uyğun saymışdı. Çünki Həzrət vəsiyyət edib ki, onu vəfat etdiyi otaqda dəfn etsinlər. Aydın olur ki, hökmün əsası bir şeydir və Peyğəmbərin (s) qəbrinin və mö'minlərin qəbirlərinin inşa edilməsinin səbəbi də müştərəkdir.

Üçüncüsü, Qur'anda xüsusi şəkildə Peyğəmbərin (s) mübarək məzarı üzərində məqbərə tikilməsi haqda aşkar bir şey söylənilməməsinə baxmayaraq, ümumi şəkildə aşağıdakı ayələrdə bu məsələyə toxunulmuşdur:

a) "(Ey insanlar! Sizə əmr etdiyim) Budur və hər kəs Allahın mərasiminə, nişanələrinə (qurbanlıq və Həcc mərasiminə və s.) hörmət qoysa, bu (hörmət) şübhəsiz ki, onların qəlblərinin təqvasındandır (Həcc, 32)".

b) "Və hər kəs haram buyurduqlarına hörmət (riayət etsə, bu, Rəbbi yanında onun üçün xeyirli olar (Həcc, 30)".

c) "Ey iman gətirənlər! Allahın nişanələrinə (müəyyən etdiyi mərasimlər, Həcc mərasiminə) hörmətsizlik etməyin...! (Maidə, 2)".

Peyğəmbərlərin və müsəlmanların dini rəhbərlərinin mübarək bədənləri uyuyan məzar və məqbərə, habelə, ziyarətgahlar dinin nişanələrindəndir. Belə ki, onları qorumaq, məhv olmaqdan saxlamaq hamıya vacibdir. Çünki onları məhv (dağılmaqdan) olmaqdan saxlamaq, istər qəbir üstə tikili inşa etmək, istərsə də inşa baxımından tə'mir etmək, yaxud təzəsini tikmək, onlara hörmət bəsləmək deməkdir. Necə ki, məscidləri (xarab olmaqdan) dağılmaqdan qoruyub saxlamaq, onlara hörmət bəsləyib böyük tutmaq deməkdir.

Daha da aydın olsun deyə, əlavə edirik:-Allah-təala Səfa və Mərvəni öz nişanələrindən, hörmət ediləsi məkanlardan sayaraq, onlara sayqı bəsləməyi hamıya vacib bilmişdir. Buna əsasən peyğəmbərlər, övliyalar və saleh insanların mübarək bədənləri dəfn olunan yerlər dini nişanə və şüar olmağa daha layiqdir. Çünki o yerlər, Allah-təalanın tikilib ucalmasını və Özünün müqəddəs adının orada zikr edilməsini istədiyi evlərdəndir.

Ayədəki "beytdən (evdən)" məqsəd, Allaha itaət və ibadət olan evdir. Bu baxımdan, "beyt-ev-"kəlməsi, həm məscidləri, həm də ziyarətgah, hərəm və məqbərələri əhatə edir. Çünki hər ikisi Allaha ibadət və itaət olunan mə'bəd və məkandır. İslam şəriətində məscidlərin tə'mirinə, onlara hörmət edilməsinə dəlalət edən bir şey olmasaydı belə, həmin ayə ümumi məfhumuna əsasən məscidin tə'mirinin, ona hörmət

bəsləməyin və onda Allahı yad etməyin vacibliyinə dəlalət  üçün bizə kifayət edərdi. Çünki məscid Allahın daimi, qalacağını istədiyi evlərdəndir.

Allahın dini İslamı yad etməyə səbəb olan ziyarətgahları, məzarları tə’mir etmək, hörmət bəsləmək və onları qorumaq baxımından məscid kimidir.

Bu baxımdan, müsəlmanlar Peyğəmbərin (s), Əhli-beytin (s) və o Həzrətin  səhabələrinin dəfn olunduğu yerləri öz halında saxlamağı tə’kid edirlər. Müsəlmanların uzun müddət müqəddəs şəxslərin qəbirlərini məhv olmaqdan qorumağa çalışmasının səbəbi budur ki, o əməlin (qəbirləri inşa etməyi, onlara hörmət bəsləməyi) dini əsaslarını ucaldıb möhkəmlətmək və iman əhlinin hörmətini gücləndirmək istəmişlər. Qətiyyən bu əməl şirk və bütpərəstliyin nümunəsi deyildir. Halbuki, vahabi rəhbərləri (liderləri) belə fikirləşiblər.

Məhəmməd ibn Əbdülvəhhab demişdir: “Qəbir üzərində tikili inşa etmək, cahiliyyət dövründə ibadət edilən çubuq və daşlar hökmündədir”. Kaş o, başa düşəydi ki, bu sözləri Həzrət İsmail (ə) və anası Hacərin qəbirləri üzərində “hicr” (hərəm, məqbərə) inşa etməyin Peyğəmbərin (s) onun dağıdılmasının qarşısını almasının və Rəsul (s) dəfn olunan otağı inşa etməyə irad tutulması mə’nasını verir. (Halbuki, bunun heç bir irad olmamasını vurğuladıq).

Səhabələr Peyğəmbəri (s) öz pak otağında dəfn edib, qapılarını bağlamağı göstəriş verdilər. Kim deyə bilər ki, səhabələr bu işlə otağın divarlarına büt kimi pərəstiş etmək istəmişlər?!

İbn Teymiyyə “Minhacüs-sünnə”də yazır: “Ömər ibn Xəttab müsəlmanların müəyyən bir yeri Peyğəmbərin (s) oturub-durduğu yer hesab edərək, orada namaz qıldıqlarını gördükdə, onları bu işdən çəkindirib deyərdi:-Sizdən öncəki camaatın həlak olmasının səbəbi, onların öz peyğəmbərlərinin nişanələrini ibadətgaha çevirmələri idi”.

İbn Teymiyyə bilməlidir ki, Ömərin bu işi qadağan etməsi onun şəxsi ictihadından irəli gəlir. Əks halda, heç kəs Peyğəmbərin (s) namazı yerdə qılmağın haram və batil olmasını söyləməmişdir. “Səhihi-Buxari”də Peyğəmbərdən (s) belə rəvayət olunur: “Həzrət (s) buyurdu: “Allah-təala bütün Yeri mənim üçün məscid (səcdə yeri) və pak qərar vermişdir. Hər zaman mənim ümmətimdən olan şəxs namazın vaxtının çatdığını dərk edərsə, orada (yer üzərində, torpaqda) namaz qılsın”.

Buna əlavə olaraq, müsəlmanlar, xüsusilə, İmamiyyə firqəsi bu sözün Ömərə nisbət verilməsini inkar edirlər. Çünki Ömər bu işin qarşısını alsaydı, peyğəmbərlərin nişanələrini, Həzrət Rəsulun (s) və Əbubəkrin qəbirlərini öz halına buraxmazdı!

Habelə, o, vəsiyyət etməzdi ki, onu Peyğəmbər (s) məzarının kənarında dəfn etsinlər. Buna əsasən, qəbirləri inşa etmək cahiliyyət zamanının bütləri hökmündədirsə, heç vaxt Ömər, ondan öncə Əbubəkr və onlardan sonrakı səhabələr Peyğəmbərin (s) dəfn olduğu yeri öz halına buraxıb, o Həzrətin kənarında başqalarını dəfn etməzdilər....

Qeyd olunanların hamısı Məhəmməd ibn Əbdülvəhhabın bu barədə verdiyi fitvaların məntiqdən uzaq və həvayi-həvəsdən doğduğunu çatdırır.

Allah-təala bizləri bu işdən və belə fikir tərzindən uzaq etsin.

## 4-ZİYARƏTGAH VƏ HƏRƏMLƏRİ BƏZƏMƏK

### Ziyarətgah və hərəmləri qızıl-gümüşlə bəzəməyin idrak və şəriət baxımından heç bir eybi yoxdur

Dördüncü məsələ bundan ibarətdir:-Ziyarətgahları, övliyaların qəbirlərini qızıl-gümüşlə zinətləndirib cavahiratla bəzəməyin, onları çıraq və qəndillərlə işıqlandırıb qəbirlərin üzərinə kölgə (çardaq) qoymağın nə eybi vardır?

Vahabilər bunların hamısını haram bilirlər. Bə’zən deyirlər ki, bu iş mə’nasızdır və meyit üçün heç bir faydası yoxdur. Bə’zən də Məhəmməd ibn İdris Şafeidən /78/ nəql edərək deyirlər: “Ömər bir qəbrin üzərində gümbəz gördükdə, onu aradan qaldırıb dedi: Qoyun, onun əməli üzərinə kölgə salsın”. Digər bir yerdə Abdullah ibn Abbasın hədisinə istinad edirlər: “Peyğəmbər (s) qəbirləri ziyarətə gedənləri, qəbirlərin kənarında namaz qılanları və orada çıraq, qəndil yandıranları lə’nətləmişdir”.

**/78/ - Məhəmməd ibn İdris Şafei dörd sünni məzəhəbindən birinin başçısıdır. O, 150-ci hicri-qəməri ilində Fələstinin Qəzza məntəqəsində dünyaya gəlmiş, 204-ci hicri-qəməri ilində Misirdə vəfat etmişdir. Onun nəsəbi Əbd Manafın oğlu Müttəlibə çatır. Bu baxımdan ona, "Müttəlibi" də deyirlər. Şafei Məkkədə böyüyüb boya-başa çatmış, orada və Mədinədə təhsil alaraq yenidən Bağdada qayıdıb hədis söyləməyə başlamışdır. Sonra Misirə gedib ömrünün sonuna qədər orada yaşayıb. O, Malik ibn Ənəs, Məhəmməd ibn Həsən Şeybani və başqa alimlərdən elm və hədis öyrənmişdir. Şafei Əhli-beytə(s) məhəbbətini aşkar etmək məsələsinə çox bağlı idi. Bu barədə bir çox gözəl şe'rlər yazmışdır. O cümlədən, "Ey Peyğəmbərin (s) Əhli-beyti, sizə məhəbbət Qur'anda vacib sayılmışdır. Sizin məqamınızın əzəməti barədə bu kifayət edər ki, hər kəs sizə salam göndərməsə, namazının faydası yoxdur".**

**Bu şe'r onundur: "Əgər Ali-Mühəmmədə məhəbbət kafirlikdirsə, onda bütün insanlar və cinlər bilsinlər ki, mən rafiziyəm (yə'ni, kafirəm)".**

## İmamiyyə şiəsinin yuxarıdakı fikirlərin caizliyinə dair sübutları

1)Allah-təala buyurur: "Allah bir tayfanı doğru yola yönəltdikdən sonra qorxub çəkinməli olduqları şeyləri özlərinə bildirmədən, onları (Haqq yoldan) çıxartmaz. Həqiqətən, Allah-təala hər şeyi (olduğu kimi, layiqincə) biləndir! (Tövbə, 115)".

Bu barədə birinci müqəddimədə geniş şəkildə izah verib, oxucular üçün aydınlaşdırdıq.

2)Hərəm və qəbirləri bəzəməyi, onlarda olan asılmış şeyləri və zinət əşyalarını Kə'bənin bəzəyi, üzərinə örtülən parça ilə müqayisə etmək lazımdır. Çünki hər ikisində məqsəd eynidir. Pərdələrdən, zinət əşyalarından istifadə etməyin mə'nasız olması, onların hər ikisinin müştərək səbəbidir. Halbuki, xəlifələrin adətləri belə olmuşdur ki, onlar bu işi, Kə'bəni əzəmətli hesab etmək nişanəsi bilirdilər. Hətta, Peyğəmbərin (s) sirəsi də (əməl, rəftar) belə olmuşdur. İslam tarixi və hədis kitabları buna şahiddir.

İbn Xəldun /79/ özünün "Müqəddimə" kitabında yazır: "Dünyadan köçmüş xalqlar Məkkənin cahiliyyət dövrünü əzizləyirdilər. Kəsra (İranın padşahı Xosrov) və onun kimi digər padşahlar Məkkəyə çoxsaylı mal-dövlət və xəzinələr bağışlayırdılar. Əbdülmütəllibin Zəmzəm quyusunu yenidən qazarkən oradan qılınclar və iki qızıl ahu (ceyran) heykəli tapması hekayəsi məşhurdur.

Allahın Rəsulu (s) Məkkəni fəth etdikdə, Kə'bə evində yerləşən quyudan 490 misqal qızıl tapdı. Bu məbləğ padşahların Kə'bə evi üçün göndərdiyi ərməğanlardandır. Yuxarıda qeyd olunan qızılın qiyməti iki milyon dinara bərabərdir.

Əli ibn Əbutalib (ə) Peyğəmbərə (s) dedi: "Ey Allahın Rəsulu! Kaş bu sərvəti döyüşün xərclərinə istifadə edəydin. Amma Həzrət Rəsul (s) ona əl vurmadı. Sonra həmin təklifi Əbubəkr də etdi. O, yenə də ona əl vurmadı. Belə ki, deyir: Əbu Vail /80/ söylədi: Şeybə ibn Osmanın yanında oturmuşdum. Ömər ibn Xəttab da mənim kənarımda əyləşmişdi. Ömər dedi: Qərara gəlmişəm ki, orada (Kə'bə evində) heç bir sarı (dinar, qızıl) və ağ (gümüş, dirhəm) qoymayım və hamısını müsəlmanların arasında bölüm. Dedim: Sən belə iş görməyəcəksən! (görə bilməzsən).

Dedi: Nə üçün? Dedim: Ona görə ki, sənin iki yaxın dostun (Peyğəmbər (s) və Əbubəkr) bu işi görmədilər. Ömər dedi: Onlar elə şəxslər idilər ki, camaat onlara iqtida edirdi. Bu mal-dövlət Əftəsindir". /81/

Müəllif: "Əftəsdən sonra bu iş yenə də keçmiş xəlifələrin adəti ilə davam etdi. Belə ki, müsəlmanlar Allahın evi və Peyğəmbərin (s) hərəmi üçün mal-dövlət, xəzinələr vəqf yaxud hədiyyə etdilər. Amma vahabilər Məkkə və Mədinədə fitnə qaldırdıqda, o iki hərəmdə (Məkkə və Mədinədə) olanların hamısını qarət etdilər. Onların bu işləri Peyğəmbər (s) və onun səhabələrinin əməl və rəftarının əksinə idi".

Buxari "Səhih"də "Peyğəmbərin (s) sünnələrinə iqtida bölməsində -"İlahi, bizi müttəqilərə imam (rəhbər) et!" /82/ - ayəsinin təfsirində deyir ki, məqsəd budur: "Biz, bizdən öncə olanların arxasınca gedirik və bizdən sonra da gələnlər bizim ardıcıllarımız olacaq".

3)Ömərdən nəql olunan rəvayətin qəbirin üzərində məqbərə tikmək yaxud kölgəlik salmağın haramlığına deyil, məkruh olduğuna aid etmək olar. Xüsusilə, Ömərin özünün qəbri, habelə, Peyğəmbərin (s) və Əbubəkrin qəbirləri elə ilk gündən indiyə qədər müsəlmanların, səhabələrin və tabeinlərin gözü önündə üstüörtülü, tavanın altında olmuşdur.

Bundan əlavə, "Səhih-Buxari" və "Əqdul-fərid /83/ kitabında belə deyilir: "Həsən ibn Əli /84/ vəfat etdikdə, həyat yoldaşı bir il ərzində onun qəbri üzərində gümbəz qoydu və sonra onu götürdü. Xatırlamaq lazımdır ki, həmin gümbəz qəbirin üzərinə kölgə salırdı".

Bu baxımdan deyə bilərik ki, bə’zən bir şeyin məkruh olması, bir sıra ümumi məsləhətlərə görə aradan götürülür. Məsələn, qəbirin kənarında zəvvarları və Qur’an qarelərini isti və soyuqdan qorumaq üçün talvarlar. Bu elə bir məsləhətdir ki, faydası müsəlmanlara qayıdır. Halbuki, meyit ondan bəhrələnmir.

4)İbn Abbasın rəvayətinin doğru olması fərzilə Peyğəmbərin (s) sünnəsi və müsəlmanların əməlinin əksinədir. Çünki, Peyğəmbərin (s) qəbrinin kənarında qəndil yandırmaq, xəlifələrin zamanından bu günümüzə qədər davam edir.

5)Mö’minlər və qəbirləri ziyarət edənlərin ziyarətgah, hərəm və məqbərələrdəki işıqlıqdan gördükləri fayda, bu işin səmərəsiz və mə’nasız olduğunu iddia edən müxaliflərin fikrini rədd edir. Xüsusilə, qəbirdən uzaq və aralı duran və ya oturan şəxslər üçün böyük faydası vardır. Həmçinin, Qur’an oxuyanlar da o işıqdan istifadə edirlər. Buna əsasən, hərəm və ziyarətgahı işıqlandırmaq, çıl-çıraqla bəzəmək, müxalif qrupun nəzərinin əksinə olaraq israf deyildir.

**/79/ - Əbdürrəhman ibn Məhəmməd ibn Xəldun İşbili sünnilərin tanınmış alim və tarixçilərindəndir. O, şiələrə sərt mövqedə dururdu. Onun əsli Əndəlus (İndiki İspaniya) xalqından olmuş və İşbiliyyə şəhərində yaşamışdır. Amma ömrünün sonlarını Misirdə keçirmişdir. İbn Xəldun “Əlibəru” və “Divanül-mübtəda vəl xəbər” və “Müqəddimə” kitabları ilə məşhurdur. Belə ki, onları siyasi, ədəbi və ictimai elmlərin xəzinəsi bilmişlər. O, hicri 808-ci ildə Misirdə vəfat etmişdir.**

**/80/ - Əbu Vail, Şəqiq ibn Sələmeyn Əsədəi Kufi 82 yaxud 89-cu hicri ilində 100 yaşında vəfat edib.**

**/81/ - İbn Xəldun onun arxasınca izah verir ki, Əftəs Həsən ibn Hüseyn (Əli) ibn Əli ibn Zeynal-abidin idi. O, hicri 199-cu ildə Məkkəni fəth edib Kə’bəyə doğru tələsərək, oranın bütün xəzinəsini qarət edib dedi: “Bu sərvət Kə’bənin dərdinə dəymir, faydasız olaraq orada xəzinə edilmişdir. Biz bunu döyüşdə xərcləməyə daha layiqik”.**

**/82/ - Furqan, 74.**

**/83/ - Bu kitabın müəllifi Əhməd ibn Məhəmməd Qirtəbi Əndəlusi Malikidir. O, “İbn Əbdu Rəbbih” adı ilə məşhurdur. Hicri 328-ci ildə İspaniyada vəfat etmişdir.**

**/84/ - İmam Həsən Müctəbanın oğlu Həsəni Müsənnadır. O, Kərbəla hadisəsində yaralanmışdı. Anasının qohumları (adamları) Ömər Sə’din qoşununda idilər. Onlar onu döyüş səhnəsindən uzaqlaşdırdılar. Buna əsasən o, Həsən ibn Əli yox, Həsən ibn Həsəndir. Həsəni Müsənna, əmisi İmam Hüseynin(ə) qızı Fatimə ilə evlənmişdi. Həmin Fatimə bir il Bəqi qəbirstanlığında ərinin məzarının kənarında əza saxlamışdır.**

# 5-PEYĞƏMBƏR VƏ İMAMLARIN QƏBRLƏRİNİ ZİYARƏT ETMƏK ŞİRK DEYİL

## İslam Peyğəmbəri (s) və İmamların qəbirlərini ziyarət etmək şirk deyil və Allahdan başqasına ibadət sayılmır

Vahabilər belə deyirlər: “İmamların (ə) qəbirlərini ziyarət etmək, uzaq yerdən Peyğəmbərin (s) qəbrini ziyarətə gəlmək caiz (düzgün) deyildir”. Onların əqidəsi belədir ki, bu iş şirk və Allahdan başqasına ibadətdir.

İbn Teymiyyə “Minhacus-sünnə” kitabının birinci hissəsində yazır: “Bu İslam dininin zəruri məsələlərindəndir ki, Peyğəmbər (s) İmamiyyə şiəsinin hərəm, ziyarətgah və qəbirlər barədə nəql etdiklərinə dair heç bir göstəriş verməmiş və öz ümməti üçün peyğəmbərlərin və saleh insanların (övliyaların) qəbirləri kənarında heç bir əməli şəriətə aid etməmişdir. Bu işlər müşriklərin adət-ən’ənələrindəndir. Belə ki, Allah-təala onlar barədə buyurur: “Və (kafirlər öz tabeçiliyində olanlara) dedilər: Öz tanrılarınızı tərk etməyin, (xüsusilə) Vəddi, Suva’ı, Yəqusu və Nəsri atmayın!”. /85/

İbn Abbas demişdir: “Bunlar Nuhun qövmündə adlı-sanlı, ləyaqətli insanlar idilər (yə’ni, Vədd, Suva’, Yəğus, Yəuq və Nəsr). Onlar öldükdə, camaat qəbirlərini ziyarətə getdi, uzun müddətdən sonra onların heykəlləri düzəldildi, onlara pərəstiş etdilər...”

Həmçinin, İbn Teymiyyə İmamiyyə şiəsinin əqidə və ideyalarını tənqid edən iradların birində deyir: “Onlar qəbirlərin üzərində inşa edilmiş gümbəz və məqbərələrə hörmət bəsləyir, müşriklər kimi onların

yanına gedib ziyarət edirlər. Hacılar Allah Evinə Həcc ziyarətinə getdikləri kimi, onlar da öz imamlarının hərəminə və ziyarətgahlara həccə gedirlər!”.

Hətta, bə'zi şiələr öz imamlarının qəbirlərini ziyarət etməyi Allah Evinə Həccə getməkdən üstün bilirlər. Hələ üstəlik, öz imamlarının qəbirlərini ziyarət etməklə, Allahın vacib buyurduğu Kə'bə evinin ziyarətini lazımsız bilməyənləri pisləyirlər. Bu qəbildən olan əqidələr xristian və müşriklərin dini e'tiqadlarındandır. Belə ki, onlar bütlərə pərəstişi Allaha pərəstiş etməkdən üstün bilirlər.

Onların alim və rəhbəri Şeyx Müfid /86/ “Mənasiku-məşahid” adlı bir kitab yazmışdır. Orada belə demişdir: “Allahın məxluqlarının qəbirləri Kə'bə və Allahın Evi kimi ziyarət edilməlidir (Ora Həccə gedilməlidir)”.

Peyğəmbərin (s) qəbrini ziyarət etməyin haram olmasını söyləyən Alusi /87/ kimi sünni alimləri Buxarinin “Üç məsciddən başqa məscidi ziyarət etməyin”-hədisinə istinad etmişlər.

Məhəmməd ibn Əbdülvəhhab da “Kəşfuş-şübəhat” əsərində şiənin peyğəmbərlər və övliyaların qəbirlərinə hörmət bəsləmələrini, onları ziyarət etməyi, qəbirlərin kənarında dua, onlara təvəssül etməyi və onlardan şəfaət diləməyi haram bilmiş və demişdir ki, guya, şiələr onları “Allah” bilirlər.

Məhəmməd ibn Əbdülvəhhab deyir: “Bu mətləbə dair olan sübutlardan biri belədir:-Allah-təala bəni-İsrailin imanlı və ləyaqətli olmasına baxmayaraq, onlardan nəql edərək buyurur: “Dedilər: Ya Musa! Bizə onların (bütpərəstlərin) sitayiş etdikləri bütlər kimi bir büt düzəlt!”. /88/

Bir qrup səhabə Peyğəmbərə (s) dedilər: “Ya Rəsulallah! Bizim təvəssül etməyimiz üçün bir vasitə tə'yin et!”. Peyğəmbər (s) and içib buyurdu: “Bu fikir, bəni-İsrailin Musaya (ə) dedikləri fikir kimidir: “Ya Musa! Bizim üçün bir Allah (büt) qərar ver (tə'yin et).

**/85/ - Nuh surəsi, 23-cü ayə.**

**/86/ - Məhəmməd ibn Məhəmməd ibn No'man Bağdadi hicri 413-cü ildə vəfat etmişdir. O, Şeyx Müfid adı ilə məşhurdur. Şiənin görkəmli fəqihlərindən, əqaid və islami məzhəblərin alimlərindən biridir. O, Seyyid Mürtəza, “Nəhcül-bəlağə”nin müəllifi Seyyid Rəzi, Şeyx Tusi və şiənin bir çox adlı-sanlı alimlərinin (müəllimi) ustadıdır. “İrşad”, “Məcalis”, “Məqnə'ə”, “Əl-cüməl” onun çap olunmuş kitablarındandır.**

**/87/ - Seyyid No'man ibn Mahmud Alusi hicri Bağdadi 1317-ci ildə vəfat etmişdir. O, İraqın tanınmış sünni alimlərindəndir. “Əlayatul-bəyyinat” və “Cəlaul-eyn” kitablarının müəllifidir. O, bu kitabları İbn Teymiyyənin fikirlərinə əsasən yazmışdır. Bu kitab vahabi məzhəbinin diqqət mərkəzində olmuşdur.**

**/88/ - Ə'raf, 138.**

## Müəllifin vahabilərə cavabı
## Nəql etdiklərimizin cavabını bir neçə fəslin əsasında veririk:

### Birinci fəsil

Əhli-sünnənin (sünnilər) qəbirlərin və Həzrət Peyğəmbərin (s) mübarək məzarının ziyarətinə dair söylədikləri hədislər. Bu barədə sübutumuz mütəvatir, səhih və açıq-aşkar söylənilən hədislərdir. Bunlardan əlavə, müsəlmanların əməl və rəftarı Peyğəmbərin (s) öz zamanından günümüzə qədər belə olmuşdur. Peyğəmbər (s) özü də Ühüd şəhidlərinin qəbirlərini və Bəqi qəbirstanlığını ziyarətə gedərdi.

İbn Macə və Nəsainin “Sünən”ində, habelə, Qəzalinin “Ehya-ülum-id-din” kitabında Əbu Hüreyrədən belə rəvayət olunur: “Həzrət Rəsul (s) buyurdu: “Qəbirləri ziyarət edin ki, sizlərə axirəti xatırladır”. Yenə də həmin kitablarda İbn Əbu Müleykə Aişədən rəvayət edir: “O, dedi: “Peyğəmbər (s) qəbirləri ziyarət etməyə göstəriş verərdi”.

Habelə, yuxarıda qeyd olunan kitablarda yenə Əbu Hüreyrədən /89/ rəvayət olunmuşdur: “Peyğəmbər (s) anasının qəbrini ziyarət edib ağladı və orada olanları da ağlatdı. Sonra buyurdu: “Allahımdan anamın qəbrini ziyarətə getmək üçün icazə istədim. O da icazə verdi. Siz də qəbirləri ziyarət edin, çünki axirəti yadınıza salır”.

Bu kitablarda Abdullah ibn Məs'uddan rəvayət olunub ki, Peyğəmbər (s) buyurdu: "Əvvəllər sizləri qəbirləri ziyarət etməkdən çəkindirirdim. Lakin indi kim ziyarət etmək istəsə, buyura bilər, çünki bu iş axirəti yadınıza salır. Amma orada faydasız, mə'nasız sözlər danışmayın".

Qəzali Ehya-ülum-id-din" kitabında İbn Əbu Müleykədən /90/ belə rəvayət edir: "Bir gün Aişənin qəbir əhlinin ziyarətindən gəldiyini gördükdə, soruşdum: -Ümmül-mö'minin! Haradan gəlirsiniz? Aişə dedi: -Qardaşım Əbdürrəhmanın qəbrinin ziyarətindən gəlirəm. Dedim: -Məgər, Peyğəmbər (s) bu işi qadağan etməmişdir?

O, dedi: -Əvvəllər qadağan etmişdi, lakin sonralar ziyarət etmək göstərişi verdi".

Sünnilərin "Səhih" və "Sünən" hədis kitablarında qəbir əhlinin ziyarətinin xüsusiyyətlərinə dair hədislər yazılmışdır. O cümlədən, biri belədir: "Peyğəmbər (s) buyurdu: Bəqi qəbirstanlığına getdikdə, belə deyin: Əssəlamu əla əhlid-diyari minəl-mu'minin".

Bunlar saleh insanların, övliyaların ziyarətinə dair rəvayətlər idi. Lakin Peyğəmbərin (s) qəbrinin ziyarəti barədə bir çox mö'təbər hədis və rəvayətlər vardır. Belə ki, Darqutni (****), Beyhəqi, Qəzali və digər alimlər o Həzrətin qəbrini ziyarətin fəziləti barədə çoxlu rəvayətlər nəql etmişlər.

O cümlədən, Peyğəmbərin (s) buyurduğu aşağıdakı rəvayət: "Kim məni (qəbrimi) ziyarət etsə, şəfaətim ona vacib olacaqdır (yə'ni, mütləq ona şəfaət edəcəyəm)". Bu şəfaət Peyğəmbərin (s) qəbrini ziyarət edənlərə məxsusdur. Bütün mö'minlərə Peyğəmbər (s) tərəfindən şamil olan şəfaət, əvvəlki şəfaətdən fərqlidir. Peyğəmbərdən (s) daha bir hədis: "Həzrət Rəsul (s) buyurdu: "Kim Mədinədə məni Allaha xatir ziyarət etsə, Qiyamət günündə ona şəfaət edər və onun şahidi olaram".

Nafe /91/ Abdullah ibn Ömərdən rəvayət edərək deyir: -Abdullah dedi: Peyğəmbər (s) buyurub: "Kim Həccə gəlib məni ziyarət etməsə, mənə zülm etmişdir".

Əbu Hüreyrə Peyğəmbərdən (s) belə rəvayət edir ki, Həzrət (s) buyurdu: "Kim vəfatımdan sonra məni (qəbrimi) ziyarət etsə, sanki həyatda ikən məni ziyarət etmişdir".

Abdullah ibn Abbasdan belə nəql olunmuşdur: Peyğəmbər (s) buyurdu: "Kim Həcc səfərinə gəlsə və məni ziyarət etmək məqsədilə məscidimə daxil olsa, iki kamil Həccin savabına nail olacaqdır..."

Bu qəbildən bir çox mütəvatir hədislər mövcuddur. Məhəmməd ibn Əbdülvəhhab "Kəşfüş-şübəhat" adlı risaləsində yazır: "Mənim əqidəm bundan ibarətdir ki, Həzrət Peyğəmbərin (s) məqamı bütün məxluqatdan üstündür və o, öz qəbrində sağdır (diridir), bərzəxi həyata malikdir. Elə bir həyat ki, Qur'anın aşkar söylədiyi şəhidlərin həyatından da üstündür. Çünki, Peyğəmbər (s) şəhidlərdən üstündür. Çünki Peyğəmbər (s) ona verilən salamları eşidir. O Həzrəti ziyarət etmək sünnədir, lakin onu ziyarət üçün Mədinəyə getmək lazım deyildir. Əksinə, Məscidül-nəbini ziyarət edib, orada namaz qılmaq məqsədilə səfər etmək lazımdır".

Cavab: birincisi, Əgər Şeyx Məhəmməd ibn Əbdülvəhhab:

"Peyğəmbər (s) qəbrində diridir"-dəlilinə əsasən onun ziyarətini caiz bilirsə, onda Əhli-beyt(ə) və O Həzrətin səhabələrini də həmin səbəbə əsasən ziyarət etmək olar. Belə olduqda, Şeyx Məhəmmədin "Sair peyğəmbərlər və övliyaların (saleh bəndələrin) qəbrini ziyarət etmək olmaz"-deməsi, mə'nasızdır. Habelə, Peyğəmbərin (s) ziyarəti ilə ona təvəssül edib şəfaət və kömək diləməyin arasında fərq qoymaq mə'nasızdır. Çünki Peyğəmbərin (s) qəbirdə diri olması və uzaqdan onu ziyarət edənin səsini eşitməsi sübuta yetdikdə, onun tə'sir və əsərləri bunlara da aid olunur.

İkincisi, Şeyx Məhəmmədin yalnız Buxarinin nəql etdiyi rəvayətə görə onu qadağan etməsinin səbəbi yoxdur. Elə bir rəvayətə ki, bir neçə dəlilə əsasən rədd edilir:

1)Bütün müsəlmanlar bu rəvayəti fərz edək ki, bu mə'naya aid edir, yenə də qəbul etməmişlər. Çünki müsəlmanların adət və rəftarı belə idi ki, Peyğəmbərin (s) vəfatından sonra uzaq yerlərdən (məntəqələrdən) onun ziyarətinə gedərdilər. Necə ki, o Həzrətin sağlığında da onu ziyarətə səfər edirdilər. Buna əsasən, bu iki halətdən birini digəri ilə müqayisə etməyin aşkar sübutu vardır. Xüsusən də Peyğəmbər (s) özü buyurmuşdur: "Kim məni ölümündən sonra ziyarət etsə, sanki sağlığımda məni ziyarət etmişdir".

2) Buxarinin rəvayəti öncə nəql etdiyimiz səhih hədis və səhabələrin Peyğəmbər (s), Əhli-beyt(ə) və səhabələrin qəbirlərini ziyarət etmələrinə aşkar dəlalət edən rəftarlarına ziddir. Çünki Peyğəmbər (s) buyurmuşdur: "Kim Həcc səfərinə gəlib, məni ziyarət etmək məqsədilə məscidimə daxil olsa, iki Həccin savabına sahib olar". Şeyx Məhəmmədin dediyinin əksinə: "Mənim məscidimin qəsdi ilə!" buyurmayıb.

3)Yuxarıda qeyd olunan hədisdə müstəsna olanlar. Ya məscidlər yaxud da uzaq və yaxından ziyarət üçün hər növ səfər etmək barəsindədir. Əgər məscidlərə aid olsa, üç məsciddən başqa heç birinin ziyarətinə getməməyin mə'nasındadır. Belə ki, Şeyx Süleyman Nəcdi "Hədiyyətüs-səniyyə" kitabında bu məsələni açıq-aşkar söyləmişdir: "Səhih-Buxari" və "Müslim"də Əbu Hüreyrə və Əbu Səid Xudridən /92/

rəvayət olmuşdur ki, Həzrət Peyğəmbər (s) buyurdu: “Üç məsciddən başqa heç bir məscidin ziyarəti üçün səfər etməyin: Məscidül-həram, Məscidül-əqsa və Mina məscidi”.

Buna əsasən, qeyd olunan hədisin mə’nası ziyarətgah, hərəm və digər qəbirlərə şamil olunmur. Habelə, hər məscidin qəsdi ilə səfər etməyə aid olmasını dediməmişdir.

İkinci mə’naya yozulduqda isə, bütün mübah səfərlərin qadağan olunmasına gətirib çıxarır. Halbuki, heç kəs belə söz deməmişdir. Bundan əlavə, əksəriyyətə qeyd vurmaq (xüsuslandırmaq) lazım gəlir və bu sözü ona aid etmək olmaz.

**/89/ - Əbu Hüreyrə hicri 8-ci ildə müsəlman oldu. O, saxta hədis düzəltməkdə və Peyğəmbərə (s) yalan nisbət verməkdə o qədər ifrata vardı ki, Ömər ibn Xəttab öz xilafəti dövründə onu kötəkləyib dedi: “Əgər yalanlarından əl çəkməsən, səni Dus dağına (Yəməndə yerləşir) qaytaracağam!”. Onu daha artıq tanımaq üçün Misir alimi, mərhum Mahmud Əbu Riyyə və Əllamə Seyyid Əbdülhüseyn Şərəfüddin Amilinin yazdıqları “Əbu Hüreyrə” kitabına müraciət edə bilərsiniz. Bir gün Peyğəmbər (s) onun əbasının altında bir pişik balası görüb buyurdu: “Ey Əbu Hirrə! (yə’ni, ey pişik oynadan)”. O gündən sonra ona Əbu Hüreyrə (kiçik pişik atası) dedilər. Əbu Hüreyrə 57-ci hicri ilində dünyadan köçdü. O, sünnilərin tanınmış alimlərindəndir. Onun hədislərini çox mö’təbər sayır və hörmət edirlər. Əlbəttə, onun bə’zi hədisləri düzgündür və şiələr də onları rəvayət etmişlər.**

**/90/ - 2 İbn Hacər Əsqəlani “Təqributut-təhzib” əsərində yazır: “Deyirlər ki, Abdullah ibn Übeydullah ibn Əbu Müleykə ibn Abdullah ibn Cud’an Əbu Müleykə Zühəri Timi Mədəninin adı idi. İbn Əbu Müleykə Peyğəmbərin (s) 30 səhabəsini görmüşdür. O, fəqih idi və 117 hicri-qəməri ilində vəfat etmişdir.**

**/91/ - Nafe Abdullah ibn Ömərin nökəri idi. İbn Hacər Əsqəlani “Təqrib ”-də yazır: “Abdullah ibn Ömərin nökəri, Əbu Əbdillah Nafe Mədəni e’tibarlı və məşhur fəqih olmuşdur. O, 117-ci hicri ilində yaxud ondan bir az sonra vəfat etmişdir.**

**/92/ - Sə’d ibn Malik Xəzrəci Əbu Səid Xudri adı ilə məşhurdur. Onun babası Xudrə ibn Ovfdur və Peyğəmbərin (s), sonradan da Əlinin (ə) səhabələrindən olmuşdur. Deyirlər ki, səhabələr arasında Əbu Səid qədər fiqh elmini bilən olmamışdır. Peyğəmbərin (s) çoxsaylı hədisləri ondan rəvayət olunmuşdur. O və onun atası Malik Xəzrəci Peyğəmbərlə(s) söhbət etmişlər.**

## İkinci fəsil

Məhəmməd ibn Əbdülvəhhab və onun ardıcılları ilə söhbət

Vahabilər deyirlər ki, Peyğəmbər (s) və pak imamların qəbirlərinə hörmət etmək və onları ziyarət məqsədilə səfər etmək şirk və onları Allah qərar vermək qəbilindəndir. Necə ki, bəni-İsrail Həzrət Musadan (ə) onlar üçün “Allah” tə’yin etməsini (qərar verməsini) istədilər. Vahabilərin bu iradlarının cavabı aşağıda açıqlanacaqdır:

Birinci cavab: -bəni-İsrail Həzrət Musadan (s) onlara şəfaət edən bir “Allah” istəmədilər, əksinə, onlar dünyanı yaradan və hər şeyə nəzarət edən “Allah” tələb etdilər. Bu baxımdan, Sameri onları yolundan azdırıb səs çıxaran qızıl buzov düzəltdi, sonra göstərib dedi: “Bu sizin və Musanın Allahıdır, Musa-Allahı sizə göstərməyi-unutmuşdur”. Bu zaman bəni-İsrail hamılıqla yollarını azıb fikirləşdilər ki, həmin buzov onların xaliqi və işlərini idarə edəndir. Buna görə də ondan səs çıxır”. /93/

Bu mə’nanı Allah-təalanın buyurduğu: “Bu sizin və Musanın Allahıdır”-kəlamı aydınlaşdırır. Çünki Həzrət Musanın (ə) Allahı, elə bəni-İsrailin Allahı, bütün yeri-göyü yaradan Tanrı idi.

Təfsirçilər deyirlər: “Ayənin mə’nası budur ki, Sameri belə deyib: “Bu sizin və Musanın Allahıdır, Musa onu unutmuş və getmişdir. Allahı başqa yerdə tapsın”. /94/ Bəni-İsrail də ya sonsuz dərəcədə nadan və dardüşüncəli idilər ki, adi buzov heykəlinin yerin-göyün Allahı olmasını, ya da Allahın buzovda hülul etməsini təsəvvür etdilər”. Hər iki halda Məhəmməd ibn Əbdülvəhhabın “Bəni-İsrail Musadan yaradan və idarə edən Allah tələb etmədilər”-fikri özünə yer tapmır.

İkinci cavab: Fərz edək ki, bəni-İsrail Musadan (ə) pərəstiş və ibadət etmək üçün bir vasitə istədikdə, mö’min idilər, amma küfr və şirkin onların tələbində müdaxiləsi olmamışdır. Buna görə də Musa (ə) da onları kafir saymayıb, yalnız onlara “siz çox nadan insanlarsınız”-dedi. Əksinə, küfr və şirk buzova sitayiş etməkdə olmuşdur.

Əgər bir şəxs bu təvəssül və vasitə qərar verməyi Allahdan başqası üçün bilsə, ziyalı düşüncəsindən bəhərlənməmişdir. Belə ki, əvvəlki səhifələrdə bunu nəzərinizə çatdırdıq. Buna əsasən, Məhəmməd ibn Əbdülvəhhab həvayi-həvəs üzündən danışmışdır. Onu Allaha həvalə etmək lazımdır!

Üçüncü cavab: Bir şəxsi Allah yanında şəfaətçi və vasitəçi qərar verməк əgər Allahın əmri ilə olsa, heç vaxt insanın Allaha olan xalis imanına zərər gətirmir. Belə ki, peyğəmbərlər Allah ilə bəndələr arasında vasitəçi və Allahın səfirləri idilər. İmanlı şəxslər onlara təvəssül edir, məhəbbət və böyük həvəslə onların ziyarətinə gedirdilər ki, Allah-təala onların vasitəsilə hacət və diləklərini yerinə yetirsin. Bu onların bəni-İsrail kimi Allah istəməsi qəbilindən deyildir.

Həmçinin, onlar vəfat etdikdən sonra da hacətlərin yerinə yetmək və Allah dərgahına dua etmək məqsədilə qəbirlərinin ziyarətinə gedirdilər. Onlar müqəddəslərin zəvvarların səsini, dərdlilərin naləsini eşitməsinə əqidə bəsləyirdilər.

**/93/ - Sameri zərgər idi. O, Musa (ə) Tur dağına gedib Allaha ibadətə məşğul olan zaman qızıldan bir buzov düzəldib, onun arxa tərəfini divarın kənarında yerləşdirdi. Bir nəfəri məcbur etdi ki, divarın arxasından ona üfləyib desin: “Mən sizin Allahınızam!”. O kişi danışanda, bəni-İsrail onun səsini qızıl buzov heykəlindən eşidib fikirləşirdilər ki, buzovun özü danışır. Bu baxımdan, buzovu Allah bilib, onun qarşısında baş əyib səcdə etdilər. Belə ki, Samerinin qızıl buzovu Bəni-İsrailin “Allahına” çevrildi. Nəhayət, Musa (ə) dağdan qayıtdı və uzun müddət çəkdi ki, yenidən onların bə’zilərini düz yola hidayət etsin.**

**/94/ - Taha surəsi, 87-ci ayə.**

# Üçüncü fəsil
# İbn Teymiyyə ilə söhbət

İbn Teymiyyə “Minhacus-sünnə” kitabında peyğəmbərlər və imamların (ə) qəbirlərini ziyarət etməyi haram bilərək, İbn Abbasın: “Peyğəmbər (s) qəbirlərin ziyarətinə gedən qadınlara nifrin (qarğış, lə’nət) etdi” - hədisinə istinad etmişdir. /95/

Cavab: birincisi, bu rəvayəti yalnız bir nəfər nəql etmişdir. Ona görə də, yalnız zənn və gümana səbəb olur və qadınlar üçün qəbiri ziyarət etməyi caiz bilən, habelə, yə’qinə səbəb olan mütəvatir hədislə bərabər ola bilməz.

İkincisi, Peyğəmbərin (s) qarğış (nifrin) etməsi, icazə hökmünün ləğv olmasından öncə idi. İbn Əbu Müleykənin Aişədən etdiyi rəvayət buna sübutdur. Belə ki, o deyir: “Aişə qəbir əhlinin ziyarətindən qayıtdıqda, ona dedim: Peyğəmbər (s) qadınlara qəbirləri ziyarət etməyi göstəriş verdi”. Həmçinin, Peyğəmbərin (s) buyurduğu bu rəvayət-“Əvvəllər bizlərə qəbirləri ziyarət etməyi qadağan etmişdim, indi isə kim istəsə, qəbirləri ziyarət edə bilər və heç bir maneəsi yoxdur.

Məhəmməd ibn Əbdülhadi “Sünəni-Nəsai”nin haşiyəsində bu hədisin izahı barədə yazır: “Peyğəmbər (s) bu sözü (kəlamı) ilə ləğv edən və ləğv olunan, qadağa və icazənin arasında cəm etmişdir”.

Üçüncüsü, İbn Abbasın hədisində olan “qadağa və nəhy” qadınlara aiddir. O da ərlərindən icazəsiz evdən çölə çıxmağın haram olmasına yaxud onların çölə çıxmalarının fəsad və zərərə gətirib çıxardığına görədir.

İbn Teymiyyə deyir: -Şiə, müşriklər kimi qəbirlərə, ziyarətgahlara hörmət bəsləyir, onları əziz tutur.

Onun cavabı: Şiələr və sair müsəlmanlar Peyğəmbər (s) və mə’sum imamların mübarək qəbirlərini dinə xatir və ilahi şüar, nişanə olduğuna görə ziyarət edib hörmət bəsləyirlər. Habelə, onları Allahın hörmətini saxlamağını vacib və onlara hörmətsizliyin haram olmasını bildiyi şeylərdən hesab edirlər.

Peyğəmbərin (s) qəbrinə hörmət etməyin vacibliyində Şafei alimlərindən olan Qəzalinin “Kə’bul-əhbardan” /96/ nəql etdiyi cümlə kifayət edər. O, demişdir: “Hər gün sübh vaxtı 70 min mələk Peyğəmbərin (s) qəbrini əhatə edib, qanadlarını bir-birinə vuraraq ona salam göndərirlər. Gün sona yetəndə göylərə qalxır və başqa bir mələk dəstəsi aşağı enib həmin əməli təkrar edirlər”...

Bizim nəzərimizdə Peyğəmbərin (s) Əhli-beytinin və bə’zi böyük səhabələrin qəbirləri də həmin hörmətə malikdirlər.

Buna əsasən, onların məhəbbətdən doğan ziyarətləri və onlara etdikləri təbərrük tərk edilməməlidir. Necə ki, onların sağlığında camaat böyük həvəslə ziyarətlərinə gedirdilər. Qəbirlərini ziyarət etmək, onlara ibadət deyildir. Belə olsaydı, onda mö’min şəxsin sağlığında görüşünə gedilməyəydi, halbuki, şəriət buna icazə verir və alimlərin hamısı bu işin bəyənilmiş olduğunu təsdiqləyirlər.

Amma İbn Teymiyyənin Peyğəmbərdən (s) qəbirlərə və ziyarətgahlara dair nəql etdiyi rəvayətin cavabı belədir ki, onun sözü sübutsuzdur. Bizim isə Peyğəmbərdən (s) belə sübutumuz vardır: O Həzrət göstəriş vermişdir ki, onun mübarək qəbrinin və sair mö’minlərin qəbrini ziyarət gedək.

Əgər Peyğəmbərin (s) göstərişi olmasaydı, müsəlmanlar belə mütəşəkkil şəkildə o Həzrətin mübarək qəbrinin ziyarətinə getməz və onu özləri üçün bir vəzifə (şüar) bilməzdilər. Habelə, hər il Həccə getdikdə, o Həzrətin qəbrini ziyarət etməzdilər. Bu hədisə diqqət yetirmək lazımdır:

"Kim Həcc səfərinə gedib mənim qəbrimi ziyarət etsə, sanki məni sağlığımda (həyatda ikən) ziyarət etmişdir.

Qəzali "Ehya-ülum-id-din" kitabında "Peyğəmbəri (s) ziyarət" bölməsində Nafedən rəvayət edir: "100 dəfədən artıq Abdullah ibn Ömər Peyğəmbərin (s) qəbrinin ziyarətinə gəlib, "Əssəlamu ələn-nəbiyy, Əssəlamu əla Əbu Bəkr, Əssəlamu əla Əbu" deməsini müşahidə etmişəm". /97/

Bu, qəbirlərə verilən həmin əhəmiyyətdir ki, vahabi firqəsi onu müsəlmanlar üçün pis əməl bilərək şirk sayırlar. Halbuki, şəriət ziyarətə icazə vermədikdə şirk sayılır. Şəriət ziyarətə icazə verdikdə və Allah buna əmr etdikdə, artıq ziyarət Allahdan başqası üçün ibadət deyildir. Belə ki, həqiqi dini rəhbərlərin ardınca getmək dindən çıxmağa səbəb olmur. Çünki bu, Allah tərəfindən verilən fərmandır. Buna görə də deyirik: nə mələklərin Həzrət Adəmə (ə) etdiyi səcdə şirkdir, nə də ki, bu işə əmr etmək şirkə göstəriş verməkdir. İbn Teymiyyə ziyarət etməyi caiz bilən hər müsəlman belə firqəsinə deyir: "Peyğəmbər (s) öz ümməti üçün peyğəmbərlərin və övliyaların qəbirləri yanında heç bir əməli şəriətdən saymamışdır". Ona cavab olaraq deyirik: müsəlmanlar Peyğəmbər (s), Əhli-beyt və o Həzrətin səhabələrinin qəbirləri kənarında Allah-təala tərəfindən nazil olmamış bir xüsusi əməli yerinə yetirmirlər. Müsəlmanlar bir çox sünnələri də yerinə yetirirlər. İndi isə onlardan bir neçəsini diqqətinizə çatdırırıq.

**/95/ - Ola bilər ki, bu rəvayət-doğru olması fərzi ilə dünyadan müşrik getmiş ölülərinin qəbirlərini ziyarət etməyə gedən müsəlmanlar qadınlara aid olsun.**

**/96/ - "Kə'bul-əhbar"ın əsil adı Kə'b ibn Mane Himyəridir. O, Yəməndən Mədinəyə gəlib əvvəllər yəhudi, sonra müsəlman olmasını iddia etdi. Ömər, Osman və Müaviyə ibn Əbu Süfyanın müşavirlərindən və sünnilərin e'tibarlı şəxslərindən biri idi. Amma şiənin nəzərində o, müsəlmana bənzər yəhudi kimi bir şəxsdir. O, bir çox xurafatları hədislərə daxil etmiş, müsəlmanlıq adı ilə "İsrailiyyatı" yayaraq islami əndişə və hədislərə güclü zərbələr vurmuşdur. Müəllif burada, başqa yerlərdə olduğu kimi, sünni alimlərinin e'tibar etdiyi şəxs olduğundan, onun sözünü "cədəl və düşmənə öz sözü ilə cavab" babından nəql etmişdir. "Həbr" yəhudi alimlərinin ləqəbi olmuşdur. Kə'bul-əhbar "Yəhudi alimlərin ümdəsi" mə'nasını verir.**

**/97/ - Əbu Bəkrin qəbrini Peyğəmbərin (s) mübarək qəbrinin, Ömərin də qəbrini Əbu Bəkrin qəbrinin yanında qazdılar. Amma İmam Həsən (ə) şəhid olduqda, babası Peyğəmbərin (s) qəbrinin kənarında dəfn olunmasını vəsiyyət etdi, lakin Aişə və Mərvan mane oldular. Çarəsiz, o Həzrəti Bəqi qəbirstanlığında dəfn etdilər.**

## Müsəlmanların Allahın fərmanı ilə peyğəmbərlər və övliyaların qəbirləri kənarında yerinə yetirdikləri əməllər

Birinci məsələ: Bu əməllərdən biri, peyğəmbər və övliyalara salam göndərməkdir. Belə ki, müqəddəs İslam şəriəti istər Qur'anda, istərsə də sünnədə bu məsələni açıq-aydın bəyan etmişdir.

Qur'ani-Kərim bu barədə buyurur: "Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə salam və salavat göndərirlər. Ey iman gətirənlər! Siz də ona salavat göndərib, layiqincə salamlayın (Əhzab, 56)".

Həmçinin, buyurur: "Salam olsun Peyğəmbər (s) (Ali-Yasin) ailəsinə! (həm onların dirisinə, həm də ölüsünə salam olsun!) (Saffat, 130)".

Yenə buyurur: "Allah elçilərinə (peyğəmbərlərinə) salam olsun!" (Saffat, 181).

Bunların hamısından daha aşkar olan Allah-təalanın Həzrət Yəhya (ə) barədə buyurduğu ayədir: "Ona (Yəhyaya) doğulduğu gün də, öləcəyi gün də, (Qiyamətdə) diriləcəyi gün də salam olsun!" (Məryəm, 15).

Həzrət İsanın (ə) körpə ikən anasının qucağında dilindən rəvayət olunur: "Doğulduğum gün də, öləcəyim gün də, diriləcəyim (Qiyamət günü) də (Allahın) salamı mənə olsun!" (Məryəm, 33).

Amma sünnədə şər'i baxımdan namazda deyilməsi vacib olan üç dəfə Peyğəmbərə (s), namaz qılanların özlərinə, saleh və ləyaqətli bəndələrə və sair müsəlmanlara üç dəfə salam göndərməkdir.

Salamlar belədir: “Əssəlamu ələykə əyyuhunnəbiyyu və rəhmətullahi və bərəkatuh. Əssəlamu ələyna və əla ibadillahissalehin. Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh”.

Tərcüməsi: Allahın salamı, rəhməti və bərəkəti sənə olsun ey Peyğəmbər (s)! salam olsun biz namaz qılanlara və Allahın saleh və ləyaqətli bəndələrinə! Allahın salamı, rəhməti və bərəkəti siz müsəlmanlara olsun!

Axırıncı iki salamdan Peyğəmbərdən (s) başqasına, yə’ni mö’minlərə və dini rəhbərlərə də uzaq və yaxından salam göndərməyin caiz olması mə’lum olur. Peyğəmbərin (s) ziyarətində və mö’minlərin qəbirlərinin ziyarəti barədə Peyğəmbərdən(s) rəvayət olunanları və bizə çatanları, habelə, onlardan xatırladığımız bir sıra rəvayəti də yuxarıda dediklərimizə əlavə edin.

İkinci məsələ, peyğəmbərlərin və övliyaların qəbirləri kənarında yerinə yetirilən sünnə və əməllər onların müqəddəs zərihlərinə əl sürtmək, onları öpmək və onlara təbərrük etməkdən ibarətdir. İmamiyyə şiəsi bu əməlləri caiz bilirlər. Amma vahabilər: bu əməllər müşriklərin adətlərindəndir deyə, qarşısını alıb haram bilirlər.

Bu barədə vahabilərə cavab belədir:

Birinci, Allahın qadağan buyurmadığı yerlərdə bu və ya digər işin mübah olduğu əsas götürülür.

İkinci, “Təkcə bu iş, bir qrup yolunu azmışların adətlərindən olmuşdur”- sübutu, onu haram bilməyimizə səbəb ola bilməz. Belə ki, İbn Teymiyyənin də “Minhacus-sünnə” kitabında nəql etdiyi alimlərin icması ona sübutdur. İbn Teymiyyə deyir: “Müsəlmanların rəhbərlərinin hamısı qəbul edirlər ki, zərihə əl sürtməyin heç bir eybi yoxdur və bu iş haram deyil.

Üçüncü, zərihə əl sürtmək, ibadət sayılan əməllərdən deyil ki, şər’i vəzifə olmadığı təqdirdə haram sayılsın. Bu sadəcə olaraq, adi bir iş və bədən hərəkətidir ki, onu yerinə yetirmək Allah-təalanın əmrinə bağlı olsun. Buna əsasən, əgər bir şəxs bu əməli ibadət niyyəti ilə etməsə, heç bir harama batmamışdır. Belə ki, bu iş qəbirə baxmaq və ya onun kənarında oturmaq kimidir və bunlar Allah-təalanın əmrinə bağlı deyil.

Bəli, əgər kimsə bu işləri ibadət qəsdilə yerinə yetirsə, bid’ətdir. Çünki ibadət Allah-təalanın əmrinə bağlıdır və o da belə yerlərdə mövcud deyildir.

Amma kimsə bu işləri məhəbbət üzündən və qəbir sahibinin şərəfinə görə etsə, ibadət deyil və haram sayılmır. Şəriət də bu əməli sünnə tə’yin etməmişdir.

“Qəbirlərə əl sürtmək ibadət və Allahın əmrinə itaət etməyə bağlıdır. Şəriət sahibi fərman vermədiyinə görə, bu əməl bid’ətdir”-vahabilərin bu fikri əsassız və məntiqsizdir. Əksinə, bu iş şər’i sayılır və zəvvarların məhəbbətlərinin nişanəsidir. Heç də, qəbirə yaxud onun sahibinə pərəstiş etmək deyil.

Dördüncü: Peyğəmbər (s) bə’zən kitab əhli kimi rəftar edirdi. Belə ki, “Səhih-Buxari”də “Peyğəmbərin (s) xüsusiyyəti” bölməsində İbn Abbasdan belə rəvayət olunur: “Peyğəmbər (s) saçlarını darayıb çiyinlərinə tökərdi. Müşriklər isə saçlarını daramaz və dağınıq halda saxlayardılar. Amma kitab əhli (yəhudi və xristianlar) saçlarını darayıb, çiyinlərinə atardılar. Peyğəmbər (s) də bu işdə Əhli-kitab ilə uyğunlaşmaq istədi”.

Beşinci: Peyğəmbərin (s) qəbrinə əl sürtmək, Həcərül-əsvədə, Rükni-yəmani və onları öpmək hökmündəndir və bu əməllər İslam alimlərinin icmasına görə şəriət baxımından sünnədir.

Mö’təbər hədislərdə, səhih və sünən kitablarında olan rəvayətlər buna sübutdur. “Səhih-Buxari”də Zeyd ibn Əsləmdən, /98/ o da atasından rəvayət edir: “Gördüm ki, Ömər ibn Xəttab Həcərül-əsvədi öpüb dedi: Əgər Peyğəmbərin (s) səni öpdüyünü görməsəydim, səni öpməzdim”.

Əgər Peyğəmbər (s) doğrudan da Həcərül-əsvədi (qara daşı) öpübsə və onun bu işi müşriklərin, Qüreyş kafirlərinin Zati-Ənvat /99/ ağacına ibadət etmələri kimi nəzərə alınmırsa, onda qəbirə əl sürtmək də bu hökmü daşıyır. Çünki, şər’i olmaq baxımından bərabərdirlər.

Təəccüblü odur ki, Şeyx Əhməd Rumi /100/ öz traktatında Əzrəqinin /101/ Qətadədən /102/ etdiyi rəvayətə əsasən: “(Ey mö’minlər! Sizə də) İbrahimin durduğu yeri namazgah edin!”-ayəsinin /103/ təfsirində demişdir: “Camaata Məqami-İbrahimin (ə) yanında namaz qılmaq əmr olundu, ona əl sürtmək yox”.

Çünki, İbrahimin məqamına əl sürtmək haram və gizli şirk olsaydı, orada namaz qılmamaq daha yaxşı olardı. Çünki, məqami-İbrahim böyük bir məqam və ibadət yeridir. Bu baxımdan, orada şirkin fəsadı, ona əl çəkməyin fəsadından daha böyükdür.

## İrad

Qəzali deyir: “Həcərül-əsvədə əl sürtdükdə, Allah ilə bey’ət niyyət etmək lazımdır. Çünki, rəvayət olunmuşdur ki, Allahın Yer üzərindəki ayəti və nişanəsidir”.

## Cavab

Peyğəmbər (s) və onun haqq olan canişinlərinin qəbirlərinə əl sürtməkdə də məqsəd eynidir. Belə ki, Allah-təala Qur'anda buyurur: "(Ya Peyğəmbər!) Səninlə bey'ət edənlər, həqiqətdə Allah ilə bey'ət edirlər" (Fəth surəsi, 10).

## İrad

Yenə də Qəzali "Ehya-ülum-id-din" kitabının 209-cu səhifəsində yazır: "Kə'bənin pərdəsinə yapışmaq, Allaha və Onun evi Kə'bəyə məhəbbət və Allaha yaxınlaşmaq niyyətilə, habelə, Cəhənnəm atəşindən xilas olmaq, bağışlanmaq və Qiyamətdə amanda qalmaq ümidilə olmalıdır".

## Cavab

Şiənin nəzərində Peyğəmbər (s) və onun haqq olan 12 canişininin qəbirlərinə əl sürtmək, onlara yapışmaq, yuxarıda qeyd olunan həmin niyyətlə eynidir. Onların müqəddəs qəbirlərinin ziyarətinə gedən şiələr, qəbir sahibinə təbərrük və onun vasitəsilə Allahdan bağışlanmağı arzulamaq niyyəti edirlər. Habelə, onları şəfaətçi qərar vermək də belədir. Bu barədə olan ayələrə nəzər salaq:

"Sən ey Allahın Peyğəmbəri, nə qədər ki, günahkarların arasındasan, Allah onlara əzab verməz".

"Həqiqətən, Rəbbin sənə (Qiyamət günü ən uca şəfaət məqamı, Cənnətdə tükənməz ne'mətlər) bəxş edəcək və sən (Ondan) razı olacaqsan!" (Zuha,5).

"Onlar (münafiqlər) özlərinə zülm etdikdə, dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, şübhəsiz Allahın tövbələri qəbul edən, mərhəmətli olduğunu bilərdilər (Nisa, 64)".

Səhih bir hədisdə Peyğəmbərdən (s) belə rəvayət olunmuşdur: "Mənim Əhli-beytim Nuhun (peyğəmbərin) gəmisinə bənzəyir, ona minənlər xilas olar, boyun qaçıranlar isə həlak olarlar".

Habelə, buyurub: "Mənim Əhli-beytim sizin aranızda bəni-İsraildə olan "Babi- Hittəyə" bənzəyir".

Altıncı: Peyğəmbər (s) və ilahi övliyaların qəbirlərinə əl sürtmək barədə müsəlmanların nəzərində ən əhəmiyyətli olan məsələ "Səhih-Buxari"də Mənaqib fəslinin "Peyğəmbərin xüsusiyyətləri" bölməsində Həkəmdən nəql olunan rəvayətdir. Həkəm deyir: "Əbu Hənifədən belə eşitdim: "Peyğəmbər (s) Bəthada dəstəmaz alıb, zöhr (günorta) namazını qıldı... Orada olan camaat Peyğəmbərin (s) əlini tutub öz üzlərinə (surətlərinə) sürtürdülər. Mən də Həzrətin əlini tutub üzümə (sifətimə) qoydum, gördüm ki, qardan sərin, müşkdən daha ətirlidir".

Həmin fəslin axırında deyilir: "Bir gün Peyğəmbərin (s) azançısı Bilal azanı deyib məscidə daxil oldu və az sonra Peyğəmbərin (s) aldığı dəstəmazın suyunu bayıra gətirdikdə, camaat ondan suyu alıb təbərrük etdilər".

Buna əsasən, Peyğəmbərin (s) həyatı zamanı əlinə dəstəmazının suyuna təbərrük etmək caiz olsa və bu işlər o Həzrəti Allah bilmək, Zati-əmvata ibadət etmək Allahdan başqasına ibadət nümunəsi və yəhudi, xristianların adətlərinin arxasınca getmək sayılmasa, o Həzrətin qəbrinə vəfatından sonra da əl sürtmək və təbərrük etmək caiz sayılar. Çünki hər ikisi bir mə'nadadır.

Yeddinci: Qəbirə əl sürtməyin həqiqətən də şəriət baxımından haram olmasını qəbul etsək, söylədiyimiz sübutlara əsasən bu əməlin şər'i nəzərdən mübah olmasına əqidə bəsləyənləri bu işdən çəkindirmək olmaz. Çünki nəhy əz münkər elə yerdə caizdir ki, o əməli yerinə yetirən bunu haram və pis bilsin. Halbuki, qəbirə əl sürtməyin haram olması müsəlmanların heç bir firqəsi yanında zəruri məsələlərdən deyil və heç bir firqəyə bunu firqənin inanclarını qəbul edib arxasınca getmək vacib deyil. Çünki belə olduqda, bütün məzhəblər batil olar. Bu məsələ üzərində yekdil fikrə gəlmək, düzgün bilmək fərzilə faydasız və mə'nasız olacaqdır. Xüsusilə də məzhəblər çoxsaylı şər'i məsələlərdə bir-birləri ilə rə'y müxtəlifliyinə malikdir və heç kim bütün məzhəblərin şər'i məsələlərin hamısında bir-birinə uyğun olmalarının vacibliyinə hökm verməmişdir.

Üçüncü məsələ: Zəvvarlar hər ziyarətdən sonra, istədikləri məkanda ziyarət namazı qılır və onun savabını ziyarət olunan şəxsin ruhuna hədiyyə edirlər. Bu əməlin də şəriət baxımından heç bir eyb və iradı yoxdur. Çünki namaz ən yaxşı ibadət və Qur'anın tilavəti, onun savabını meyitə (ölüyə) hədiyyə etmək kimidir.

Buxari "Nübüvvətin əlamətləri" bölməsində deyir: "Bir gün Peyğəmbər (s) meyitlərdən biri üçün meyit namazı qılıb getdi". /104/

Buna əsasən, qəbrin kənarında namaz qılmaq şər'i baxımdan caizdir. Habelə, ziyarət namazı və onun savabını ziyarət olunan şəxsə hədiyyə göndərməyin heç bir eybi yoxdur. Buna görə də bu əməlləri caiz ibadətlərdən saymaq lazımdır.

"Tövhid məcmuəsi"ndə belə deyilir: "Qalilər (yə'ni, imamiyyə şiəsi) qəbirlərin yanına getdikdə, iki rik'ət namaz qılırlar". Daha sonra deyilir: "Onların namazı Allah üçün deyil, əksinə Şeytan üçündür".

Bu fikirlər əsassız və böhtandır. Adı çəkilmiş kitabın müəllifi "Şiələrin Peyğəmbər (s) və Onun Əhli-beytinin(ə) qəbirləri kənarında qıldıqları namaz, Allaha təşəkkür etmək üçündür. Belə ki, Allah-təala onları Peyğəmbər (s) və Əhli-beytin(ə) qəbirlərini ziyarət etməyə və Allahın rəhmətinə şamil olmağa müvəffəq etmişdir"- desəydi, həvayi-həvəs üzündən söylədiyi fikir və böhtan deməkdən daha yaxşı olardı.

Qur'anın arxasınca gedənlərə salam olsun!

Dördüncü məsələ, zəvvarların ziyarət namazından sonra Allah-təaladan öz hacətlərini istəmələri də şər'i baxımından caizdir. Bu əməl şirk deyildir. Nə gizli, nə də aşkar şirk sayılır. Çünki duanın xüsusi zaman və məkana bağlı olması qeyd edilməmişdir. Belə ki, Allah-təala Özü Qur'anda buyurur: "Mənə dua edin, dualarınızı qəbul edim" (Qafir (Mö'min) 60).

Vahabilər öz kitablarında açıq-aşkar demişlər ki, zəvvarların dua zamanı Peyğəmbərin (s) qəbrinə tərəf üz tutmalarını caiz bilmirlər. Halbuki, "Biz ona şah damarından da yaxınıq!" -ayəsi onların fikrini rədd edir.

"Səhih-Buxari"də deyilir: "Peyğəmbər (s) minik vasitəsində gedərkən, üzü hansı tərəfə idisə, o tərəfə də namaz qılırdı".

## Sual

Vahabilərin tanınmış fəqihi İbn Qəyyimə /105/ belə demişlər: "Bu mə'na bütlərə pərəstişə bənzəyir ki, bütpərəstlər cahiliyyət zamanında dua edərkən Lat və Üzza adlı iki bütün qarşısında dururdular. O, deyir: "Şəriətdə xüsusi zaman və məkanda namaz qılmaq qadağan edilmişdir. Bu əməl şirk əhlinin ibadətinə bənzəməyin kökünü kəsmək məqsədilə həyata keçir".

## Cavab

Əgər dua zamanı dua edənin Peyğəmbərin (s) mübarək qəbrinə üz tutması şirk üçün bir vasitə olsaydı, Allah-təalanın onu aşkar qadağan etməsi lazım idi. Necə ki, məkruh yaxud haram məkanlarda namaz qılmağı qadağan etmişdir. Çünki bu barədə bizə heç bir hökm yetişməmişdir. Ümumi şəkildə, rüsxət vermiş ayələri qeyd etdikdən sonra onun zəif və haram olmasına hökm verə bilmərik.

Üsuli-fiqh terminologiyasına əsasən, "şər'i sübut, yə'qin və qəti yol hasil olana qədər cümlənin zahirini (ilkin baxış) nəzərə almağı tələb edir".

Nəql etdiyimiz aşkar ayələr qarşısında onlara göz yummaq üçün kifayət qədər sübut yoxdur. Buna əsasən, yuxarıdakı aşkar ayələrin ziddinə hökm vermək, Allah-təalanın fərmanına müxalifət etməkdir.

Bunlardan əlavə, Malik ibn Ənəsin /106/ Abbasi xəlifəsi Mənsura verdiyi cavab vahabi firqəsinin fikrinə münasib cavabdır.

Mənsur Peyğəmbərin (s) hərəmində Malikdən soruşdu: "Üzü qibləyə durub dua edim, yoxsa, Peyğəmbərin (s) qəbrinə tərəf?". Malik dedi: "Nə üçün üzünü Peyğəmbərin (s) qəbrindən çevirirsən, axı, Peyğəmbər (s) Allahla sənin aranda vasitəçidir. Necə ki, o, atan Adəmin Allaha olan vasitəçisi idi. Dua edərkən, Peyğəmbərin (s) qəbrinə tərəf üz tut və o Həzrəti vasitəçi və şəfaətçi qərar ver!".

Bu mətləbi əhli-sünnə alimlərinin böyük bir qrupu səhih sənədlərə istinadən nəql etmişlər. Bu barədə mə'lumat üçün aşağıdakı qaynaqlara müraciət edin:

1) "Şifaül-əsqam", müəllif: Qazi Təqiyyud-din Məhəmməd ibn Əbdül Kafi Ənsari, Xəzrəci Misri Şafei Sübki. /107/

2) "Xülasətül-vəfa", müəllif: Mədinənin tanınmış fəqihi Səmhudi.

3) "Məvahibüd-diniyyə", müəllif: Əllamə Qəstəlani və bir çox sünni, şiə alimləri mö'təbər kitablarında vahabilərin "Bir şəxsin dua zamanı Peyğəmbərin (s) qəbrinə tərəf üz tutması şirkdir"-demələri əsassız və sübutsuzdur.

**/98/ - Zeyd ibn Əsləm Ədəvi Mədəni e'tibarlı alim və Ömərin nökəri idi. O, 36-cı hicri ilində vəfat edib (İbn Həcər Əsqalinin "Təqribut-təhzib" kitabından).**

**/99/ - Müşriklər, kafirlər bu ağaca pərəstiş edir, onun üçün qurbanlıq kəsir və ona bir şey asırdılar.**

**/100/ - Əhməd ibn Hisamuddin Rumi, Molla Həqq Şəhr Zuri Hənəfi adı ilə məşhurdur. O, Rum qazilərindən olmuş və hicri 1033-cü ildə vəfat etmişdir. Bir çox kitab və traktatlara malikdir, o cümlədən, "Risalətün-əla məvatinə-minət-təfsir", "Əlhidayətu-vət-təlvih", "Əl-Müğəməqat-min-fətəva Qazi xan" əsərləri vardır.**

**/101/ - Məhəmməd ibn Əbdüllah ibn Həməd, Əzrəqi adı ilə məşhurdur. Onun əsli Yəməndən idi və Məkkədə məskunlaşmışdı. Tarixçi olmuş və "Məkkənin tarixi" kitabının müəllifidir. Təqribən, 250-ci hicri ilində vəfat etmişdir.**

**/102/ - Qətadə ibn Dəamə. 117-ci hicri-qəməri ilində vəfat etmişdir. O, sünni alimlərindən olmuşdur. Anadangəlmə kor idi.**

**/103/ - Bəqərə, 125.**

**/104/ - Yə'ni, Peyğəmbər (s) qəbristana yaxud bir meyit qəbrinin yanına gəlib ona namaz qıldı. Bu özü, qəbrin kənarında namaz qılmaqdır. Bu namazın bizim Peyğəmbər (s), imamlar (ə) və övliyaların qəbirləri kənarında qıldığımız namazla nə fərqi vardır?**

**/105/ - İbn Qəyyim Cuziyyə Məhəmməd ibn Əbu Bəkr Hənbəli (h.q751-ci ildə vəfat etmişdir) İbn Teymiyyənin şagirdi və "Zadil-miad-fi-huda xeyril-ibad" kitabının müəllifidir. İbn Qəyyim ikinci fəqih və məşhur hədisçidir, vahabi firqəsi onun fitvalarına istinad edirlər. Birinci şəxs onun ustadı İbn Teymiyyə, üçüncü şəxs isə Məhəmməd ibn Əbdülvəhhab Nəcdidir.**

**/106/ - Malik ibn Ənəs (h.q. 179-cu ildə vəfat etmişdir). Sünnilərin məşhur fəqihi və maliki firqəsinin banisidir. O, İmam Cə'fər Sadiqlə (s) bir dövrdə, Mədinədə yaşamışdır. Özü belə deyir: "Hər elmi müşküllə qarışlaşdıqda, Cə'fər Sadiqdən soruşdum".**

**/107/ - O, hicri 756-cı ildə vəfat etmişdir.**

# 6-ŞİƏYƏ QARŞI YERSİZ TÖHMƏTLƏR

## Vahabi firqəsinin İmamiyyə şiəsinə qarşı yersiz töhmətləri

Vahabi firqəsinin şiələrə nisbət verdikləri bir sıra məsələlər, nə şiənin kitablarında, nə də şiə məzhəbinin əqidəvi prinsiplərində vardır. Habelə, onlar deyirlər:

a) Şiələr imamlarının qəbirləri kənarında təvaf etməyə və Allah Evinin əvəzinə, hərəm və ziyarətgahlara getməyə icazə verirlər.

b) Şiələr özlərinin qurbanlıq və nəzirlərini Peyğəmbər (s) və öz imamlarına təqdim edirlər.

s) Peyğəmbər (s) və öz imamlarının qəbirlərini məscid bilib, onlara Kə'bə evi kimi pərəstiş edir, qarşılarında namaz qılırlar.

Burada, onların irad və töhmətlərinə cavab veririk.

## Birinci töhmətin cavabı

Şiələr İmamların (ə) qəbirləri kənarında təvaf etməyə icazə vermirlər. Çünki bu əməl qeyri-müsəlman olan Allahpərəstlərin yanında caiz sayılmadıqda, müsəlmanların yanında necə caiz sayıla bilər? Buna əsasən, kimsə ibadət və sitayiş qəsdilə imamların (ə) qəbirləri kənarında təvaf etsə, kafir və müşrikdir. Amma təvaf bu niyyətlə olmasa, təbərrük və hacətlərini istəmək məqsədilə təvaf etsə, bu iş şirk və küfr deyildir. Çünki hər kəs öz niyyətinə tabedir. Ümumiyyətlə, təvaf özü təklikdə ibadət deyil ki, onu yerinə yetirmək mütləq şəkildə haram olsun. Təvaf ibadət məqsədilə olduqda ibadət sayılır.

Allah-təala da açıq-aşkar söyləmişdir: "İnsanın əməli, onun niyyətinə bağlıdır". Əlavə şərh üçün deyirik: "Şükr və təşəkkür etmək Allah üçün olduqda, Allaha ibadət sayılır. Amma Allahdan başqası üçün

olsa, ibadət sayılmır. Bu baxımdan, şəriətdə Allah-təaladan başqası üçün şükr etmək caizdir. Belə ki, Allah insana buyurur: “Mənə və ata-anana şükr et!” (Loğman, 14).

Bundan daha aydını Adəmə (s) səcdə etməyə əmr olunmasıdır. Belə ki, Allah-təala Qur’anda bir çox ayələrdə aşkar buyurmuşdur: “Adəmə səcdə edin”.

Bütün müsəlman təfsirçiləri demişlər: “(Yusif) ata-anasını taxt (öz taxtının) üstünə qaldırdı. Onlar (ata-ana, qardaşlar, misirlilər) hamısı (hörmət əlaməti olaraq) ona (Yusifə) (tə’zim) səcdə edib əyləşdilər”- /108/ bu ayədə olan səcdə, pərəstiş və ibadət səcdəsi deyildi. Əksinə, Yusifin (ə) məqamını böyük tutub ona hörmət bəsləmək idi. Həmçinin, mələklərin Adəmə (ə) olan səcdəsi də bu hökmdədir. Buna əsasən, vahabi firqəsinin şübhəsi və şiələrə qarşı yersiz və əsassız töhmətləri verdiyimiz izahlar nəticəsində rədd olunur. Necə ki, belə şübhə də irəli sürmüşlər: “Nə üçün Allahın birliyinə inananlar, Allahdan başqasına ibadət etməyə icazə vermirlər, halbuki, Qur’an onu caiz bilir. Belə ki, Qur’anda deyilir: “Mən ona surət verib ruhumdan üfürdüyüm zaman siz ona (ibadət məqsədilə deyil, tə’zim məqsədilə) səcdə edin”. /109/

Habelə, bu ayə: “Bir zaman Yusif öz atasına demişdi: “Atacan! Mən (yuxuda) bir ulduz və Günəşlə Ayı gördüm. Gördüm ki, onlar mənə səcdə etdilər”. /110/ Habelə, öncə qeyd etdiyimiz Yusif surəsi, 100-cü ayə. Bütün bu şübhələrin də cavabı aydın oldu. Çünki bu ayələrdə olan səcdə, Allahdan başqası üçündür və ibadət deyildir. Əksinə, möhtərəm insanlara tə’zim edib, onlara hörmət bəsləməkdir. Eyni zamanda da, şəriət baxımından heç bir eybi yoxdur. Bunlardan əlavə, müsəlmanlar belə təvafı caiz bilir və onda heç bir irad, eyb görmürlər. Çünki müsəlmanlar Allahın Evinin ətrafında təvaf edir, onun daşlarına əl sürtməklə tə’zim edirlər. Bunda heç bir irad və eyb nəzərə çarpmır. Tarix boyunca da müsəlmanların bu əməlinə irad tutmamışlar.

Bununla belə, əlavə şərh və vahabilərin şübhələrinə cavab olaraq deyirik: “Təvafdan məqsəd bina və tikiliyə ibadət etmək deyil, əksinə, evin sahibinə hörmət edib, onu müəzzəm tutmaq məqsədilə Kə’bənin qarşısında səcdə etmək kimidir. Çünki Kə’bə-Allahın evidir. Mələklərin Adəmə (ə) səcdə etməsi də ona pərəstiş və sitayiş səcdəsi deyildi. Əgər belə olsaydı, Şeytan Allaha cavab verməliydi ki, bu əməl şirkdir və təkallahlılıqla uyğun gəlmir. Daha təkəbbür edib belə deməzdi: “Mən ondan üstünəm”.

## İkinci iftiraya cavab

Vahabi firqəsi deyir: “Şiələr öz nəzir-niyaz və qurbanlıqlarını müqəddəs ziyarətgahlara aparırlar. Halbuki, şiə alimləri fiqh kitablarında açıq-aydın yazırlar: Allahdan qeyrisi üçün nəzir, qurban və bu kimi işlər doğru deyil. Bu hökm şiələrin əməllərinin düz olmadığını göstərir.” /111/

Lakin bilirik ki, müqəddəs ziyarətgahlar əlsiz-ayaqsızların, yoxsul və dilənçilərin pənah yeridir. Şiələr nəzir və qurbanlarını elə yerlərə ona görə aparırlar ki, ehtiyacı olanlara paylasınlar. Kim bu hökmü dəyişsə, kafirdir və şiələrə bu iftiranı, böhtanı atanlar yalançıdırlar.

## Üçüncü iftiraya cavab

Vahabilər deyirlər: “Şiələr qəbirlərə sitayiş edir, qəbrin önündə səcdəyə qapılır.” Bu fikir bir neçə dəlilə görə əsassız və şiələrə deyilən növbəti iftiradır. Əvvəla, şiələr heç bir qəbrin önündə namaz qılmır və heç belə adətləri də yoxdur. Təsadüfən belə iş tutsalar, əsas vermir ki, onlar qəbri qiblə hesab etsinlər. Ümumiyyətlə, İslamı qəbul edən və Kə’bəni qiblə sayan kəs bu fikirdə ola bilərmi? Bir şiənin öz qurbanlığını qiblədən başqa istiqamətə, ya da imamların qəbri ilə üzbəüz kəsdiyini görən varmı? Məgər şiələr qurbanı camaatın gözü önündə kəsmirlərmi? Qəbirlərin önündə namaz qılmaq da fiqhə aid məsələdir və dini e’tiqadlara dəxli yoxdur. Heç bir alim bu məsələni e’tiqadi kitabında yazmamışdır. Bütün İslam alimləri xüsusi yerlərdə namaz qılmağın məkruh yaxud haram olması barədə fikir müxtəlifliyinə malikdirlər. Vahabilər bunu bilməyirlərmi? Məsələn, hamamda, ayaqyolunda, küçənin ortasında, yanar tonqalın, canlı rəsminin qarşısında, heykəlin önündə, insanla üzbəüz namaz qılmağın hətta haram və batil olduğunu deyən fəqihlər də bu işi küfr və şirk kimi qəbul etməmişlər.

“Səhihi-Buxari” də “məqbərələrdə namaz qılmağın kəraməti” və “namaz qılanın hökmü” fəslində təndirin, alovun, pərəstiş olunan bir şeyin və ya Allaha tərəf hesab olunan bir istiqamətdə namaz qılmaq haqda mə’lumat verdikdən sonra bu yerlərdə namaz qılmağın caiz olmasına dəlalət edən hədislər vardır. Deməli, əgər bir şəxs qəbrin önündə namaz qılarsa və fikrində qəbirdəki şəxsi deyil, Allahı tutarsa namazı düzgündür. Çünki, şəriət sahibindən belə halda qılınan namazın haram və batilliyinə dair hökm yetişməyibsə, namaz düzgündür. Elə buna görə də Buxari onu haram yox, məkruh kimi qələmə verir. Buxari belə hallarda namaz qılmağın düzgünlüyü üçün bu əhvalatı sübut kimi göstərir:

“Ömər gördü ki, Ənəs ibn Malik qəbrin kənarında namaz qılır. Ona yalnız bunu dedi: Qəbir! Qəbir! Lakin demədi ki, namazını təzələ. Başqa bir yerdə Buxari Peyğəmbərin(s) aşağıdakı hədisə əsaslanır: Allah Yeri mənim üçün məscid (səcdəgah) və pak yaratmışdır. Ona görə də mənim ümmətim namazın vaxtı yetən kimi, harda olsa əda etsin”.

Buxari habelə yazır: “Həsəni Müsənna vəfat etdi. Arvadı onun qəbri üstə bir qübbə tikdirib, bir il orada namaz qılıb ibadət etdi və sonradan o qübbəni götürdü. Buxari bu əhvalatı “Qəbirlər üzərində səcdə etməyin məkruhluğu” fəslində yazır.

## İbn Teymiyyənin fikri

İkincisi: İbn Teymiyyə Aişədən rəvayət edir: “Peyğəmbər(s), vəfatı ilə nəticələnən xəstəliyi zamanı buyurdu: Allah Yəhud və Nəsaraya lə’nət eləsin. Çünki onlar öz peyğəmbərlərinin məzarlarını məscid halətinə gətirdilər. Aişə əlavə edir: Əgər bu fikir olmasaydı, Peyğəmbər(s) göstəriş verərdi ki, qəbrini hündür tiksinlər, lakin qorxdu ki, onu məscidə çevirərlər.

## Cavab

İbn Teymiyyənin cavabı budur: “Bu hədisdə deyilmir ki, kimsə qəbrin önündə Allah xatirinə namaz qılsa, haram olar. Hədis məhz Peyğəmbərin(s) Yəhud və Nəsaranı öz peyğəmbərlərinin qəbirlərini məscid etdikləri üçün lə’nətlədiyini bildirdi. Məsələn, Həzrət Musa və İsa(ə) kimi peyğəmbərlərə pərəstiş edir, onların qəbirlərini Beytül-Müqəddəs kimi qiblə edirdilər. İbn Teymiyyə Malik ibn Ənəsin “Əl Muvəttə” kitabına əsaslanaraq, “Minhac-əs-sünnə”də Peyğəmbərdən(s) bir rəvayət nəql edir və bu rəvayət dediklərimizə sübutdur: “Peyğəmbər(s) buyurub: “İlahi! Mənim qəbrimi sitayiş olunan bütə çevirmə. Allahın şiddətli qəzəbi öz peyğəmbərlərinin qəbirlərini məscid hesab edən camaata nazil olsun. Hədisdən aydın olur ki, kimsə qəbri məscid hesab edərək, ona tərəf namaz qılsa haramdır. Lakin belə iş tutan şəxs müşrik adlanmaz. Elə Aişənin dediyi də buna sübutdur: “Peyğəmbər(s) qəbrinin məscid olacağından qorxurdu”. “Sünəni-Nəsai” kitabını şərh etmiş alim Sindi /112/ yazır: “Peyğəmbər(s) istədi ki, ümmətini yəhudi və Nəsaranın öz peyğəmbərlərinin qəbirlərinə bəslədiyi münasibətdən çəkindirsin. Onlar qəbirləri məscid edirdilər. Ya qəbirlərin önündə səcdə edirmişlər ya da namaz və digər ibadətləri yerinə yetirərkən onlardan qiblə kimi istifadə edirmişlər.

Nevəvi /113/ “Səhihi-Müslüm”ün şərhində yazır: “Alimlər deyirlər: Peyğəmbərin(s) öz qəbrinin məscid edilməsini qadağan etməsinin səbəbi bu idi ki, ona göstərilən hörmətin həddini aşmasından və onu çox şişirtmələrdən çəkinirdi. Hətta iş küfrə də çəkə bilərdi. Necə ki, keçmiş ümmətlərdə baş vermişdi.” Cəlaləddin Siyuti “Sünəni-Nəsai”yə yazdığı şərhində deyir: “Beyzəvi belə söyləyir: yəhudi və nəsaralar peyğəmbərlərə ehtiram əlaməti olaraq, onların qəbirləri önündə səcdə edirdilər. Onlardan qiblə kimi istifadə edir, namaz və digər ibadətlər üçün onlara tərəf üz tuturdular. Hətta büt kimi də qəbirlərə sitayiş edirdilər. Buna görə də Peyğəmbər(s) onları lə’nətlədi və müsəlmanları o işlərdən çəkindirdi. Amma kimsə ləyaqətli bir insanın qəbri kənarında mübarək olsun deyə, məscid tiksə, hədis ona şamil olmaz.

**/108/ - Yusif, 100**
**/109/ - 2 Hicr, 29.**
**/110/ - Yusif, 4.**

**/111/ - Belə əməlləri hər yerdə etmək olar, hətta müsəlman öz evində də bu işi görə bilər. Belə işlər Allah yolunda olduğu üçün müəyyən yerə xas deyil. Şiələr ya Allah, ya Peyğəmbər, ya İmam və İmam övladları ya da böyük və təqvalı şəxslər üçün qurban kəsir, nəzir-niyaz paylayır və ehsan verirlər. Avam camaat içində bu hökmü düzgün bilməyənlərin hərəkəti əsas götürülə bilməz.**

**/112/ - Əbülhəsən Nuriddin Məhəmməd ibn Əbdülhadi Sindi Hənəfi. Hindistanın Sind əyalətindən olmuş, Mədinədə yaşamış və Peyğəmbər(s) şəhərində tədrislə məşğul olmuşdur. “Sihahi-Sittə”yə və “Sünəni-Nəsai”yə haşiyə yazıb. Hicri 1138-ci ildə Mədinədə vəfat edib.**

**/113/ - Muhyiddin Yəhya ibn Şərəf Dəməşqi Şafei. Böyük fəqih və adlı-sanlı mühəddis olmuşdur. Hicri 677-ci ildə Dəməşq yaxınlığında yerləşən Nevada vəfat etmişdir. “Səhihi-Müslim”in şərhi olan “Əl-Minhac” kitabının müəllifidir.**

## 7-MÜQƏDDƏS MƏKANLARIN ƏTRAFINDAKI MƏSCİDLƏR

Vahabi məzhəbi müqəddəs məkanların ətrafında tikilmiş məscidləri dağıtmağı vacib hesab edir. Onlar bu ayəyə əsaslanırlar: "Elə isə (məscid) binasını Allah qorxusu və rizası üzərində quran şəxs daha yaxşıdır, yoxsa uçulmaqda olan bir yerin (uçurumun) kənarında qurub, onunla birlikdə Cəhənnəm oduna yuvarlanan şəxs? Allah zalım tayfanı doğru yola yönəltməz (Tövbə-109)". Əlavə olaraq, Aişənin hədisinə əsaslanırlar: "Ümm Həbibə və Ümm Sələmə, habelə, Peyğəmbərin(s) Həbəşəyə mühacirət etmiş digər xanımları o Həzrət üçün danışırdılar ki, Həbəşədə divarlarında təsvir olan kilsə görmüşlər. Peyğəmbər(s) buyurdu: -Onların içində layiqli bir şəxs ölüb. Onun qəbri üzərində mə'bəd tikərək, o təsvirləri orada yerləşdirmişlər. Onlar Qiyamət günü Allah hüzurunda ən pis camaat olacaqlar."

Lakin (vahabiləri çıxmaq şərtilə) bütün müsəlmanlar peyğəmbərlərin, imamların və övliyaların qəbirləri kənarında məscid tikməyi halal, o məscidləri dağıtmağı isə haram hesab edirlər. Çünki onlar da məsciddir və məscidə ehtiram vacibdir.

Məsələn, Peyğəmbər(s) qəbrinin kənarındakı Peyğəmbər məscidi, Şamda Həzrət Yəhya(ə)-ın qəbri yerləşən Əməvi məscidi, Məscidi-Əqsa (Beytül-Müqəddəs) və s. Beytül-Müqəddəsdə İshaq övladlarından olan bir çox peyğəmbərin qəbri yerləşir. Bu işin düzgünlüyünü müsəlmanların adət-ən'ənəsi də təsdiqləyir. Bundan əlavə, bütün İslam alimləri fitva vermişlər ki, bir şəxsin hansısa məkanda, hətta qəbir üzərində olsa belə, məscid tikməsi düzgün işdir. Məsələn, Peyğəmbər(s) məscidində o Həzrətin, Əbubəkrin və Ömərin qəbri yerləşir. Qeyd etdiyimiz kimi, Beyzavi **/114/** və Cəlaləddin Süyuti də bunu düzgün saymışlar. Aişənin hədisinə gəldikdə isə əvvəla, bu hədis Peyğəmbərin(s) buyurduğu: "Allah Yeri mənim üçün məscid və pak yaratmışdır. Ona görə də ümmətim harada namaz vaxtı yetişdi, qılsınlar"-hədisi ilə düz gəlmir (əlbəttə, kimsənin mülkü və qəsbi olmamaq şərti ilə). Yaxud Həsəni Müsənnanın xanımının onun qəbri üzərində qübbə tikdirərək, bir il orada ibadət etməsi. Hər iki hədis qəbir kənarında namaz qılmağın düzgünlüyünü təsdiq edir.

İkincisi, Yəhud və Nəsaranın ən pis olması, qəbir üzərində mə'bəd tikdirdikləri üçün deyil. Çünki, Allah əshabi-Kəhfin mağarasını tapanda, "gəlin, bunların üzərində bir məscid tikək"-deyən mö'minləri mədh edir (tə'rifləyir) (Kəhf-21).

Yəhud və Nəsara kafir və Tanrıdan uzaq olduqları üçün pis idilər. Onlar yaxşı adamların heykəllərini düzəldərək mə'bədlərdə yerləşdirir, sitayiş edirdilər. Onlar Allaha şərik qoşurdular. İşləri cahiliyyət ərəblərinin Kə'bəyə büt asması kimi idi. Bu iş hara, bir yeri məscid etmək hara? Halbuki, məscid tikən şəxs Allaha ibadətdən başqa məqsəd güdmür və Qur'an da bunu düzgün hesab edir.

Cəlaleyn **/115/** təfsirində belə deyilir: "Mö'minlər əshabi-Kəhfin mağarası üzərində namaz qılmaq üçün bir məscid tikdilər." Fəxr Razi yazır: "Mö'minlər dedilər: -Allaha ibadət etmək və əshabi-Kəhfin tə'sirini saxlamaq üçün onların üzərində məscid tikərik." Deməli, Qur'ani-Kərim açıq-aydın bildirir ki, əshabi-Kəhfi unutmamaq üçün onların üzərində məscid tikmək şirk deyil. Biz də Qur'an deyəni, deyirik. Nə zaman bu ayəni nəsx edən yaxud cılızlaşdıran digər ayə tapsanız, sizinlə razılaşacayıq.

**/114 / - Qazi Abdullah ibn Ömər ibn Məhəmməd Beyzavi Farsi Əş'əri Şafei alim, həkim, üsul elmində nəzər sahibi olmuşdur. "Ənvar-ət-tənzil" adlı təfsirin müəllifidir. Bu kitab bir növ Zəməxşərinin "Kəşşaf" təfsirinin dəqiqləşdirilmişidir. Beyzavi Farsda yerləşən məşhur Beyza şəhərindəndir. Hicri 685-ci ildə Təbrizdə vəfat etmişdir.**

**/115/ - "Cəlaleyn" təfsiri Qur'anın qısa açıqlamasıdır. İsra surəsinin sonuna kimi Cəlaləddin Məhəmməd ibn Əhməd Məhəlli Şafei Misri, həmin yerdən Qur'anın sonuna kimi eyni üslubla Cəlaləddin Süyuti Şafei təfsir etmişdir. Hər ikisinin adı Cəlalla başladığı üçün, kitabın adı "Cəlaleyn" təfsiri adlanır. Bu təfsirə oxşar və bu üslubda bir şiə təfsiri də vardır ki, böyük şiə alimi hicri 1242-ci ildə vəfat etmiş Seyyid Abdullah Şübbər tərəfindən yazılmışdır. Bu kitab da "Cəlaleyn" təfsiri kimi Qur'anın haşiyəsində çap olunmuşdur. Qahirə Universitetinin müəllimi, doktor Hamid Hifni Davud Şübbərin təfsirini "Cəlaleyn" təfsirindən üstün hesab edir.**

# EPİLOQ

## Vahabilərin digər müsəlmanlarla müxalifəti

Sonda xatırlatmaq istərdik ki, vahabilər bir neçə dəfə müsəlmanlara qarşı çıxmış və bu işi öz məzhəblərinin şüarı hesab etmişlər. İş o yerə çatıb ki, öz məskənlərini "Tövhid diyarı", başqalarının məskənini isə "Şirk diyarı" hesab edirlər. Bu fikir xəvaricdə olduğu kimi, onların da məzhəbinin əsasını təşkil edir. Halbuki, belə düşüncə şər və çirkin hesab olunur. Bu həmin Allahın müsəlmanları çəkindirdiyi təfriqədir: "Hamınız bir yerdə Allahın ipindən (dinindən möhkəm) yapışın, bir-birinizdən ayrılmayın (Ali-İmran-103). "(Ya Rəsulum!) Şübhəsiz ki, sənin firqə-firqə olub dinini parçalayanlarla heç bir əlaqən yoxdur" (Ənam-159).

Mühəmməd ibn İsmayıl Buxari "Əl-fitnə" kitabında Hüzəyfədən /116/ hədis nəql edir: "Hamı Peyğəmbərdən(s) xeyir və yaxşılıq haqqında sual edirdilər. Lakin mən o Həzrətdən şər və pislik haqqında soruşurdum ki, ona düçar olmayım. Odur ki, dedim: Ya Rəsulallah! Biz nadanlıq dövründə şər içində yaşayırdıq, sonra Allah bu xeyiri (İslamı) bizə bəxş etdi. Bundan (bu xeyirdən) sonra yenə şər olacaqmı? Peyğəmbər(s) buyurdu: Bəli, Cəhənnəmin qapısında carçılar var, kim onların sözünü qəbul etsə, Cəhənnəmə gedəcək. Soruşdum: Onlar kimlərdir? Buyurdu: Biz müsəlmanlardandırlar və dilimizdə danışırlar. Dedim: Mən onlarla rastlaşsam nə edim? Buyurdu: Müsəlmanlar və onların rəhbəri ilə birləş. Soruşdum: Əgər müsəlmanlar birləşməsələr və rəhbərləri olmasa nə edim? Buyurdu: Bütün firqələrdən kənarlaş. "Vahabi alimləri Allahpərəstlik, şirk, küfr və bunların növləri barədə müxtəlif kitablar yazırlar. Nə yaxşı olardı, küfrün növlərindən birini də "müsəlman cəmiyyətindən ayrılmaq" hesab edərdilər?! Necə ki, firqələr haqqındakı ayədə deyilir və Peyğəmbər(s) hədisində vardır: Kim bir qarış müsəlman cəmiyyətindən kənarlaşsa, İslamdan kənarlaşmış olur".

## Vahabilər; Şeytanın buynuzu!

Buxari "Əl-fitnə" kitabında Abdullah /117/ ibn Ömərdən nəql edir: "Peyğəmbər(s) iki dəfə buyurdu: İlahi, bizə Yəməndə bərəkət ver, İlahi, bizə Şamda bərəkət ver. Əshab dedi: Buyurun, Nəcddə də bizə bərəkət ver. Peyğəmbər buyurdu: Nəcd, zəlzələlər və fitnələr yeridir, Şeytanın buynuzu oradan çıxacaq! Buxari həmin kitabda yazır: "Salim /118/ atasından belə nəql edir: Bir gün Peyğəmbər(s) minbərin yanında dayanıb buyurdu: Fitnə-fəsad oradan çıxar. Şeytanın buynuzu çıxan yerdən!". Elə həmin kitabda Buxari Nafe'dən nəql edir: "Abdullah ibn Ömər deyir: "Peyğəmbər(s) üzünü Şərqə tutub buyurdu: Agah olun! Fitnə-fəsad oradadır. Şeytanın buynuzu oradan çıxar".

"Şərh-əs-sənə" kitabında Üqbə ibn Ömərdən /119/ nəql olunur: "Peyğəmbər(s) əli ilə Yəmənə tərəf işarə edərək buyurdu: Agah olun ki, ora bərəkətlidir. Agah olun ki, qəsavət və rəhmsizlik, dəvələrinin quyruğu altında yerləşən dəvəçilərin arasındadır. Şeytanın buynuzu çıxan yerdə!". /120/ Doğrudan da bir dünya təəccüb var! Özlərini sünnət və camaat əhli hesab edən vahabi alimləri ən çox inandıqları "Səhihi-Buxari" kitabında, e'tibarlı saydıqları Abdullah ibn Ömərdən, onun qulamı Nafe'dən və digər ravilərdən nəql olunan bir belə hədisi görə-görə, necə e'tinasızlıq edirlər? Doğurdan da, Peyğəmbərin (s) o hədisindəki: "Şeytanın buynuzu Nəcddən çıxar" nə deməkdir? "Sizə nə olub? Necə mühakimə yürüdürsünüz?".

## Vahabilər Allahdan başqası ilə dostluğu şirk sayırlar

Vahabi məzhəbi, necə ki, "Tövhid risalələrinin toplusu" kitabında deyilir, şirkin növlərindən birini- "dostluq şirki" hesab edir və bu ayəyə əsaslanırlar: "İnsanların içərisində Allahdan qeyrilərini (Allaha) şərik qoşub, onları Allahı sevən kimi sevən də vardır. Halbuki, iman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir" (Bəqərə-165).

Məsələ bundadır ki, onların şirk saydıqlarının bu mə'nada olması bəlli deyil. Çünki, onların dediyi kimi, Allahdan qeyrisi ilə dostluq etmək şirk hesab olunursa, onda belə çıxır ki, bütün müsəlmanlar müşrikdirlər. Müsəlmanlar öz atalarını, övladlarını, var-dövlətlərini və dostlarını sevirlər. Heç bir şər'i əsas yoxdur ki, belə insanları müşrik adlandıraq. Və heç kəs onların müşrik olduğu qənaətinə gəlməmişdir. Mümkündür ki, belə desinlər: Allahdan qeyrisini sevmək, peyğəmbərlərə və övliyalara pərəstiş etməyə aparıb çıxarır. Biz isə deyirik: Peyğəmbər(s) və imamlara olan məhəbbət bu həddə çatmır və "Ğulat"lardan /121/ başqa heç kəs bu fikirdə deyil. Peyğəmbər(s) və İmamı sevən heç bir müsəlman onlara pərəstiş məqsədi güdmür. Müsəlmanlar Peyğəmbər(s) və imamları, onların Allaha bağlı olduqları üçün sevir və heç bir müsəlman onları Allah hesab etmir. Ona görə də Peyğəmbər(s) və imamlar haqqında Allah nə deyibsə, müsəlmanlar da onu deyirlər. Məsələn, Allah Peyğəmbər(s) və imamlara müqərrəblik və şəfaət imtiyazını verib, müsəlmanlar da bunu qəbul edirlər. Qəribə burasıdır ki, vahabilərdən: "Siz Peyğəmbəri(s)

sevirsinizmi?”-deyə, soruşduqda onlar müsbət cavab verir, lakin bunu şirk hesab etmirlər. Amma mə’lum deyil nə üçün vahabi olmayanlar hansısa peyğəmbər yaxud imamı sevəndə müşrik olurlar?!

## Bəqi’dəki imamların qəbirləri vahabilər tərəfindən dağıdıldı

Vahabilərin “iş”-lərindən biri də, Bəqi’ qəbristanlığında imamların məzarlarını dağıtmaqla, Allaha və Peyğəmbərə qarşı alçaqlayırlar. Elə şəxslərin məzarlarını dağıtdılar ki, Allah onlardan bütün pislik və günahları təmizləmiş, onları pak-pakizə etmişdir. /122/

Onların bu işi, həm kitab, həm də sünnə vasitəsilə qəti sabit olunmuş Peyğəmbərin(s) yaxınlarını sevmək məsələsini inkar etmək deməkdir. Necə ki, Allah-təala buyurur: “(Ya Peyğəmbər!) De: “Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən başqa bir şey istəmirəm (Şura-23)”.

Bütün bunlara baxmayaraq, bir dəstə nəcdli (İbn Süudun qoşunu) gəlib Peyğəmbər(s) Əhli-beytinin(ə) qəbirlərini dağıdırlar. Elə onların ata-babası, o imamları qətlə yetirmişdilər. Sələflər öz xələfləri üçün necə də murdar irs qoydular və xələflər öz sələflərini nə pis yamsıladılar!!! Beləliklə, onlar Peyğəmbərin(s) öz Əhli-beyti(ə) üçün tapşırığını saymadılar. Bunlardan əlavə, bütün İslam məzhəblərində mö’minin qəbri üstündən keçmək, ona söykənmək və üstündə oturmaq qəbir sahibinə təhqir kimi qəbul olunur. Deməli, qəbri dağıtmaq şübhəsiz, mö’minə edilən böyük təhqirdir.

“Əl-Müfavizət-əl-hindiyyə” /123/ kitabında Əbdül Əziz ibn Səud hind alimlərinə belə cavab verir: “ Məndən altı sual soruşursunuz. Biz dəfələrlə demişik, yenə də deyirik. Hətta canımız bahasına da olsa, Peyğəmbər(s)-in qəbrini və evini qoruyacağıq. Biz Mədinəni Peyğəmbər(s) məscidini qorumaq üçün mühasirə etmişik.” Digər bir e’tiraza cavab olaraq yazır: “Sizi arxayın edirəm ki, heç kəs Peyğəmbərin(s) məqbərəsinə toxunmayacaq. Bizim fikrimizcə, Peyğəmbərin(s) ehtiramından əziz heç nə yoxdur.” /124/

Belə çıxır ki, İbn Səudun Peyğəmbərin(s) qəbrini dağıtmamasına səbəb, o Həzrətə hörmət etməsi olub. Yə’ni, əgər qəbri dağıtsa, o Həzrətə hörmətsizlik olar. Bəs Qur’anın hökmü ilə Peyğəmbərin(s) ciyərparası olan Əhli-beytin(ə) qəbrini dağıtmaq hörmətsizlik deyilmi? Görəsən, fərq nədədir? Allah Qur’anda buyurur: “Allah Adəmi, Nuhu, İbrahimi, övladını və İmran ailəsini aləmlər (məxluqat, insanlar, bəşər övladı) üzərində seçilmiş (üstün) etdi. Onlar biri digərindən törənmiş bir nəsil idilər. Allah eşidəndir, biləndir” (Ali-İmran, 33-34).

“Səhihi-Buxari”də Peyğəmbərdən(s) nəql olunur: “Fatimə mənim cismimin yarısıdır, kim onu qəzəbləndirsə, məni qəzəbləndirib, kim məni qəzəbləndirsə, Allahı qəzəbləndirib”.

Deməli, Peyğəmbər(s) öz Əhli-beytini(ə) özündən hesab edib. Onlara ehtiramsızlıq, o Həzrətə hörmətsizlik deməkdir. Peyğəmbərin(s) qəbrini dağıtmaq haramdırsa, onların da qəbrini dağıtmaq haramdır. Kim başqa söz desə, cəfəngiyyatdır.

## Vahabi alimlərinin qəbirləri dağıtmaq üçün dəlilləri və onların cavabları

Vahabi alimləri deyirlər: “Əgər vəqf olunmuş bir yerdə qəbrin üstündə məqbərə olsa, camaat üçün yer daralar. Buna görə də onu dağıtmaq lazımdır. Onlar Bəqi qəbirlərini dağıtmaqda bu fikrə əsaslanırlar. Lakin onların fikri bir neçə səbəbdən batildir:

1. Sual- Bəqi’dən başqa qəbristanlıqlardakı müsəlman qəbirlərini dağıtmağa hansı sübut və dəlil vardır? Onlardamı camaata narahatlıq törədirdilər? Onları dağıtmaq qəti şəkildə haramdır. Çünki, müsəlmanların malını zay etmək deməkdir.

2. Bu hökm vəqf yerlərinə aid ola bilər. Bəqi’ isə mübah yerdir. Kim desə ki, Bəqi’ni kimsə alaraq vəqf edib, gərək sübut etsin.

3. Qəbrin üzərindəki tikilini o vaxt dağıtmaq olar ki, o yerin ölülər üçün vəqf olunduğu mə’lum olsun. Lakin sahibsiz bir yerdə qəbir üzərində tikili varsa, ona toxunmaq olmaz və müsəlmanın işini düzgünlüyə yozmaq lazımdır. Əks təqdirdə, 14 əsrlik müsəlman adət-ən’ənəsinə necə bəraət qazandırmaq olar? Çünki keçən əsrlərdə tikilən məqbərələr xəlifə və alimlərin gözü önündə olmuş və heç kəs buna e’tiraz etməmişdir. Vahabilər peyda olub müqəddəs qəbirləri dağıtmağa başladılar. Demək, onların işinə nə Allah, nə Peyğəmbər(s) nə də sonrakı xəlifələr razıdırlar.

## Vahabilərin müsəlmanların malına, canına və namusuna təcavüzü

Vahabilər öz vəhşiliklərini o yerə çatdırdılar ki, müsəlmanları qətlə yetirməyə, mal və namuslarına toxunmağa başladılar. Hətta Məlik Əbdül-Əziz ibn Səud "İki şərafətli hərəmin xadimləri ilə müsahibə" məqaləsində bunu e'tiraf etdi. Lakin o zabit və əsgərlərin etdiklərinə məs'uliyyət daşımadığını iddia edərək dedi: "Mənimlə zabitlərimin vəziyyəti, Peyğəmbərlə sərkərdəsi Xalid ibn Vəlidin vəziyyəti kimidir. Peyğəmbər(s) onu bir ərəb tayfasının üzərinə göndərdi. Xalid hiylə ilə onları qətlə yetirdi. Xəbər Peyğəmbərə(s) çatdıqda, əllərini göyə açıb üç dəfə dedi: "İlahi, Şahid ol! Mən Xalidin etdiklərinə nifrət edirəm".

Lakin bu müqayisə düz deyil. Çünki Peyğəmbər(s) Xalidi döyüş üçün göndərməmişdi. O, Xalidin öz əməli idi. Məlik Əbdül Əziz isə qoşunu müsəlmanlarla müharibəyə göndərmişdi (qeyd etmək lazımdır ki, müəllif kitabı, Məlik Əbdül Əziz yenicə Hicaza hökmdarlıq edərkən, onun sağlığında yazmışdır). Bir müsəlman cihadda, yaxud başqa vəziyyətdə digər müsəlmanlarla belə rəftar etsə və bu bəhanələrlə məs'uliyyətdən yaxa qurtara bilsə, onda İslamın fatihəsi oxunmalıdır. Müsəlman kafir kimi hərəkət etsə, dindən çıxmış olur. Kafirlər öz məqsədlərinə çatmaq üçün heç bir qeyd-şərt, qayda-qanun tanımırlar. Bu isə Peyğəmbərin(s) öyrətdiyi islami dəyanətdən çox-çox uzaqdır. Məsələ İbn Səudun dediyi kimidirsə, onda mən and verirəm onu Kə'bənin Allahına, "Müfavizati-Hindiyyə"də yazılanları oxusun və əgər islami abidələri onun əmri olmadan dağıdıblarsa, bərpa etsin. Əks təqdirdə, Allaha şikayət etmək lazımdır. İslamdan öncə də dinsizlər Kə'bəni, Beytül-müqəddəsi və digər müqəddəs məkanları dağıtmışdılar. İslamdan sonra da Yezid ibn Müaviyə Peyğəmbər(s) balasını qətlə yetirərək, onun və dostlarının cənazəsini qüslsüz, kəfənsiz və dəfn etmədən çöldə qoymuşdular. Sonra da Kə'bəni dağıdaraq müsəlmanların malını, canını və namusunu öz əsgərlərinə halal etmişdi. Əbdül Məlik Mərvanın göndərdiyi qoşuna başçılıq edən o Həccac ibn Yusifin Abdullah ibn Zübeyri tutmaq üçün mancanaqla Kə'bəni dağıtmasını da bilirik. Bizim elə təsəllimiz də budur ki, bu işlər təzə deyil. Tutaq ki, Əbdül Əziz əsgərlərin etdiyi işə razı deyilmiş. Lakin camaatın oğurlanmış mallarını, dağıdılmış evlərini bərpa etmək onun boynundadır və bu, şəriətin hökmüdür. Xalid ibn Vəlidin cinayətində Peyğəmbər(s) özünü günahkar saymır və ərz edirdi ki, "İlahi, şahid ol! Xalidin törətdiyi qətl və qarət Allah və Onun Rəsulunun göstərişinin əksinə olmuşdur".

Amma buna baxmayaraq, Həzrət Əlini(ə) göndərdi ki, camaata dəymiş ziyanı ödəsin. Peyğəmbərin əməli hara, Əbdül Əzizin cinayəti hara?

Düzgün müqayisə o olardı ki, Məlik Əbdül Əziz də Peyğəmbər(s) kimi etsin. /125/

## Vahabilər məzhəb azadlığının qarşısını alırlar

Vahabilər Nəcd və Hicazda məzhəb azadlığına mane olur, şəriətin icazə verdiyi işləri görməyi müsəlmanlara qadağan edirlər. "Ya Rəsulallah", "Ya Məhəmməd(s)"-deyəni, Peyğəmbər(s) zərihinə toxunan, onu öpən, o Həzrətlə dərdi-dil edərək, Allahla öz arasında vasitəçiləri müşrik və kafir sayırlar. Müsəlmanların eyni məzhəbə əməl etməsi yox, hər məzhəbə inanan şəxsin öz fəqihinin dediklərinə əməl etməsi vacibdir (əlbəttə, kitab və sünnəyə əsasən). Necə ki, Allah buyurub: "Əgər (müsəlmanlar) bunu (münafiqlərə deyil), Peyğəmbər(s) və ya özlərindən (mö'minlərdən) olan əmr sahiblərinə demiş olsaydılar, əlbəttə, həmin xəbəri onun mahiyyətinə varan (belə bir xəbərin yayılmasının məqsədəuyğun olub-olmadığını tə'yin etməyə qadir olan) şəxslər bilərdilər (Ən-Nisa-83)".

Habelə, buyurur: "Barı, hər tayfadan bir dəstə (dini elmləri öyrənmək, sonra da dindaşlarına öyrətmək üçün) qalsın ki, camaatı (döyüşdən) qayıtdığı zaman (Allahın əzabı ilə) qorxutsun (Tövbə-122)".

"Əgər (bunu) bilmirsizsə, kitab əhlindən soruşun. (Nəhl-43)". İslam alimləri (zikr və kitab əhlinin təqlid mərcə'ləri və müctəhidlər olduğunu bildirirlər. Onların da mərcə'i kitab və sünnədir. İbn Teymiyyə deyir: "Kim kitab və sünnəyə istinad etmədən xalq arasında hökm etsə, kafirdir!!! ("Minhac-əs-sünnə", üçüncü hissə, s-32).

Demək, vahabilərin əməli, şəriətdə qəti şəkildə qadağan olunmuş bid'ətdir. Mö'min yalnız sünnəyə və səhabənin sirəsinə əməl edə bilər. Kim "Allahın hökmünə" əməl etmək istəsə, öz rə'yini deyil, Allahın rə'yini qəbul etməlidir, əks təqdirdə, "Allahın hökmünün əksinə" hökm etmiş olur.

**/116/ - Hüzeyfə və atası Yəman Peyğəmbər(s) səhabəsi olmuşlar. Hüzeyfə möhtərəm səhabələrdən və Peyğəmbərin(s) sirdaşlarından olmuşdur. Şiələr onu Əmir-əl-mö'mininin tərəfdarlarından hesab edirlər. Hüzeyfə Əli(ə)-ın xilafətinin əvvəllərində, 36-cı hicri ilində vəfat edib.**

**/117/ - Abdullah ibn Ömər ibn Xəttab fəqih və hədisçi olmuşdur. Bitərəf, tikansız şəxs idi və camaat fəqihlərindən hesab olunur. Hicri 73-cü ildə ölmüşdür.**

**/118/ - Salim ibn Abdullah ibn Ömər ibn Xəttab Mədinədəki yeddi camaat fəqihlərindən biri olmuşdur. Onu fiqh və hədis elmində atası Abdullah ibn Ömər kimi hesab edirlər. Hicri 106-cı ildə vəfat etmişdir.**

**/119/ - Üqbə ibn Əmr ibn Sə'ləbə Ənsari Əbu Məs'ud Bədri səhabə olmuşdur. Hicri 40-cı. ildən ya əvvəl ya da sonra vəfat etmişdir.**

**/120/ - Deyirlər, Nəcd əsgərləri Əbdül Əziz ibn Səudun başçılığı ilə Mədinəyə hücum edərək bütün müqəddəs məkanları, imamların, Peyğəmbər(s) səhabələrinin və əhli-əyalının qəbirlərini viran etdilər. Peyğəmbərin də qəbrini dağıtmaq istədikdə, İslam ölkələri başçılarının, hind alimlərinin notasından və müsəlmanların onların əleyhinə qiyam etməsindən qorxub əl çəkdilər. Bu tarixdə məşhurdur ki, həmin vaxt Nəcd əsgərləri (Məhəmməd ibn Əbdül Vəhhabın tərəfdarları) Peyğəmbər(s)-in qəbri üstə qəhvə vuraraq deyirmişlər: "Məhəmməd(s)! Qalx! Qalx! Sənmi demisən Nəcd şeytanın buynuzudur?!".**

**/121/ - Ğulat - Ğali sözünün cəmidir. Ğali-Peyğəmbər və İmamın məqamını pərəstiş həddinə yüksəldərək, ğüluv və mübaliğə edən şəxsə deyilir. Həzrət Əli(ə)-ı-Allah bilənlər kimi.**

**/122/ - Əhzab surəsinin 33-cü ayəsinə işarədir. Ayədə deyilir: "Siz ey (Peyğəmbərin) ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!". Vahabilər, Bəqi' qəbristanlığındakı bütün qəbirləri dağıtdılar. O cümlədən, Əhli-beytdən olan dörd mə'sum İmamın, yə'ni, İmam Həsən Müctəba, İmam Zeynalabidin, İmam Məhəmməd Baqir və İmam Cə'fər Sadiq(ə)-ın qəbrini dağıtdılar. Onların məqbərəsində yerləşən daha bir neçə qəbri- Əli(ə)-ın anası Fatimənin və Peyğəmbərin (s) əmisi Abbasın da qəbrini dağıtdılar.**

**/123/ - Müfavizat - söhbət, danışıq, dialoq deməkdir. Vahabi şahı Mədinəni mühasirə edib, qəbirləri dağıdan zaman hind sünni alimləri ona bu haqda suallar yazmış və o da bu suallara cavab vermişdir. Kitab bütövlükdə bu sual-cavabı əhatə edir..**

**/124/ - Dedik ki, vahabilər istisnasız, bütün qəbir və məqbələrin dağıdılmasını lazım bilirlər. Əgər dünya müsəlmanlarının qorxusu olmasaydı, Peyğəmbər(s) qəbrini də dağıdardılar.**

**/125/ - Məlik Əbdül Əziz belə etmədi və dedikləri sırf yalan idi. Bəqi'dən, imamların məzarından və Peyğəmbər(s) hərəmindən qarət edib apardıqları əşyaları qaytarmayıb, Ali-Səud sülaləsi arasında bölüşdürdülər.**

SON